İbrahim Həbibov

Mühəndis Qrafikası kafedrası

80 illik şərəfli yolun tarixi

İbrahim Həbibov

İ.Ə.Həbibov 4 iyun 1951-ci ildə Bakı şəhərində anadan olub. 1968-ci ildə Bakı şəhəri 44 saylı orta məktəbi bitirib və həmin ildə M.Əzizbəyov adına Azərbaycan Heft və Kimya institutunun (indiki ADNA) «Neft-mexanika» fakültəsinə daxil olub. 1973-cü ildə ali məktəbi «Mühəndis mexanik» ixtisası üzrə bitirib.

1973-cü ildə XKB «Bakneftemaş»da konstruktor vəzifəsində əmək fəaliyyətinə başlayıb. 1974-1977-ci illərdə indiki Suraxanı Maşınqayırma zavodunda çalışmışdır. 1977-ci ildən hal-hazırki vaxta qədər Azərbaycan Dövlət Neft Akademiyasında əvvəlcə assistent, dosent və 1995-ci ildən isə professor vəzifəsində çalışır. 1995-ci ildən «Mühəndis qrafikası» kafedrasının müdiridir.

1995-1998-ci illər arasında, müqavilə əsasında «Azəriqaz» Dövlət Şirkətində baş mütəxəssis vəzifəsində çalışaraq, Beynəlxalq layihələrlə bağlı işlərində iştirak edib.

1988-89-cu illərdə Kiyev Dövlət Universitetinin 10 aylıq xarici kursunu (ingilis dilini) bitirib.1988-ci ilin sentyabr və 1990-cı ilin mart ayı müddətinə Təhsil Nazirliyi xətti ilə Çin Xalq Respublikasına elmi məzuniyyətə göndərilib.

1984-cü ildə M.Lomonosov adına Moskva Zərif Kimya Texnologiyası İnstitutunda texnika elmləri namizədi və 1994-cü ildə isə Azərbaycan Dövlət Neft Akademiyasında doktorluq dissertasiyaları müdafiə edib.

170-ə yaxın monoqrafiya, elmi məqalə, dərslik və dərs vəsaitinin müəllifidir. Elmi və metodiki işləri Almaniyada, Türkiyədə, Çində, Rumıniyada, Rusiya və başqa ölkələrdə çap olunub. Rəhbərliyi altında 3 namizədlik dissertasiyası müdafiə edilmişdir.

2010-cu ildə «Tərəqqi» medalı ilə təltif olunmuşdur.

2003-cü ildə Beynəlxalq Ekoenergetika Akademiyasının üzvü seçilib. 2011- ildən Rusiya Təbiət Elmləri Akademiyasının müxbir üzvüdür.

İBRAHİM HƏBİBOV

MÜHƏNDİS QRAFİKASI

KAFEDRASI:

80

İLLİK ŞƏRƏFLİ YOLUN TARİXİ

BAKI - 2013

İbrahim Həbibov.
Mühəndis qrafikası kafedrası: 80 illik şərəfli yolun tarixi.
Bakı, ADNA-nın mətbəəsi, 2013, 156 səh.

Bu kitabda əsası 1932-ci ildə qoyulmuş və respublikada ilk dəfə olaraq «Tərsimi həndəsə» fənninin tədrisi ilə məşğul olan ali məktəb kafedrasının keçdiyi şərəfli yolun tarixi, bu yolda bilik və bacarıqlarını əsirgəməyən şəxsiyyətlər haqda məlumatlar toplanmışdır. Bu insanların hər birinin ali məktəblərdə texniki biliklərin inkişafında, respublikada qrafiki mədəniyyətin yüksəldilməsində, yanacaq-enerji kompleksi üçün savadlı və yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsində böyük və əvəz olunmaz rolu olmuşdur.

Kitab mühəndis hazırlığı prosesində iştirak edən professor-müəllim heyəti, texniki profilli ali məktəlbərdə təhsil alan bakalavr, magistr və gənc tədqiqatçılar üçün yararlı vəsait ola bilər.

ISBN 978-9952-440-39-9

© İbrahim Həbibov, 2013

ÖN SÖZ ƏVƏZİ

Azərbaycan Dövlət Neft Akademiyasının «Mühəndis qrafikası» kafedrası onun strukturuna daxil olan, zəngin tarixi və özünəməxsus idarəçilik prinsipləri ilə fərqlənən, illər boyu formalaşmış ənənələrini saxlayan kafedralardan biridir.

Keçdiyi 80 illik şərəfli yol boyunca bu kafedrada dahi şəxsiyyətlər, peşəkar müəllimlər, öz işini dərindən sevən fədailər, həyatını təhsil sahəsinə həsr edənlər, burada illər boyu formalaşan adət və ənənələri qoruyub saxlayan insanlar yaşayıb yaratmışdır.

Bu insanların zəhməti nəticəsində «Mühəndis qrafikası» kafedrasının şöhrəti Azərbaycanın sərhədlərini aşaraq dünyanın müxtəlif guşələrinə yayılmışdır. Kafedranın yetirmələri Azərbaycan iqtisadiyyatının bütün sahələrində çalışaraq hansı ali məktəbin tələbələri olduqlarını uğurla təsdiqləyərək ona baş ucalığı gətirirlər.

Bu gün tam əminliklə demək olar ki, «Mühəndis qrafikası» kafedrası ölkəmizin təhsil sisteminin qızıl üzüyü olan Azərbaycan Dövlət Neft Akademiyasının ən dəyərli bəzək daşıdır.

Kafedranın kollektivi bu ilin payızında onun yaradılmasının 80 ilinin qeyd olunmasına hazırlaşır.

Bu kitabın yazılmasının əsas səbəbi «Mühəndis qrafikası» kafedrasının yaranmasında və formalaşmasında xidmətləri olan insanları yad etmək, onların adlarını layiq olduqları səviyyədə əks etdirməkdir.

Bu, kafedranın tarixini özündə əks etdirən ilk kitabdır. Kitabla tanış olanlar burada bəzi müəllimlər haqda məlumatların olmadığını qeyd edə bilərlər. Bəri başdan onlardan üzr istəyərək deməliyəm ki, bu arxiv materiallarının olmaması, müəyyən şəxslərin yaşayış məkanlarının dəyişməsi və ya əlaqələrin tam itməsi ilə bağlı olmuşdur. Məqsəd mümkün qədər kafedranın qısa tarixini və burada çalışan insanlar haqqında əldə olunmuş materialları əbədiləşdirməkdir.

Hörmətlə, İbrahim Həbibov

«Mühəndis qrafikası» kafedrasının qısa tarixi

Əsası 1920-ci ildə qoyulan, neft elminin beşiyi hesab edilən Azərbaycan Dövlət Neft Akademiyasında mühəndis hazırlığında xüsusi yeri olan kafedralardan biri də «Mühəndis qrafikası» kafedrasıdır.

1924-1925-ci tədris ilinə qədər, **Azərbaycan Politexnik İnstitutu** adını daşıyan bu ali məktəbdə, «Tərsimi həndəsə» və «Rəsmxət» fənləri institutun aparıcı professor-müəllim heyətinə həvalə edilmişdi. Belə ki, «Tərsimi həndəsə» fənni professor D.N.Qolovin, B.Q.Pobedinski, L.İ.Yelkin, «Rəsmxət» fənni isə tanınmış mühəndislər A.Q.Babayev, B.A.Bayer, V.S.Qridin, B.Y.Starodub və başqaları tərəfindən tədris olunurdu. Adları çəkilən fənlərə metodiki təminat və onların tədrisi ilə bağlı problemlərin həlli institutda yaradılmış «Fənn komissiyaları» tərəfindən həyata keçirilirdi. İnstitut inkişaf etdikcə, tələbə kontingenti artdıqca və bu fənlərin mühəndis hazırlığındakı vacibliyi zəruriliyi nəzərə alınmaqla, onların tədrisinin konkret kafedralar tərəfindən aparılması aktuallaşmağa başlayır. Bu məqsədlə institutda 1924-1925-ci tədris ilində «Maşın hissələri, yük qaldıran mexanizmlər, tərsimi həndəsə və rəsmxət» kafedrası yaradılır. Kafedrada «Tərsimi həndəsə» və «Rəsmxət» dərslərini V.F.Puzırevski, Ə.Məmmədov, K.Məmmədov və digər müəllimlər aparmağa başlayırlar. 1930-1931-ci tədris ilində kafedraya yeni gənc müəllimlər qəbul olunur. Bunların sırasında İ.İ.Qarayev, Ə.A.Əliyev və V.N.Qorsenskinin adlarını çəkmək olar.

1930-cu ilin may ayının 29-da Azərbaycan Poitexnik institutu **M.Əzizbəyov adına Azərbaycan Neft İnstitutuna (ANİ)** çevrilir. Az sonra, 1932-ci ildə Dekanlar Şurasının qərarı ilə ilk dəfə olaraq «Tərsimi həndəsə və rəsmxət» adlı müstəqil kafedra yaradılır və kafedraya rəhbərlik V.F. Puzırevskiyə tapşırılır.

1934-cü ildə bu təhsil ocağının adı dəyişdirilərək **Azərbaycan Sənaye İnstitutu (ASİ)** adlandırılır. İnstitutda müəyyən struktur çevrilmələri aparılır və kafedra yenidən «Maşın hissələri və maşınqayırma mexanizmləri» kafedrası ilə birləşdirilir. Bu vəziyyət 1938-ci ilə qədər davam edir. Sonradan kafedra müstəqil

şəkildə öz fəaliyyətini bərpa edir və kafedraya rəhbərlik yenidən V.F.Puzırevskiyə həvalə edilir. Kafedranın formalaşmasında və inkişafında bu şəxsin böyük zəhməti və rolu olmuşdur. Məhz onun kafedraya rəhbərlik etdiyi dövrdə xüsusiləşdirilmiş auditoriyalar və laboratoriyalar təşkil olunmuş, dərs prosesləri coxlu sayda əyani və texniki vasitələrlə təchiz olunmuşdur. 1940-cı ildə Ə.Məmmədov, V.F.Puzırevski və K.Məmmədov tərəfindən azərbaycan dilində «Tərsimi həndəsə» adlı ilk dərslik hazırlanıb nəşr olunmuşdur.

Professor V.F.Puzırevskinin rəhbərlik etdiyi dövrdə respublikada tanınmış mühəndis və gənc mütəxəssislər, o cümlədən, Ə.Hacıyev, A.Vəliyev, M.Qluskin, A.Buşnev, l.Buşneva, M.Əliyeva, O.Rəhimov, Z.Əhmədov, C.İsmayılov, O.Qurbanov, R.Əyyubova, Ə.Mirzəbəyli, L.Mirantsev, V.Bernşteyn, B.Vetoxin kafedrada fəaliyyətə başlamışlar.

1962-ci ildə həmin kafedranın əsasında iki müstəqil kafedra təşkil olunması qərara alınır. O zamanlar institut **M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu (AzİNEFTEXİM)** adlandırılırdı. Yeni və müstəqil «Tərsimi həndəsə» kafedrasına rəhbərlik etmək professor V.F. Puzırevskiyə həvalə edilir. «Rəsmxət» kafedrası isə dosent A.V. Dmitrevskinin rəhbərliyi altında fəaliyyətə başlayır. Bu şəxsiyyətlərin hər biri öz işinin gözəl biliciləri olmaqla yanaşı yüksək səviyyəli təşkilatçılıq bacarığına malik idilər. Onlar ətraflarına topladıqları gənc və bacarıqlı mütəxəssislərin köməkliyi ilə kafedraların texniki bazasının yüksəldilməsinə, keçirilən dərslərin maraqlı olmasına yönəldilməsi istiqamətində böyük işlər görə bilmişdilər. Həmin illərdə «Rəsmxət» kafedrasına yeni müəllimlər cəlb edilir: R.Rəfiyev, B.Quliyev, İ.Çernikova, A.Cavadov, S.Baxışev və C.Əliyev.

Bu illərdə ilk dəfə olaraq, təkcə Azərbaycanda deyil, keçmiş SSRİ məkanında da «Tərsimi həndəsə və rəsmxət» fənlərinin tədrisində elektrik əsasında işləyən cihazların, maketlərin və s. tədris vəsaitlərinin dərs prosesində tətbiqinə başlanılmışdır.

1965-1971-ci illər ərzində «Rəsmxət» kafedrasına dosent K.M. Bağırzadə rəhbərlik edir. Onun dövründə kafedraya böyük istehsalat təcrübəsi qazanmış, aspiranturanı bitirərək namizədlik dissertasiyası müdafiə etmiş mütəxəssislər işə

dəvət edilirlər. Bu sırada texnika elmlər namizədləri S.Süleymanov, A.Əsədov, Y.Fərzanə, Q.Fukson, T.Dadaşeva, M.Məmmədova, Q.Qirimov, Z.Kərimov, P.Məlikov, B.Qutman, eləcə də X.Babayeva, B.Sultanova, İ.Tsibulski, Z.Hacı-məmmədova, K.Hüseynov, A.Hüseynov, M.İsmayılov, M.Balakişiyeva, M.Fətəli-yeva, U.Datskovski, S.Məlikova, C.Camalov və X.Cavadovanı göstərmək olar.

971-ci ildən «Rəsmxət» kafedrasına professor Z.M. Əhmədov rəhbərlik etmişdir. 1975-cı ildə yenidən bu iki kafedra «Mühəndis qrafikası» adı altında birləşdirilir və ona rəhbərlik etmək professor Z.M. Əhmədova həvalə edilir. Bu illərdən başlayaraq kafedrada yenidənqurma işləri aparılır. Belə ki, kafedranın adının «Mühəndis qrafikası» qoyulması onun müasirləşdirilməsini və yeni statusa uyğun gəlməsini tələb edir. Kafedrada küllü miqdarda təsərrüfat hesablı elmi işlər yerinə yetirilir, tədris otaqlarındakı avadanlıqlar yeniləri ilə əvəz olunur, yeni dərs vəsaitləri və metodiki göstərişlərin nəşri qaydaya salınır. Eyni zamanda kafedraya yeni qüvvələr cəlb edilir: R.Səttərova, F.Səmədov, Ə.Babayev və N. Sadıqova.

1981-1986-cı illərdə kafedraya professor Ə.Həsənov rəhbərlik etmişdir. Bu müddətdə kafedrada böyük və güclü müəllim potensialı formalaşmış və onların bir qrupunun iştirakı ilə «Tərsimi həndəsə» kursu üzrə yeni dərsliyin nəşri üçün geniş işlər aparılmışdır. İlk dəfə olaraq tədris proqramlarına qrafiki proqramlaşdırma ilə bağlı mövzular daxil edilmişdir.

1986-1992-ci illərdə kafedraya rəhbərlik dosent S.Bünyadova həvalə edilir. Bu dövrdən kafedrada tədris prosesində geniş şəkildə elektron hesablama maşınları tətbiq olunmağa başlayır. Kafedra o vaxtlar üçün müasir olan DBK-3 tipli fərdi kompüterlər ilə təchiz olunur.

1991-cı ildə institutun adı dəyişdirilir və o universitet statusu alaraq **Azərbaycan Sənaye Universiteti (AzSU)** adlandırılır. Dosent S.Bünyadovun rəh-bərliyi ilə 1991-ci ildə maşın qrafikası üzrə I Respublika elmi-metodiki konfrans keçirilir. Kafedraya yeni müəllimlər cəlb olunur. Onlardan S.Mustafayev, Z.Nur-məmmədova, S.Tağıyev, V.Məmmədov və R.Ərəbovu misal göstərmək olar.

1992-ci ildə Respublika Nazirlər Kabinetinin qərarı ilə AzSU-nun adı dəyişdirilərək **Azərbaycan Dövlət Neft Akademiyası (ADNA)** adlandırılır.

1992-1994-cü illərdə kafedraya professor S.İ.Bəxtiyarov rəhbərlik edir.

1995-ci ildən ADNA-nın «Mühəndis qrafikası» kafedrasına t.e.d., professor İ.Ə.Həbibov rəhbərlik edir. Bu müddətdə kafedranın tədris, metodiki, elmi-tədqiqat və digər sahələrində ciddi yenidənqurma işləri aparılır. Tədris prosesində kompüterləşmə işi, texniki və əyani vasitələrin tətbiqi xüsusi vüsət alır. Kafedranın elmi fəaliyyət istiqaməti dəqiqləşdirilərək neft-mədən avadanlıqlarının layihələndirilməsində kompüter qrafikasının tətbiqi ilə əlaqələndirilir. Bu sahədə alınmış nəticələr mütəmadi olaraq elmi konfranslarda, mətbuatda, seminar və simpoziumların materiallarında dərc olunur. 1998-ci ildə professor İ.Ə.Həbibovun rəhbərliyi altında azərbaycan dilində ilk dəfə olaraq «Kompüter qrafikası və onun mühəndis-layihə işlərində tətbiqi» dərsliyi hazırlanıb nəşr olunur.

1999-cu ildə «Kompüter qrafikası və informatikanın neft maşınqayırmasında tətbiqi» mövzusunda səyyar elmi-texniki konfrans keçirilmiş və kafedranın bu sahədə apardığı işlərin tezisləri konfransın materiallarında dərc edilmişdir.

2000-ci ildə «Maşıınqayırma texnologiyası» kafedrası ilə birlikdə, ADNA-nın 80 illik yubileyi ilə bağlı Suraxanı NQÇİ-də «Dəniz və quruda işləyən neft avadanlıqlarının işinin effektivliyi və etibarlılığı» mövzusunda elmi praktiki konfrans keçirilmişdir.

Son illərdə kafedrada çoxlu sayda dərslik, dərs vəsaiti və metodiki göstərişlər hazırlanıb nəşr olunmuşdur. İxtisaslaşdırılmış dərs otaqları, o cümlədən, yerli şəbəkə sistemi əsasında işləyən «Kompüter sinfi» yaradılmışdır.

2010-2011-ci illərdə professor İ.Ə.Həbibovun rəhbərliyi ilə ilk dəfə olaraq ümumtəhsil məktəblərinin 8 və 9-cu sinifləri üçün «Rəsmxət» dərsliyi yazılmış və küllü tirajla çap olunaraq tədris prosesində tətbiq edilmişdir.

Tələbələrin elmi-tədqiqat işlərinə cəlb olunması kafedranın əsas fəaliyyət istiqamətlərindən birinə çevrilmişdir. Kafedrada hazırlanan tələbə elmi işləri diplomlarla qiymətləndirilir.

Son illərdə kafedrada aparılmış elmi işlərin yekunları yaxın və uzaq xarici ölkələrin elmi jurnallarında, o cümlədən Çində, Rumıniyada, Rusiyada, Türkiyədə,

Gürcüstanda, Qazaxıstanda, Almaniyada, Yunanıstanda, Ukraynada, Belarusda nəşr etdirilmişdir.

Kafedrada ardıcıl olaraq dissertasiya işləri müdafiə olunur və bu istiqamətdə fəaliyyət genişləndirilməkdədir.

Kafedranın kadr bazasının gücləndirilməsi istiqamətində daim böyük işlər görülür. Son illərdə kafedraya işə qəbul olunan gənc mütəxəssislərin sırasında dosentlər R.Məlikov və O.Mirzəyev, assistentlər E.İsmayılov və G.Bağırovanı göstərmək olar.

Hal-hazırda kafedrada 1 professor, 7 dosent, 3 baş müəllim və 2 assistent çalışır.

İllər boyu kafedrada tədris prosesinin yüksək səviyyədə təşkil edilməsində onun texniki işçilərinin də böyük zəhmətləri olmuşdur. Kafedranın əyani vasitələr bazasının genişlənməsində və tədris prosesinin texniki təminatının yüksəldilməsində böyük xidmətləri olan M.S.Qorbunov, N.Mahmudzadə və V.Yejkovanı göstərmək olar. Hal-hazırda tədris prosesinin maraqlı keçməsində yaxından iştirak edən T.Sadıqova, R.Nəcəfquliyeva, L.Əliyeva, A.Qafarova, G.Qafarova və H.Əhmədova bu sıradan olan əməkdaşlardır.

Azərbaycan Dövlət Neft Akademiyasının «Mühəndis qrafikası» kafedrası 80 illik şərəfli yol keçmişdir. Onun tədris, elmi və elmi-metodiki işlərinin nəticələri təkcə ölkəmizdə deyil, onun sərhədlərindən çox-çox uzaqlarda tanınır.

ADNA-nın aparıcı kafedralarından biri olan «Mühəndis qrafikası» kafedrasının professor-müəllim heyətini bu yubiley münasibəti ilə təbrik edirik.

KAFEDRANIN YARADICISI, BÖYÜK TƏŞKİLATÇI VƏ ALİM

Puzırevski Vladimir Filipoviç

Bu kitabın hazırlanması ilə əlaqədar işləri başlamazdan əvvəl kafedranın arxivində saxladığım köhnə qovluqları araşdırarkən əlimə Vladimir Filipoviç Puzırevski ilə bağlı sənədlər düşdü. Onların birində bu böyük şəxsiyyətin səhifə yarımlıq tərcümeyi-halı yazılmışdı.

Bir anlığa gözlərimin önünə bu insanın Azərbaycanda «Tərsimi həndəsə» elminin inkişafındakı rolu, yazdıqları kitablar, dərsliklər, metodiki tövsiyələr, ümumiyyətlə gördüyü işlər və yaratdığı qurğular canlandı. Əgər bütün işləri siyahıya alsaydıq onların həcmi avtobioqrafik yazıdan qat-qat çox olardı.

V.F.Puzırevski 1904-cü ilin may ayında Leninqrad vilayətinin Yanburq şəhərində kəndli ailəsində anadan olmuşdur. Filip Puzırevski ailəsini arı saxlamaqla və onun payına düşən balı satmaqdan əldə etdiyi gəlirlə saxlaya bilirdi.

1912-ci ildə atası balaca Vladimiri Bakıda yaşayan və övladı olmayan bacısının yanına göndərir. Həmin il o, Bakıdakı məşhur 2 saylı «Realnoe uçilişeyə» daxil olur. (Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra bu təhsil ocağı 13 saylı məktəb kimi fəaliyyət göstərməyə başlamışdır). 1922-ci ildə V.F.Puzırevski orta təhsilini başa vurur.

Məktəbdə təhsil almaqla bərabər o 1920-1922-ci illərdə Bakıda fəaliyyət göstərən kontorların birində çalışır. 1922-1925-ci illərdə Azərbaycan SSR Xalq Komissarlığının katibliyində çalışır.

1923-cü ildə Azərbaycan Politexnik İnstitutuna daxil olur və 1930-cu ildə bu ali məktəbi mühəndis-mexanik ixtisası üzrə bitirir. Həmin il Bibi-Heybət NQÇİ-də mühəndis-konstruktor kimi çalışmağa başlayır, eyni zamanda, artıq Azərbaycan

Neft İnstitutu adlanan doğma ali məktəbində müqavilə əsasında dərs deməyə başlayır.

1931-ci ilin payızında institutda tam əmək fəaliyyəti ilə məşğul olmağa başlayır. 1932-ci ildə müstəqil «Tərsimi həndəsə və rəsmxət» kafedrasının yaranması ilə əlaqədar olaraq, bu kafedraya rəhbərlik etmək ona həvalə olunur.

Onun gərgin fəaliyyəti nəticəsində kafedranın maddi-texniki bazası dövrün tələblərinə uyğun formalaşmağa başlayır, dərsliklər, metodiki tövsiyələr işlənib hazırlanır. Onun kafedraya rəhbərlik etdiyi dövrdə xüsusiləşdirilmiş auditoriyalar və laboratoriyalar təşkil olunur, dərs prosesləri coxlu sayda əyani və texniki vasitələrlə təchiz olunur. Respublikada tanınmış mühəndis və gənc mütəxəssislər kafedrada işləməyə dəvət olunurlar.

1938-ci ildə V.F.Puzırevskinin metodiki fəaliyyəti nəzərə alınaraq SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə ona kafedra üzrə dosent elmi adı verilir.

1940-cı ildə Ə.Məmmədov, V.F.Puzırevski və K.Məmmədov tərəfindən azərbaycan dilində «Tərsimi həndəsə» adlı ilk dərslik hazırlanııb nəşr olunur.

Tükənməz enerji sahibi olan Vladimir Filipoviç 1942-ci ildə namizədlik dissertasiyası müdafiə edərək texnika elimlər namizədi alimlik dərəcəsi alır.

Q.M.Bağırzadə və V.F.Puzırevski

V.F.Puzırevskinin geniş elmi və tədris fəaliyyəti, yaradıcılıq uğurları qısa bir müddətdə onu respublikanın tanınmış şəxslərindən birinə çevirir. Ali məktəblər onu dərs deməyə dəvətlər göndərir.

O, 1934-1942-ci illərdə Azərbaycan Dölət Universitetinin fizika-riyaziyyat fakültəsində, 1942-1944-cü illərdə Ali hərbi-dənizçilik məktəbində, Dəmiryol mühəndisləri institutunda «Tərsimi həndəsə» fənni üzrə dərslər aparır. V.F.Puzırevskinin olduqca gözəl əl qabliyyəti vardı. O, lövhədə çertyojları elə

səliqə ilə çəkirdi ki, onlara yaradıcılıq əsəri kimi baxmaq olurdu. Muhazirələri xüsusi tərzdə aparardı. Tələbələr onu maraqla dinləyərdilər.

1965-ci ildə ona professor elmi adı verilmişdi. Bu adı o qürür hissi ilə daşıyırdı.

Vladimir Filipoviç kafedrada çalışan Rəisə xanım Əyyubova ilə ailə qurmuşdu. Onların bir övladı var – Eldar. O həkimdir.

İnstitutun ictimai həyatında aktiv iştirak edirdi. 1942-ci ildən Elmi Şuranın üzvü olmuşdur. Ali məktəbin rəhbərliyi onun fikirlərinə və təkliflərinə xüsusi hörmət və ehtiramla yanaşırdılar.

«Vışka» qazetinin 03.11.2006-cı il tarixli nömrəsini oxuyanda Geologiya institutunun direktoru, akademik Akif müəllim Əlizadənin müsahibəsində bir qeydə rast gəldim. (Akif müəllim bizim institutu bitirmişdir.) Jurnalist ona belə bir sual verir: «**Sizə ali məktəbdə dərs deyən müəllimlərdən ən çox kimləri xatırlayırsınız?»** Akademik bu suala geniş cavab verir, lakin mən bir bəndini göstərmək istəyirəm – «**… ilk kurslarda "Tərsimi həndəsə" fənnindən bizə Puzırevski Vladimir Filipoviç adlı bir müəllim dərs deyirdi. Olduqca yadda qalan şəxsiyyət idi. Öz fənnini gözəl bilirdi və tələbələrdən təxminən bunu da tələb edirdi. Puzırevskidən keçmək, "Tərsimi həndəsə"dən məqbul almaq o demək idi ki, sən AzSİ-də təhsilini davam etdirə bilərsən…»**

V.F.Puzırevskinin böyük əmək fəaliyyəti dəfələrlə müxtəlif səviyyəli dövlət təltifləri ilə qiymətləndirilmişdir. Bu gün də onun yetirmələri şərəflə müəllimlərinin yolunu davam etdirirlər.

TƏCRÜBƏLİ MÜHƏNDİS, TƏMKİNLİ PEDAQOQ

Bağırzadə Qasım Məmməd oğlu

Qasım müəllim mənə dərs deyən ilk müəllimlərdən biri olmuşdur. O, dövrünün mükəmməl biliyə və böyük təcrübəyə malik olan mühəndislərindən idi. Məhz bu bacarığı sayəsində o müharibə illərində Nijnıy Taqil şəhərindəki tank istehsalı ilə məşğul olan hərbi zavodların birində cəbhə üçün olduqca əhəmiyyətli avadanlığın istehsalı ilə məşğul olmuşdur.

Q.M.Bağırzadə 1906-cı ildə Cənubi Azərbaycanın Ərdəbil şəhərində anadan olmuşdur. Onun yeddi yaşı olanda ailələri Bakıya köçür və atası Məmməd kişi «Qara şəhər»dəki zavodların birində fəhlələk etməyə başlayır. Rusiyada başlayan inqilabi proseslər Azərbaycana çatanda çoxlarının həyatında baş verən dəyişikliklər bu ailədən də yan keçmir. Məktəbdə təhsilini davam etdirən Qasım ailənin maddi vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə Bakı limanında işə düzəlir. Məktəbi bitirərək o Bakı neft texnikumuna daxil olur və oranı müvəffəqiyyətlə bitirir. Sonra ali savad almaq məqsədi ilə sənədlərini Azərbaycan Sənaye institutuna verir və ora qəbul olur. İnstitutun «Neft–mexanika» fakültəsini bitirən Qasım müəllim ixtisası üzrə işləməyə başlayır.

Qasım müəllim xoş xasiyyət insan olduğundan hər yerdə özünə böyük məhəbbət və səmimiyyət qazana bilmişdir.

1941-ci ildə Qasım müəllim dövlət əhəmiyyətli, hərbi təyinatlı müəssisədə çalışaraq bir azərbaycanlı kimi xalqımızı yüksək səviyyədə tanıtmışdır. Bu müəssisədə tankların sınaq işləri məhz ona həvalə edilmişdi. Müharibədən sonra

orada qalmaq və işləmək təklifinə – Azərbaycansız yaşaya bidmərəm – cavabını vermişdi.

1946-cı ildə Qasım müəllim Mehri xanımla ailə qurmuşdu. O zaman Mehri xanımın oğlanlarının - Oqtayın 10 yaşı, Mövsümün isə 4 yaşı vardı. Qasım müəllimlə onlar arasında olan münasibətlər doğma ata-bala münasibətlərinin ən yüksək səviyyəsində idi. Qasım müəllim onları övladı Elxandan (1954-cü il təvəllüdlü) ayırmırdı.

Qasım müəllim, Mehri xanım Oqtay və Almazın toyunda

1965-ci ildə Qasım müəllim Azərbaycan Neft və Kimya institutunun «Rəsmxət» kafedrasına müdir təyin edilir. Bu iş gərgin bir şəraitdə həyata keçirilir. Bir qrup insanlar Qasım müəllimin elmi dərəcəsinin olmamasını əsas gətirərək onun bu kafedraya rəhbərlik etməsini mümkünsüz hesab edirdi.

Onun dövründə kafedraya böyük istehsalat təcrübəsi qazanmış, aspiranturanı bitirərək namizədlik dissertasiyası müdafiə etmiş mütəxəssislər işə dəvət edilirlər. Bu sırada texnika elmlər namizədləri S.Süleymanov, Ə.Əsədov, Y.Fərzanə, Q.Fukson, T.Dadaşeva, M.Məmmədova, Q.Qirimov, Z.Kərimov, P.Məlikov, B.Qutman, eləcə də X.Babayeva, B.Sultanova, İ.Tsibulski, Z.Hacıməmmədova,

K.Hüseynov, A.Hüseynov, M.İsmayılov, M.Balakişiyeva, M.Fətəliyeva, U.Datskovski, S.Məlikova, C.Camalov və X.Cavadovanı göstərmək olar.

1965-ci il, Qasım müəllim kafedranın əməkdaşları ilə birlikdə

O qısa bir müddətdə kafedranın metodiki bazasının genişləndirilməsi istiqamətində işlər aparır. Kafedranın bütün əməkdaşları əyani vasitələrin, yaddaş və göstərişlərin hazırlanması və nəşr olunması ilə məşğul olurlar.

1965-ci ildə Qasım müəllimə SSRİ Ali Attestasiya Komissiyası tərəfindən dosent elmi adı verilir. Bu onu və kollektivi olduqca ruhlandırır. O, daim gənc müəllimlərə köməklik göstərirdi. Mühəndislik onun qanında idi və bu səbəbdən tələbələrin çertyojlarını yoxlayanda heç bir yanlışlığa yol verməzdi.

1970-ci illərin sonunda onun səhhətində problemlər yarandığından o işə gəlmirdi. Çox sevdiyi Mərdəkandakı bağına da gedə bilmirdi. O həmişə deyirdi: «Əgər bağda işləmirsənsə, nəsə əkib becərə bilmirsənsə, onda ora getmək mənasızdır».

1971-ci ilin soyuqlu, qarlı bir günündə Qasım müəllim dünyasını dəyişdi.

Allah ona qəni-qəni rəhmət eləsin!

ALİ TƏHSİL SİSTEMİNİN MAHİR BİLİCİSİ, ALİM VƏ MÜƏLLİM

Əhmədov Zaur Musa oğlu

Azərbaycan Dövlət mükafatı laureatı, «Şöhrət» ordeni ilə təltif edilmiş, «Əməkdar elm xadimi», «SSRİ-nin Fəxri neftçisi», «SSRİ qaz sənayesi əlaçısı», Beynəlxalq «Ekoenergetika» Akademiyasının və Beynəlxalq Neftçi Mühəndisləri Cəmiyyətinin həqiqi üzvü, professor Zaur Əhmədov 1937-ci il yanvarın 12-də Bakı şəhərində anadan olmuş, 1959-cu ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun (indiki ADNA) "Neft-mədən" fakültəsini «Neft və qaz yataqlarının işlənməsi və istismarı» ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir. O, 1959-1962-ci illərdə «Azneft» İB-nin mədənlərində operator, qurğu rəisi, neftçıxarma ustası, mühəndis və baş mühəndis vəzifələrində çalışmışdır. 1962-ci ildə Z.Əhmədov ADNA-nın «Neftin çıxarılmasının texnika və texnologiyası» problem laboratoriyasında işləmək üçün akademik A.X.Mirzəcanzadə tərəfindən dəvət almış və sonrakı taleyini bu təhsil ocağı ilə bağlamışdır. Zaur müəllim 1965-ci ildə «Qaz-kondensat sisteminin süzülməsinin hidroqazodinamiki tədqiqi» mövzusunda namizədlik, 1971-ci ildə isə «Neft və qaz-kondensat yataqlarının işlənməsində tətbiq olunan qaz-maye sistemlərinin süzülməsinin tədqiqi» mövzsunda doktorluq dissertasiyalarını müvəffəqiyyətlə müdafiə etmişdir.

Z.M.Əhmədov qaz-kondensat yataqlarının işlənməsinin nəzəri əsaslarını yaradanlardan biridir. O, ilk dəfə olaraq gilli məsaməli mühitlərdə qazın və Nyuton özlülüyünə malik neftlərin layda süzülməsi zamanı başlanğıc təzyiq qradiyentinin yaranması effekti və qazlı neftin süzülməsini tədqiq edərək bu tip yataqların işlənməsinin xüsusiyyətlərini yeni aspektdə aşkar etmiş alimlərdən biridir. Onun elmi-tədqiqat işlərinin nəticələri keçmiş SSRİ Neft Sənayesi Nazirliyi tərəfindən ilk dəfə təsdiq olunan «Neft, qaz-kondensat yataqlarının işlənməsinin layihələndirilməsin-

də metodiki rəhbərliy»ə, «Qeyri-Nyuton neftli yataqların işlənməsi və istismarının xüsusiyyətləri» adlı metodiki göstərişə, habelə VI Beynəlxalq neft konqresində dinlənilmiş xüsusi məruzələrin siyahısına daxil edilmişdir.

Professor Z.Əhmədovun neft-qaz sənayesi üçün yüksək ixtisaslı kadrlar hazırlanmasında da çox böyük xidmətləri olmuşdur. O, 1965-ci ildən ADNA-da assistent, baş müəllim, dosent vəzifələrində işləmişdir.

1971-ci ildə Zaur müəllim «Rəsmxət» kafedrasına müdir vəzifəsinə təyin edilmişdir. 1975-cı ildə «Rəsmxət» və «Tərsimi həndəsə» kafedraları «Mühəndis qrafikası» adı altında birləşdirilir və ona rəhbərlik etmək professor Z.M. Əhmədova həvalə edilir. Zaur müəllim 1973-1979-cu illərdə keçmiş SSRİ-nin neft, qaz, neft-kimya sənayesi sahələri üçün təşkilatçılar hazırlayan yeganə fakültənin dekanı, 1979-1991-ci illərdə «Qazneftmədən» fakültəsinin dekanı olmuş, 1993-cü ildən 2011-ci ilin sentyabr ayınadək ADNA-nın tədris işləri üzrə prorektoru vəzifəsində çalışmışdır.

O, 1996-2001-ci illərdə namizədlik və doktorluq dissertasiyalarının müdafiəsi üzrə Ali Attestasiya Komissiyasının ADNA-nın nəzdində yaratdığı ixtisaslaşdırılmış Elmi Şurasının sədri olmuşdur. Hal-hazırda ali təhsilin, tədris prosesinin mahir bilicisinə və təşkilatçısına çevrilmişdir.

Z.M.Əhmədov bu gün də öz bilik və bacarığını, parlaq zəkasını gənclərin elmi yaradıcılığının və dünya görüşlərinin formalaşmasına, yüksək ixtisaslı mütəxəssis kimi yetişməsi işinə sərf edir, təhsilin, neft elminin inkişafı üçün böyük səy göstərir.

Həsənov Əli Qulamhüseyn oglu

Mən həmişə Əli müəllimi Allah tərəfindən sevilib seçilən insan hesab etmişəm. Onun həyat yolu uğurlu və yaşadığı ömür şərəfli idi. Sadə, lakin zəhmət sevər bir ailədə dünyaya göz açan bu insan yüksək səviyyəli dövlət qulluqçusuna qədər yüksəlmiş, elmin zirvələrini fəth edə bilmişdir.

Həsənov Əli Qulamhüseyn oglu 1927-ci ildə Bakı şəhərində fəhlə ailəsində anadan olmuşdur. Atası Həsənov Əliqulam kişi dəmir yolunda fəhlə işləmişdir və 1929-cu ildə vəfat etmişdir. Anası inqilaba qədər evdar qadın olmuş, sonrakı illərdə və Böyük Vətən müharibəsi dövründə Bakıda trikotaj və tikiş fabriklərində işləmişdir.

Həsənov Əli 1945-ci ildə Bakı şəhərində 1 saylı orta məktəbi bitirmiş, həmin ildə də M.Əzizbəyov adına Azərbaycan Sənaye institutunun "Neft-mexanika" fakültəsinə daxil olmuşdur. O, 1950-ci ildə institutu bitirmiş və aspiranturaya qəbul olana qədər Lenin adına avtotəmir zavodunda işləmişdir.

1950-ci ilin dekabr ayında Moskva Avtomexanika institutunun aspirantura-sına qəbul olunmuşdur. Tədqiqat işlərinin uğurlu nəticələri və Əli müəllimin bilik səviyyəsi nəzərə alınmaqla ona eyni zamanda işləməyə icazə verilmişdir.

Əli müəllim 1952-53-cü illərdə Moskvada Lixaçev adına avtomobil zavodunda işləmişdir. Aspiranturanı bitirdikdə namizədlik dissertasiyasını uğurla müdafiə etdikdən sonra, onu Bakıya doğma institutuna işləməyə göndərmişdilər.

1955-59-cu illərdə gənc alim institutun «Maşın avadanlıqları» kafedrasında assistent vəzifəsində çalışmağa başlayır və 1955-ci ilin yanvar ayında həmin kafedrada dosent vəzifəsinə təyin olunur.

Əli müəllimin bundan sonrakı həyatı onun çalışqanlığı və zəhmətkeşliyinə uyğun olaraq pillə-pillə artmağa, yüksəlməyə doğru inkişaf edir. İlkin olaraq onu

"Neft-mexanika" fakültəsinin dekan müavini vəzifəsinə təyin edirlər. O, 1962-65-ci illərdə institutun ümumtexniki fakültəsinin dekanı olur.

1968-1972-ci illərdə Əli müəllim Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində elm və tədris müəssisələri şöbəsində müdir müavini vəzifəsində çalışmışdır.

Həsənov Əli Qulamhüseyn oglu 1957-ci ildə ailə həyatı qurmuşdur. Onun həyat yoldaşı Həsənova Züleyxa Rza qızı (1934-cü il təvəllüdlü) ixtisasca həkim olmuşdur. O da həyat yoldaşı kimi elmə böyük maraq göstərirdi, 1957-ci ildə müvəffəqiyyətlə dissertasiya işi müdafiə edərək tibb elmləri namizədi adı almışdır.

Əli müəllim və Züleyxa xanımın 3 övladı var. Qızları Sevinc 1959-cu ildə, oglu Namiq 1961-ci ildə, sonbeşiyi Orxan isə 1984-cü ildə anadan olmuşdur. Namiq bizim institutun aspirantı olmuşdur. Texnika elmlər namizədidir.

1972-76-cı illərdə Əli müəllimi Çingiz İldırım adına Azərbaycan Politexnik institutuna prorektor vəzifəsinə təyin edirlər. İnzibati işlər onu elm və tədris prosesindən ayırmır. O, paralel olaraq həmin institutun «Maşın avadanlıqları» kafedrasında professor vəzifəsində çalışır.

Professor 1981-86-cı illərdə «Mühəndis qrafikası» kafedrasında kafedra müdiri vəzifəsində çalışmışdır. Onun xoş xasiyyəti, insanları ələ almaq qabiliyyəti, işgüzarlığı kafedranın əməkdaşları tərəfindən bu gün də yada salınır. Əli müəllim olduqca səliqəli bir insan idi. Hər bir sənədi, kiçicik kağızı hara qoyduğunu və ya kimə verdiyini dəqiq bilirdi. İnstitutda, fakültədə hamı ona böyük hörmət və ehtiramla yanaşırdı.

Əli müəllim tədris işlərini mükəmməl bilən, yaxşı təşkilatçı, qanun-qaydaya ciddi riayət edən, gözəl metodist idi. O, 5 dərslik, 10-dan çox dərs vəsaiti və coxlu metodik vəsaitlərin, elmi məqalələrin müəllifidir. Onun səmərəli elmi-pedaqoji fəaliyyəti Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilmişdir. Həyatının sonuna qədər o Azərbaycan Respublikası Ağsaqqallar Şurasının üzvü olmuşdur.

Professor **Həsənov Əli Qulamhüseyn oglu** 2003-cü ildə vəfat etmişdir.

YÜKSƏK ƏXLAQİ KEYFİYYƏTLƏRƏ MALİK İNSAN



Bünyadov Sabir Bünyad oğlu

Bünyadov Sabir Bünyad oğlu 1933-cü ildə Göyçay rayonunda anadan olmuşdur. Onun uşaqlıq və məktəb illəri Azərbaycanın bu səfalı guşəsində keçmişdir.

1950-ci ildə Göyçay rayonunda orta məktəbi bitirdikdən sonra Bakı Neft Texnologiya texnikumuna daxil olub oranı 1953-cü ildə bitirmişdir.

Onun atası Bünyadov Bünyad Yaqub oğlu Böyük Vətən müharibəsi əlili olmuşdur. Anası Bünyadova Səfurə Şamil qızı öz həyatını övladlarının tərbiyəsinə həsr etmişdir.

Texnikumu bitirdikdən sonra Sabir müəllim əmək fəaliyyətinə (1953-1962-ci illərdə) Leytenant Şmidt adına maşınqayırma zavodunda başlamışdır. O, həmin zavodda əvvəlcə texnoloq, sonra növbə rəisi, daha sonra isə ştanq sexində rəis vəzifəsində çalışmışdır. Bu müddət ərzində 20-dən çox səmərələşdirici təklif irəli sürmüşdür.

1956-cı ildə o, istehsalatdan ayrılmamaqla öz təhsilini davam etdirmək üçün M.Əzizbəyov adına Neft və Kimya institutunun «Neft-mexanika» fakültəsinə daxil olur. 1962-ci ildə oranı bitirdikdən sonra, böyük istehsalat təcrübəsi olduğu nəzərə alınmaqla, institutun «Metallar texnologiyası» kafedrasına işə dəvət olunur.

1963-cü ildə müsabiqə əsasında baş müəllim seçilir. Elmi-tədqiqat işlərinə olan böyük marağı onu aspiranturaya daxil olmağa həvəsləndirir. Bütün varlığı ilə tədqiqatlara başlayan Sabir müəllim 1967-ci ildə «Исследование сплавов на цинковой основе применительно к условиям работы некоторых деталей нефтяного оборудования» mövzusunda namizədlik dissertasiyası müdafiə edir. Onun bu uğuru M.Əzizbəyov adına Neft və Kimya institutunun rəhbərliyi

tərəfindən layiqincə qiymətləndirilir və 1969-cu ildə Sabir müəllim «Metallar texnologiyası» kafedrasına müsabiqə əsasında dosent seçilir.

1973-cü ildə S.Bünyadov Moskva Polad və Xəlitələr institutunda ixtisasartırma kurslarını müvəffəqiyyətlə başa vuraraq öz elmi-pedaqoji fəaliyyətini genişləndirir.

Sabir müəllim institut və şəhər səviyyəsində böyük ictimai fəaliyyət göstərirdi. O, institutun Xalq Nəzarəti komitəsinin sədri, Nəsimi rayon və Bakı şəhər xalq nəzarəti idarələrinin daimi üzvü idi. Onun obyektivliyi və düzgünlüyü hamı tərəfindən qeyd edilirdi.

Sabir müəllim 1976-1985-cı illərdə «Metallar texnologiyası» kafedrasının müdiri vəzifəsində çalışmışdır. 1986-cı ildə «Mühəndis qrafikası» kafedrasına müdir vəzifəsinə seçilmiş və 1992-ci ilə qədər bu vəzifədə fəaliyyət göstərmişdir.

Bünyadov Sabir yüksək erudisiyalı, geniş dünya görünüşünə malik alim olaraq çalışdığı böyük kollektivin hörmətini qazanmışdır.

GÖRKƏMLİ ALİM, MEHRİBAN OĞUL VƏ ATA

Bəxtiyarov Səyavur İsfəndiyar oğlu

Bəxtiyarov Səyavur İsfəndiyar oğlu 1952-ci il may ayının 18-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur.

Onun atası İsfəndiyar Bəxtiyar oğlu (1925-ci il təvəllüdlü) mətbəədə retuşçu işləyib.

Anası Hüseynova Züleyxa (1932-ci il təvəllüdlü) uşaq baxçasında tərbiyəçi işləyib. Bu ailədə Səyavur müəllimdən başqa iki qız uşağı da böyüyürdü -1953-cü il təvəllüdlü Gülnaz və 1959-cu il təvəllüdlü Gülsədəf. Səyavur Bəxtiyarov Bakı şəhəri 18 saylı orta məktəbi bitirdikdən sonra 1969-cu ildə Azərbaycan Neft və Kimya institutunun "Qazneftmədən" fakültəsinə daxil olmuş və 1974-cü ildə institutu fərqlənmə diplomu ilə bitirmişdir. O, 1975-ci ildə aspiranturaya daxil olmuş, 1978-ci ildən «Nəzəri mexanika» kafedarsında assistent vəzifəsində çalışmışdır. 1983-cü ildə müsabiqə əsasında kafedrada dosent vəzifəsinə seçilmişdir. «Nəzəri mexanika» kafedrasında işlədiyi müddətdə o özünü yüksək pedaqoji qabiliyyətə malik savadlı və vicdanlı müəllim kimi göstərmişdir. Onun gərgin əməyi nəticəsində 10-dan çox tədris-metodik iş hazırlanmışdır.

Gənc yaşlarından aktiv elmi fəaliyyətlə məşğul olan Səyavur müəllim qısa bir müddətdə hidromexanika və reologiya sahəsində dərin professional biliklər qazanaraq respublikamızda və ondan kənarlarda tanınmış mütəxəssisə çevrilir. Onun 40-dan çox elmi işi müxtəlif səviyyəli nəşrlərdə çap olunur. 1982-ci ildə onu Britaniya reoloqlar cəmiyyətinə üzv seçirlər.

Səyavur müəllim 1991-ci ildə müvəffəqiyyətlə doktorluq dissertasiyasını müdafiə etmiş və texnika elmlər doktoru alimlik dərəcəsi almışdır.

1992-94-cü illərdə «Mühəndis qrafikası» kafedrasında müdir işləmişdir. O, kafedranın, eləcə də akademiyanın professor-müəllim və tələbə heyəti arasında yüksək nüfuz qazanmışdır.

Səyavur müəllim gözəl ailə başçısıdır. Onun bir oğlu, bir qızı və 2 nəvəsi var. O, hal-hazırda Amerika Birləşmiş Ştatlarında yaşayır.

SƏNƏTİNİN VURĞUNU, ÖVLADLARININ DOSTU

İsmayılov Cahangir Xalıq oğlu

Cahangir müəllim haqda olan bu yazımı başlamazdan əvvəl onunla söhbət etdim. O, ixtisasartırma kurslarından yenicə qayıtmışdı. Ali təhsil sistemində belə bir qayda var - hər bir müəllim beş ildə bir dəfə ixtisasartırma kurslarına göndərilir. Məqsəd müəllimin pedaqoji və tədris etdiyi fənlərlə bağlı biliklərinin yüksəldilməsidir.

Azərbaycan Dövlət Neft Akademiyası üzrə təsdiqlənmiş ixtisasartırma planına əsasən Cahangir müəllim 2011-2012-ci tədris ilinin yaz semestrində Azərbaycan müəllimlər institutuna ezam olunmuşdu. Söhbətimizin əsas mövzusu kafedranın 80 illik yubileyi ilə bağlı idi. Bizim kafedra 1932-ci ildə yaradılmışdı.

Cahangir müəllimlə uzun illər birgə əməkdaşlıq etdiyimizdən onun tərcümeyi-halı mənə yaxşı bəlli idi, lakin mən onunla bağlı yazımda bu şəxsiyyətin insani keyfiyyətlərini, gənclik illəri və ümumiyyətlə onun üçün əziz və yadda qalan günləri də əks etdirmək istəyirəm.

Xeyli söhbətimiz oldu Cahangir müəllimlə. Onun haqqında məndə olan məlumatları və söhbətimizdən yararlandıqlarımı qələmə almağı qərara aldım.

Cahangir müəllim 1936-cı ilin 5 dekabrında vətənimizin paytaxtı Bakı şəhərində anadan olmuşdur. Uşaqlıq illəri haylı-küylu, dava-dalaşlı, o dövrdə Ostrovski (indiki Süleyman Tağızadə) küçəsi kimi tanınan məhəllədə keçmişdir. Söhbət zamanı o, tez-tez məhəllədəki 21 saylı dalanı və doğma evlərini yada salırdı.

Atası - Xalıq Həmid oğlu (1881-ci il təvəllüdlü) və anası - Çimnaz Rəsul qızı da (1901-ci il təvəllüdlü) Bakı şəhərində dünyaya göz açmışdılar. Xalıq kişi dərzi, Çimnaz xanım isə evdar qadın idi. Özləri savadsız olsalar da, hər üç övladlarını savadlı görmək istəyirdilər və bunun üçün əllərindən gələni əsirgəmirdilər.

Cahangir müəllimin uşaqlığı müharibənin ağır və çətin illərində keçmişdir. O, 1944-cü ildə Bakının Tolstoy küçəsində yerləşən 1 saylı, o zamanlar «Suvorovçular məktəbi» adlanan məktəbdə təhsil almağa başlayıb. Həmin illərdə qışın çox soyuq və qarlı keçdiyini xatırlayaraq özünə məxsus sakit səslə: «Geyimlərimiz pis idi. Ayaqlarımıza əskidən tikilmiş ayaqqabı geyirdik. Məktəbdə bizə hər gün yemək verirdilər. Dərsə gəlməyən uşaqların yemək payını müəllimlərimiz evələrinə aparırdılar» deyə danışmağa başladı. Sonra gözlərini bir nöqtəyə dikərək xeyli müddət susdu. Həmin illərin xatirələrinə dalaraq çətin və ağır həyatından çox danışdı. Cahangir müəllim, qohum və yaxınlarının adlarını çəkdi. Hər bir kəsi xatırladıqca gözləri yaşarırdı.

«Bazarnı» adlanan məhəllədə keçirdiyi gəncliyini ürək ağrısı ilə yada salaraq orada hökm sürən gərginlikdən, kriminal ab-havadan danışdı. Tində dayanıb lotuluq və qoçuluq idealogiyasından danışmağı məktəbə getməkdən yüksək tutan məhəllə uşaqları ilə bağlı xatirələri yadına saldıqca onların adlarını dəqiqləşdirməyə çalışırdı.

Müharibədən sonrakı dövrdə məhəllədəki uşaqların sırasında ali təhsil almış iki nəfərdən biri Cahangir olmuşdur.

Altıncı sinfi bitirdikdən sonra təhsilini Bakıdakı 7 saylı məktəbdə davam etdirib. Məktəb illərinin ən yadda qalanı siniflərində oxuyan şagirdlərin əksəriyyətinin çox savadlı və çalışqan olması, humanitar elmlərlə yanaşı riyaziyyat və fizikaya böyük marağının olması idi. Bu gün məktəb dostları arasında riyaziyyat və texniki elmlər doktorları, elmlər namizədlərinin olduğunu qeyd etdi.

Siniflərindən ağız dolusu danışdı, qeyd etdi ki, 24 şagird idilər, hamı bir-biri ilə çox mehriban idi. Bəziləri ilə indinin özündə də ailəvi əlaqə saxladığını bildirdi.

Bir adət olaraq hər ilin may ayının birinci istirahət günü sinif yoldaşları görüşürlər, keçən günləri yada salır və hal-əhval tuturlar. İl boyu tez-tez zəngləşir, bir-birilərinin xeyir və şərində yaxından iştirak edirlər.

Tərcümeyi-halında Cahangir müəllim yazır: «Mən 1954-cü ildə məktəbi bitirdim. Sinfimizdə oxuyan şagirdlər içərisində 5 nəfər qızıl medal almaq uğrunda

yarışırdı. Valideynlər arasında ciddi narazılıqlar yarandığından məktəb rəhbərliyi belə qərara gəldi ki, heç birimizə medal verilməsin».

Həmin illərdə, elə indinin özündə olduğu kimi neftçi olmaq daha şöhrətli sayıldığından Cahangir sənədlərini Azərbaycan Neft və Kimya institutuna verdi və "Neft-mədən" fakültəsinin 207 saylı qrupunun tələbəsi oldu.

Onun tələbəlik illəri çox maraqlı keçib, görkəmli alimlər və təcrübəli müəllimlərdən dərs alıb. Azərbaycanın bir çox rayonlarında, tanınmış müəssisələrdə istehsalat təcrübəsi keçib. Diplomqabağı istehsalat təcrübəsini Türkmənistan Respublikasının Nebetdağ şəhərində keçməsindən, yeni insanlarla, adət-ənənələrlə tanış olmasından həvəslə danışırdı.

1959-cu ildə institutu «Neft və qaz yataqlarının istismarı və işlənməsi» ixtisası üzrə bitirərək, «Dağ mühəndisi» adını almış gənc Cahangir Lenin adına Neft-mədən idarəsinə təyinat alır və 1961-ci ilin dekabr ayınadək mədəndə operator, mühəndis, böyük mühəndis və sahə rəisi kimi vəzifələrdə çalışır.

Akademik Azad Mirzəcanzadə ilə görüş onun həyatında yeni mərhələyə çevrilir. Azad müəllimin dəvəti ilə Azərbaycan Neft və Kimya institutunun «Neftin mexanikası» adlı laboratoriyasında mühəndis vəzifəsində fəaliyyətə başlayır.

1962-ci ildə gələcək ömür-gün yoldaşı, övladlarının anası Validə xanımla ailə həyatı qurur. Validə xanım Azərbaycan Dövlət Universitetini «Mühasibat uçotu» ixtisası üzrə bitirərək təyinatla əmək fəaliyyətinə başlamışdı.

Cahangir müəllimin və Validə xanımın bir oğlu - Aydın 23 yanvar 1963-cü ildə, iki qızları: Elvira 12 dekabr 1966-cı ildə və qızı Səbinə - 19 aprel 1973-cü ildə anadan olmuşlar.

Püxtələşmiş mühəndis, elmi-tədqiqatların müsbət nəticələrindən ilhamlanan gənc Cahangir 1963-cü ildə aspiranturaya daxil olur və 1965-ci ildə qaz-kondensat yataqlarının işlənməsi sahəsi üzrə dissertasiya müdafiə edərək texnika elmlər namizədi adını qazanır.

Həmin illərdə dissertasiya işi müdafiəyə çıxarılmazdan əvvəl onu SSRİ-nin bu sahədə aparıcı müəsissələrində müzakirəyə göndərərdilər. Cahangir müəllimin dissertasiya işi də belə bir sınaqdan çıxarıldı. Onu Özbəkistanın paytaxtı Daşkənd

şəhərində yerləşən «Ümumittifaq Elmi-Tədqiqat Qaz İnstitutuna» göndərmişdilər. Həmişə olduğu kimi bədnam qonşularımız öz xəbis əməllərindən əl çəkməyərək gənc alimin uğurlarına mane olmaq istədilər. Ermənilərlə mübarizə etmək məqsədi ilə başda Azad müəllim olmaqla, bir qrup azərbaycanlı alim - Zaur Əhmədov, Faiq Quliyev və Qabil İskəndərov Daşkəndə ezamiyyətə göndərildi. Böyük çətinliklər, qızğın çıxışlar və mübahisələr Azərbaycan elminin qələbəsi ilə nəticələndi.

Cahangirin müəllimlik sənətinə çox həvəsi olduğunu görən akademik Azad Mirzəcanzadə onun 1965-ci ildə «Tərsimi həndəsə» kafedrasına keçməsini tövsiyə edir. Həmin ildən bu günə qədər Cahangir İsmayılov bu tədris ocağında əvvəlcə assistent, 1966-cı ildən isə baş müəllim vəzifəsində çalışmışdır. Bu dövrdə «Tərsimi həndəsə» kafedrasına professor Vladimir Puzırevski rəhbərlik edirdi. Cahangir müəllim onunla birlikdə qısa bir müddətdə «Tərsimi həndəsə» fənni üzrə bir sıra metodiki göstərişləri hazırlayaraq dərc etdirir.

1976-cı ildə «Tərsimi həndəsə» və «Rəsmxət» kafedraları birləşdirilərək «Mühəndis qrafikası» kafedrası yaradılır. Cahangir müəllim bu kafedraya dosent vəzifəsinə keçirilir. Həmin il dosent C.İsmayılov Əlcəzair Respublikasına ezam olunur və bu ölkənin «Neft, qaz və kimya» institutunun «Tərsimi həndəsə və rəsmxət» kafedrasında işləməyə başlayır.

Xaricdə işlədiyi müddətdə fransız dilində bir sıra dərslik və dərs vəsaiti dərc etdirir. Burada keçmiş SSRİ Kommunist Partiyasının Mərkəzi Komitəsi və Nazirlər Soveti tərəfindən təsdiq olunmuş «1980-ci ilin Sosialist Yarışının Qalibi» nişanı ilə təltif olunur.

1981-ci ildə yenidən Azərbaycana qayıdan Cahangir müəllim «Mühəndis qrafikası» kafedrasında dosent vəzifəsində çalışmağa başlayır. 1994-cü ilin fevral ayından 1995-ci ilin mart ayına qədər «Mühəndis qrafikası» kafedrasının kafedra müdiri əvəzi vəzifəsində çalışır.

Azərbaycan Dövlət Neft Akademiyasında işlədiyi müddətdə 4 dərslik, 1 metodiki rəhbərlik, 8 dərs vəsaiti və 50-yə yaxın metodiki göstərişləri, elmi-metodiki məqalələri həmmüəllif kimi çap etdirmişdir. O, tədris etdiyi fənlər, elmi-tədqiqatlarının istiqamətləri ilə bağlı beynəlxalq və respublika konfranslarında maraqlı çıxışlar etmişdir.

Kafedra müəllimləri ilə xoş münasibəti ilə fərqlənən Cahangir müəllim söhbətlərimizdə Böyükağa Quliyev, Oqtay Qurbanov, Ədalət Babayev, Abduləli Əsədov və Zöhrab Kərimov ilə daha yaxın olduqlarını və bundan şərəf duyduğunu bildirərək danışdı. Mən kafedrada işləməyə başlayanda bu münasibətləri həmişə görürdüm, sonralar da onların tez-tez birlikdə olduqlarının şahidi olmuşam.

Cahangir müəllim səyahət etməyi, ovçuluğu və balıq tutmağı çox xoşlayır. O öz avtomobili ilə Azərbaycanın çox rayonlarına, Gürcüstana, Qərbi Azərbaycan torpaqlarına, Qara Dəniz sahillərinə və Krıma səyahətə çıxmışdır.

Onunla bir vaxtlar Əlcəzairdə olan dostları və tanışları Cahangir müəllimin balıqçılığından maraqla danışırlar.

Cahangir müəllim ixtisasına və bütövlükdə neft elminə olan məhəbbətini zaman-zaman övladlarına ötürə bilmişdir.



1982-ci il ovdan sonra

Məktəbi bitirdikdən sonra Aydın, Elvira və Səbinə tərəddüt etmədən neftçi ixtisasını seçdiklərini bildiriblər və sənədlərini M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutuna verərək oranın "Qazneft-mədən" fakültəsində təhsil alıblar.

Aydın və Səbinə neft yataqlarının işlənməsi sahəsində dissertasiyalar müdafiə edərək texnika elmlər namizədi adına layiq görülmüşlər.

Aydın British Petrolium (BP) şirkətinin Çıraq və Günəşli yatağının işlənməsi şöbəsində laylar üzrə mühəndisdir. Elvira Neft-qaz elmi tədqiqat və layihə institutunun «Elmi texniki informasiya və patent»

şöbəsində mühəndis, Səbinə isə həmin institutun «Layların neft veriminin artırılma üsulları» laboratoriyasında elmi işçi vəzifəsində çalışırlar.

5 dekabr 2011 – Ad günündə

Cahangir müəllim beş nəvənin babasıdır. Onlardan biri hal-hazırda Almaniyada kimya mühəndisliyi ixtisasının sirlərini öyrənir, dördü məktəblidir.

İxtisasartırma kurslarında - 2012-ci il

Cahangir müəllim bu gün də aktiv həyat mövqeyindədir. Daim öz üzərində çalışır. Bu böyük ailəyə sağlamlıq, xoşbəxtlik və qarşılıqlı hörmət arzulayıram.

PRİNSİPİAL İNSAN, SƏDAQƏTLİ YOLDAŞ, MEHRİBAN ATA

Əsədov Abduləli Şahmalı oğlu

«Mühəndis qrafikası» kafedrasının aparıcı müəllimlərindən biri, korifeyi Abduləli müəllim Azərbaycan Dövlət Neft Akademiyasında öz prinsipiallığı və obyektivliyi ilə seçilən, tələbə və müəllim heyəti arasında böyük hörməti olan şəxsiyyətlərdəndir. Bərabər çalışdığımız müddətdə həmişə onun məsləhətinə və dəstəyinə ehtiyac duymuşam və bu gün də duymaqdayam.

Abduləli müəllim 1934-cü il iyun ayının 5-də Yevlax rayonunun Borçalı adlanan kiçik bir kəndində kolxozçu ailəsində doğulmuşdur. Anası Məmmədova Bülbül xanımı erkən itirən Abdulələinin uşaqlıq dövrü atası Məmmədov Şahmalı və nənəsi Məmmədova Gülxanımın himayəsində keçmişdir.

O, orta məktəbin I-IV siniflərini Hürüuşağı adlanan qonşu kənddə bitirmişdir. Bu kəndlə Borçalı kəndi arasında 2 kilometrlik məsafə vardır. Hər gün bu yolu gedib-gəlmək məktəbli uşaqlar üçün çox ağır bir işə çevrilmişdi. Xüsusən də, payız və qış aylarında palçıqlı yollarla məktəbə getmək, soyuq otaqlarda dərs oxumaq və piyada geri qayıtmaq 7-10 yaşlı uşaqlar üçün olduqca çətin idi. Mənimlə söhbətlərində həmin illəri yada salaraq danışanda, müharibənin aclıq və səfalətini gözləri önünə gətirərək susurdu.

O, ibtidai məktəbi bitirdikdən sonra Mingəçevir kənd orta məktəbinin V sinfinə keçmiş və orta təhsilini bu məktəbdə başa vurmuşdur. Bu müddətdə o, Mingəçevirdə həkim işləyən dayısı Dəmir Musayevin evində yaşamışdır. Öz evlərinə həftənin yalnız istirahət günlərində gələ bilirdi. Anasının vəfatından sonra nəvazişi, istiliyi nənəsində tapan Abduləli üçün bu vəziyyət çox çətin idi.

1951-ci ildə Mingəçevirdə tam təhsilini başa vuran Abduləli neftçi olmaq arzusu ilə Bakı şəhərinə gəlir. 1952-ci ildə Azərbaycan Sənaye institutunun

"Qazneftmədən" fakültəsinin axşam bölməsinə daxil olur. Ailələrində maddi durumun ağır olması, onlardan heç bir köməyin olmaması səbəbindən o, həmin il Azərbaycan elmi-tədqiqat neftçıxarma institutunda texnik vəzifəsində əmək fəaliyyətinə başlayır. 1958-ci ildə ali təhsilini başa vuran Abduləli müəllimə «Dağ mühəndisi» ixtisası verilir və bu tarixdən onun həyatında yeni mərhələ başlanır.

Özü haqqında belə söyləyir: «Mən elmi-tədqiqat institutunda əmək fəaliyyətinə başlayanda Böyük Yaradan mənə dövrün böyük şəxsiyyətləri ilə çiyin-çiyinə işləmək kimi şans vermişdi. İnstitutun direktoru Mahmud Abdullayev, Əşrəf Əlizadə, Nəriman Tahirov, Şükür Əliyev kimi görkəmli, alicənab alimlərlə tanış olmaq, onların məktəbini keçmək hər adama nəsib olmurdu. Allah onların hamısına rəhmət eləsin. Onlar biz gənclərə ata əvəzi idilər, hər birimizə böyük qayğı ilə yanaşırdılar. Bu alimlərin içərisində Nəriman Tahirovun mənim həyatımda oynadığı rolu ömrüm boyu unutmaram. O, həyatın kələ-kötürlü yollarında hərəkət etməyi, elmin mənasını mənə hələ ali təhsil almamışdan anladırdı. Nəriman müəllim çox gənc yaşında texnika elmlər doktoru alimlik dərəcəsi almışdır. O, çalışırdı ki, gənclər elə gənc yaşlarında alim olsunlar. Nəriman müəllimin təşəbbüsü ilə mən 1958-ci ildə institutu bitirən kimi elmi işlə məşğul olmağa başladım. Apardığım elmi işlərin ilk nəticələrini «Elmlər Akademiyasının Xəbərləri»ndə dərc etdirmək arzusunda idim. Mənim elmi fəaliyyətim belə başladı».

Abduləli müəllim elmi-tədqiqat institutunda işlədiyi müddətdə başına gələn maraqlı epizodlardan çox həvəslə danışır. Xüsusən institutun direktoru Mahmud müəllimin mərd xarakterindən və insani keyfiyyətlərindən. Onun işə qəbulu ilə bağlı söhbəti isə xüsusi olaraq tərbiyəvi xarakter daşıyır.

Məsələ belə olmuşdur. İşə qəbul olmaq məqsədi ilə, Mahmud Abdullayevin qəbulunda olduqda o, gənc mütəxəssisdən soruşur:

- Ay bala, sən niyə neftçi olmaq istəyirsən?

- Mən Azərbaycan Sənaye institutuna ürəyimin istəyi ilə daxil olmuşam. Sevdiyim peşəyə yiyələnmək üçün – deyə Abduləli müəllim cavab verir. Mahmud müəllim telefonun dəstəyini qaldıraraq kimi isə yanına çağırır. Sonra üzünü Abduləliyə tutaraq deyir:

- Tez bir ərizə yaz, səni işə qəbul edirəm – deyir. Bu zaman qapı açılaraq bir nəfər içəriyə daxil olur.

- Vaqon Ovanesov, sənin rəhbərlik etdiyin lay fizikası laboratoriyasındakı vakant texnik yerinə bu cavan oğlanı qəbul edirəm, tanış ol və onu elə bu gün laboratoriyanın işləri ilə tanış et. O, bu gündən laboratoriyanın işçisi sayılır – deyərək Abduləli müəllimin yazdığı ərizəni tez imzalayaraq iş stolunun kənarına çəkir.

- Biz o yerə başqa iki nəfəri seçmişik və fikrimiz onların birini qəbul etməkdir.

- Sənin fikrin mənə aydındır, gətirdiyin Kukasyan və Vartanyan bu vakant yerə layiq deyillər. İndi isə get, Əsədovun iş yerini ona göstər və məlumat ver, bizə belə gənc işçilər lazımdır, bildin? – səsini bir qədər yüksəldərək, Ovanesova – Gedə bilərsiniz – dedi. Sonradan məlum olur ki, Mahmud Əliyeviç ona deyib ki, işə götürməyə azərbaycanlı gənc oğlanları dəvət etmək lazımdır. O isə özünün ermənilərini hər vəchlə instituta soxmağa çalışırdı.

Mahmud müəllim Əsədovun işləyə-işləyə ali məktəbdə oxumasına şərait yaradaraq, bir il sonra onun mühəndis vəzifəsinə seçilməsi üçün vakant yer ayırır.

Mühəndis vəzifəsinə keçdikdən sonra Nəriman Tahirov Abduləliyə elmi işlə məşğul olmağı təklif edir və o, bu işə böyük həvəslə girişir. Uğurlu illər bir-birini əvəz edir, institutdakı fəaliyyətinin üçüncü ili rəhbərlik Abduləli müəllimin ailə qurmaq istəyində olduğu və fəallığı nəzərə alınmaqla öz tikdikləri yaşayış binasından ona üç otaqlı mənzil verir.

O, 1961-ci ildən başlayaraq artıq öz elmi məqalələrini tanınmış jurnallarda dərc etdirməyə başlayır. İlk məqaləsi «Azərbaycan Elmlər Akademiyasının xəbərləri»ndə dərc olunanda çox sevincli bir gün yaşadığını xatırlayan Abduləli müəllim, sonrakı illər məqalələrin sayının və əhatə diapazonunun genişləndiyini kafedranın gənc tədqiqatçılarına həvəslə danışır. Bunlarla yanaşı işlədiyi lay fizikası laboratoriyasında eksperimentlərin aparılmasında laboratoriya müdiri Vaqon Ovanesovun hər növ maneçilik törətməyini və bu səylərin onda necə nifrət hissi yaratdığını mənimlə bölməyə çalışırdı.

Bir dəfə Nəriman müəllim ona təklif edir ki, məqalələrini toplayıb akademik Azad Mirzəcanzadəyə göstərsin. Təklifi qəbul edən Abduləli müəllim Azad müəllimin yanına gəldiyini və onunla söhbətdən çox xoş təəsüratla ayrıldığını xatırlayır. Akademikin: - Seçdiyin mövzu aktual mövzudur, məqalələrin də yaxşıdır – deməsindən çox fərəhləndiyini qeyd edərək Azad müəllimin ona – sən A.V.Lıkovun kitabını tap, və orada 70-ci səhifədə sənin mövzuna aid olan məsələlərə nəzər sal və bir neçə gündən sonra yanıma gəl - deməsinin ona yeni güc və qüvvə verməsindən danışdıqca bu insanın uğurlarına sevinməmək olmur.



Təcrübə-sınaq işlərinin aparılması

Növbəti görüşdə Azad müəllimin bir neçə yeni tədqiqat işlərinin aparılmasını təklif etdi. Eksperimentlərin nəticəsi onun çox xoşuna gəldiyi üçün o, Abduləli müəllimin dissertasiya işinə rəhbər olmağa razılıq verir.

24.06.1966-cı il tarixdə Abduləli müəllim texnika elmlər namizədi elmi dərəcəsi almaq üçün yazdığı dissertasiya işini müvəffəqiyyətlə müdafiə edir. Müdafiədən sonra Azad müəllim onu öz kafedrasında işləməyə dəvət edir. 26.06.1967-ci il tarixində Azərbaycan Neft və Kimya institutunun problem laboratoriyasına baş elmi işçi vəzifəsinə qəbul olunaraq o, işlədiyi müddətdə elmi işlərlə məşğul olmaqla yanaşı, həm də tədris yükünü aparırdı. Azad müəllim öz aspirantlarının elmi təcrübələrinə nəzarəti ona tapşırmışdı. Kafedranın gənc mütəxəssisləri

olan Qalib İsgəndərov, Çilidən gəlmiş Süleyman, Almaniyadan gəlmiş Daşdəmiri Cabbarov və başqaları ilə xoş münasibətlər qura bilmişdi.

03.01.1969-cu ildə SSRİ-nin Ali Attestasiya Komissiyasının qərarı ilə ona baş elmi işçi attestatı təqdim olunmuşdu.

Akademik Azad müəllimin tövsiyəsi ilə Abduləli Əsədov 07.02.1972-ci ildən «Rəsmxət» (indiki «Mühəndis qrafikası») kafedrasında assistent vəzifəsinə qəbul olunmuş və 13.10. 1976-cı ildə isə həmin kafedranın dosenti olmuşdur.

ADNA-da işlədiyi müddətdə iki dərs vəsaiti, 2 metodiki göstəriş, 90-a yaxın elmi-metodiki məqalələri müəllif və həmmüəllif kimi nəşr etdirmişdir.

Elmi fəaliyyətinin nəticələrini şərh etmək məqsədi ilə beynəlxalq və respublika kofranslarında maraqlı çıxışlar etmiş, Rusiya Federasiyasının aparıcı ali məktəblərində və müəssisələrində təcrübələr keçmişdir.

Abduləli müəllim ADNA-nın ictimai həyatında aktiv iştirak edir. Onun bu xidməti Təhsil nazirliyi, Azərbaycan Respublikası Həmkarlar ittifaqının, ADNA-nın Fəxri fərmanları ilə qiymətləndirilmişdir.

O, kafedra müəllimləri ilə mehriban münasibətdədir. Onların ehtiram və hörmətini saxlamağı özünə borc bilir. Hər hansı bir müəllim ilə birgə imtahan apardıqda müəllim razılığını nəzərə almadan tələbə haqda birmənalı qərar qəbul etmir.

Mühəndis qrafikası fənni üzrə imtahan

Ümumiyyətlə, harada olmağından asılı olmayaraq insanlarla xoş ünsiyyət yaratmağa çalışır. Onun olduqca yaxşı yol yoldaşlığı vardır. Hər ilin iyul–avqust aylarında Moskva, Sankt-Peterburq, Kiyev, Tiflis və başqa şəhərlərə səyahət etməyi xoşlayır. Son illərə qədər kafedranın müəllimləri Cahangir, Zöhrab, Səfa, Oqtay və digərləri ilə avtomobil səyahətlərinə çıxardılar.

Söhbətlərindən yadımda qalanından biri də İsmayılov Cahangir və Kərimov Zöhrab müəllimlə Qara dəniz sahilləri ilə Yalta şəhərinə qədər maşınla səyahətləridir. Bu səyahət zamanı baş verən hadisələri maraqla danışır.

Abduləli müəllim gözəl ailə başçısıdır. Onun həyat yoldaşı Solmaz xanım ixtisasca tibb bacısıdır. Onların iki oğul, bir qız övladı və beş nəvələri vardır. Övladlarının hər üçü ADNA-nın müxətlif fakültələrini bitirmişlər. Onların tərbiyələrinin, ailəyə, valideynlərə və insanlara qarşı münasibətlərinin formalaşmasında Abduləli müəllimin böyük zəhməti var. Baba olmasından fərəhlə danışır və nəvəni dünyada ən böyük Allah payı kimi qiymətləndirir.

Abduləli müəllim həmişə bir faktı qeyd edir: «Hər bir insanın həyatda yaşamaq – yaratmaq arzusu, fiziki və ruhi durumu onun ailəsindəki vəziyyət ilə bağlıdır. Əgər ailədə rahatlıq yoxsa, həyat normal ola bilməz».

Mən bu prinsipial insana, sədaqətli dost və yoldaşa, mehriban ataya ailə səadəti və sağlam həyat arzulayıram.

YORULMAZ TƏDQİQATÇI, YÜKSƏK SƏVİYYƏLİ PEDAQOQ

Məmmədova Məleykə Ağamoğlan qızı

Qarşımda olan «Mədəni irs» qəzetini vərəqləyərkən gözümə «Qızıl medallı məzun» yazısı sataşdı. Bu məqalədə kafedramızda uzun müddət dosent vəzifəsində çalışan, tələbə və müəllim heyəti arasında xüsusi hörmət və ehtiram sahibi olan Məleykə xanım Məmmədova haqda böyük bir yazı verilmişdi. Məqalədəki xoş sözləri oxuduqca fikirləşdim ki, – görən 20 ildən artıq bir müddətdə bərabər çalışdığım, hər gün gördüyüm, salamlaşdığım həmkarım haqda nələri və necə yazardım, onun hansı xarakterik keyfiyyətlərini, fərqləndirici xüsusiyyətlərini açıqlayardım. Məqalənin müəllifi Xəlilov Mübariz müəllim bizim yoldaşımız haqda o dərəcədə isti, mehriban və səmimi sözlər yazmışdı ki, mən onları təkrarlamaqdan çəkinərək bir müddət öz fikrimdən daşındım. Digər tərəfdən texniki sahənin mütəxəssisi olduğumdan yazımda söz kasadlığının olacağından, düşündüklərimin bədii izahatının zəif və solğun alınacağından ehtiyat edirdim. Bütün bunlara baxmayaraq sonda yazmağı qərara aldım.

Məleykə xanımın tərcümeyi-halı mənə yaxşı bəlli olduğundan, onun həyatda qazandığı uğurların, yaşadığı problem və çətinliklərin xronologiyasını yaxşı bilirəm.

Məmmədova Məleykə Ağamoğlan qızı 17 oktyabr 1944-cü ildə Hacıqabul rayonunda ziyalı ailəsində anadan olmuşdur. Atası Məmmədov Ağamoğlan Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. O, uzun müddət hakim vəzifəsində calışmış, ömrünün son illərində isə vəkillik fəaliyyəti ilə məşğul olmuşdur. Anası Böyükxanım evdar qadın olub. Ailənin yükü də onun çiyinlərində idi. Uşaqlarının təlim və tərbiyəsi, onların sağlam və qayğısız böyüməsi üçün

bütün çətinliklər bu zərif xanımın gündəlik yaşayış tərzinə çevrilmişdi. Hər iki valideynin ən böyük arzusu övladlarını ali təhsilli görmək idi.

Söhbətlərimizin birində Məleykə xanım uşaqlıq illərini xatırlayaraq atasının - Böyüyəndə sən kim olacaqsan? - sualına, «Ata, mən professor olacağam!» cavab verdiyini və atasının bu cavabdan qürurlanaraq güldüyünü söylədi.

«Niyyətin hara, mənzilin də ora» deyib atalarımız. Elmlər namizədi dissertasiya işini müdafiə etdikdən sonra, akademik Azad Mirzəcanzadə ona alimlik diplomu təqdim edərək: - Sən bu yüksək ada layiqsən – deyəndə, Məleykə xanım qələbə sevincindən çox atasına verdiyi sözü yerinə yetirdiyindən rahatlıq taparaq gözlərinin qarşısında Ağamoğlan müəllimin çöhrəsini gördüyünü xatırladı.

Məleykə xanım 1962-ci ildə Hacıqabul rayonundakı 5 saylı orta məktəbi qızıl medalla bitirmişdir. Məktəb həyatından çox epizodları xatırlayan Məleykə xanım səmimiyyətlə onlara riyaziyyat fənnindən dərs deyən Fətixan müəllimdən, onun yeni mövzuları yüksək peşəkarlıqla izah etdiyindən, sonradan evdə bir daha təkrar öyrənməyə ehtiyac qalmadığından danışdı. Dəqiq elmlərə onda yaranan məhəbbətə görə Fətixan müəllimə minnətdarlıq bildirərək, bu gün tələbələrinə mühazirələr oxuduqda və ya məşğələ dərsləri apardığı zaman doğma müəllimi kimi olmağa çalışır.

Məmmədova Məleykə IV sinifdə oxuyarkən müəllim və şagirdlərlə birlikdə

Məleykə xanım da öz müəllimi kimi öyrətdiklərinin tələbələri tərəfindən mənimsənildiyini görəndə sevincini gizlədə bilmir. Dəfələrlə söhbətlərimiz əsnasında onun məktəb müəllimlərinin ruhuna Allahdan rəhmət diləməklə minnətdarlıq etdiyinin şahidi olmuşam.

Məktəbdəki rəfiqələri ilə

Məktəbdə buraxılış imtahanlarını müvəffəqiyyətlə başa vurduqdan sonra Məleykə xanım sənədlərini M.Əzizbəyov adına Neft və Kimya institutuna verdi və arzusunda olduğu ixtisasa sahib olmaq şansını əldə etdi.

Tələbəlik illərinin təəsüratları ilə bölüşmək təklifimə həvəslə qoşulan Məleykə xanım, o illərin xoş xatirələrini yada salaraq qrup yoldaşlarından, böyük ehtiram bəslədiyi professor Fuad Vəliyev, professor İsa Abdullayev, dosent Babali İbişov, dosent Vaqif Abbasov və Eldar Abdinov haqqında xoş təəssüratlarla danışdı. Qruplarındakı tələbələrin ikisi qız, digərləri oğlan idi. Məleykə xanım qrupun nümayəndəsi idi. Tələbə dostları arasında yaşanan mehribançılıq və qarşılıqlı hörmət uzun illərdən sonra da davam edir. Bu gün də onların çoxu arasında ailəvi dostluq əlaqələri vardır.

Məleykə xanım 1968-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutunun «Qazneftmədən» fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Həmin

ildə Moskvada keçirilən Beynəlxalq konfransda dünya şöhrətli akademik Azad Mirzəcanzadənin rəhbərliyi ilə hazırladığı «Neft yataqlarının neftvermə əmsalının artırılmasında polimerlərin istifadəsi» adlı diplom işinin nəticələri haqqında məruzə edən yeganə azərbaycanlı qız bu möhtəbər müsabiqənin qalibi olur.

1988-ci ildə ADNA-nı bitirmələrinin 20 illiyi münasibəti ilə keçirilən görüş

Onun çıxışı və tədqiqatlarının nəticələri yüksək qiymətləndirilir və «Ən yaxşı elmi işə görə» medalı ilə təltif olunur. Doğma institutunda bu uğur qiymətləndirilməyə bilməzdi. Məleykə xanıma institutda müəllim işləmək təklif olunur. O, bu təklifi böyük minnətdarlıqla qəbul edərək, əmək fəaliyyətinə başlayır.

Tələbəlik skamyasından yenicə ayrılıb, müəllim kimi auditoriyaya daxil olmağın nə dərəcədə məsuliyyətli olduğunu dərk edən Məleykə xanım tələbə – müəllim münasibətlərində əxlaq, qarşılıqlı hörmət kateqoriyalarını daim yüksəkdə saxlamağa çalışmışdır. İlk rəhbəri olan dosent Qasım müəllim Bağırzadə haqda mənimlə danışanda, bir müəllim, pedaqoq kimi yetişməyində onun böyük rolu olduğunu xatırladı. Qasım müəllimin ilk günlər onu sakitləşdirməyindən,

auditoriyanın cazibə qüvvəsindən qorxmaması üçün hansı addımlar atması ilə bağlı məsləhətlərdən danışaraq fikirlərini sıralamağa çalışırdı.

Hər dəfə institutda müəllimlik fəaliyyətinə çox gənc başladığından onu tələbələrlə səhv saldıqlarını xatırlayaraq qürur hissi ilə o günləri və o illəri tez-tez yada salır, ona dayaq olan müəllim dostlarına minnətdarlıq bildirir.

Məleykə xanım Bauman adına Moskva Ali Texniki məktəbdə dəfələrlə ezamiyyətlərdə olmuş və hər dəfə orada öz çıxışları ilə həmkarlarının rəğbətini qazanmışdır. O, 1971-ci ildə Azneftkimya institutunun aspiranturasına daxil olur.

1989-cu ildə isə «Mayelərin reoloji xüsusiyyətlərinin nazik çatlarda təcrübi tədqiqi və sıxışdırma əmsalının proqnoz və hesablama metodikası» mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək, SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə texnika elmlər namizədi alimlik dərəcəsinə layiq görülür.

Anası Böyükxanım xalanın qızının namizədlik diplomunu əlinə alarkən ağladığını, sonradan isə sevindiyindən güldüyünü xatırlayan Məleykə xanım özünün də göz yaşlarını saxlaya bilmədiyinidən danışdı.

Yorulmaq bilməyən tədqiqatçı alimə 1993-cü ildə Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası dosent elmi adı verərək ona yeni uğurlar qazanmaq istiqamətində yol açır. Məleykə xanım 50-dən cox elmi məqalə və 6 dərs vəsaitinin müəllifidir. Onun elmi işlərinin nəticələri müxtəlif səviyyəli elmi mətbuatda, beynəlxalq konfranslarda və simpoziumlarda alim və tədqiqatçıların nəzərinə çatdırılmışdır. Hal-hazırda doktorluq dissertasiyası işinin yekunlaşdırılması üzərində çalışır.

Elmi və pedaqoji fəaliyyəti onu ailəsindən bir dəqiqə belə ayıra bilməmişdir. Məleykə xanımın bir oğlu vardır. Həyat yoldaşı Əlipaşa Hacıyev M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutunun «Qazneftmədən» fakültəsini bitirmişdir. Uzun müddət Azərbaycan Neftyağ zavodunda işləmişdir.



Əlipaşa müəllimin ailəsi

Onların övladı Əliabbas ailə ənənəsini davam etdirərək, məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Neft Akademiyasına qəbul olmuş və oranı bitirərək aspiranturaya daxil olmuşdur. 2010-cu ildə dissertasiya işini müdafiə edərək texnika üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. O, hal-hazırda Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin «Neftqazelmitədqiqatlayihə» institutunda böyük elmi işçi vəzifəsində çalışır. Həyat yoldaşı Cəmilə xanım Azərbaycan Dövlət Tibb Universitetini bitirmişdir. Onların Faiq və Sənan adlı iki övladları var.

ADNA-nın 90 illik yubileyi

Məleykə xanım öz ictimai fəallığı ilə seçilir. Uzun illərdir ki, kafedranın metodqrupuna rəhbərlik edir. O, tələbə elmi cəmiyyətinin aktiv üzvlərindəndir. Onun tələbələrinin məruzələri müxtəlif elmi cəmiyyətlərdə böyük diqqətlə dinlənilmiş və diplomlara layiq görülmüşdür.

M.A.Məmmədovanın fəaliyyəti ADNA-nın rəhbərliyi tərəfindən həmişə qiymətləndirilmişdir. Sonuncu dəfə Akademiyanın 90 illik yubileyində Azərbaycan Təhsil İşçilərinin Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin Fəxri Fərmanı ilə təltif edilməsini fərəh və qürur hissi ilə yada salır.

MƏQSƏDYÖNLÜ İNSAN, ETİBARLI DOST

Mirzəyev Osman Həsən oğlu

Osman Mirzəyevi tələbə olduğu dövrdən tanısam da, yaxın münasibətimiz onun kafedrada işlədiyi zamandan başlayır.

Osman müəllim 1964-cü ildə Kəlbəcər rayonunun Başlıbel kəndində anadan olmuşdur. Orta məktəbi Başlıbel kəndində bitirmişdir.

İlk müəllimi öz atası Həsən Mirzəyev olmuşdur. Həsən müəllim təcrübəli bir müəllimdir. Kəlbəcər rayonundan köçkün düşdükdən sonra Bakı şəhərində də müəllim işləyərək pedaqoji kollektiv arasında böyük hörmət qazanmışdır.

Həsən müəllim

Ürək yanğısı ilə doğma torpaqlarını və isti ocaqlarını, itirdiyi həmyerlilərini yad edərək və mənim o yerləri görmədiyimi nəzərə alaraq, hər dəfə Kəlbəcər haqda geniş danışmağa çalışır. Bu söhbətlərin nəticəsi olaraq, görmədiyim o məkanı xəyalımda çox canlandırmağa çalışmışam. Əzəmətli "Dəlidağ"ın ətəyində yerləşən Başlıbeli, onu iki yerə bölən "Tutqun" çayını şəkillərdəki təsvirlərlə müqayisə etməklə görmək istəmişəm.

Osman müəllim orta məktəbi bitirdikdən sonrakı seçimi ilə bağlı xatirələrinin birində danışır: - "Yeraltı və yerüstü sərvətlər ilə zəngin olan Kəlbəcərə hər il yaz aylarından başlayaraq kəşfiyyat işləri aparmaq üçün çoxlu sayda geoloq dəstələri gəlirdi. Geoloqlar çayın kənarında müxtəlif rəngli kiçik çadırlar qururdular. Bir çoxları kimi onların həyat tərzi, əmək fəaliyyətləri mənim üçün də çox maraqlı idi. Mən sinif yoldaşlarımla birlikdə kənardan onları izləyirdim. Bir müddətdən sonra mən yaşlı bir geoloqla dostluq əlaqəsi qura bildim. Təəssüflər olsun ki, artıq onun adını unutmuşam. O, məni özü ilə dağlara aparır, onların çadırlarında yatıb-dincəlməyimə icazə verirdi. Beləliklə, geoloqlarla olan dostluğum məndə geoloq olmaq arzusu yaratdı. Bir gün həmin yaşlı geoloqdan - geoloq olmaq üçün nə etmək lazımdır? - deyə soruşdum. O, gülümsəyərək diqqətlə üzümə baxdı. Başımı sığallayaraq dedi: "Sən bacarıqlı oğlana oxşayırsan. Bunun üçün yaxşı oxumalısan.

Məktəbi qurtardıqdan sonra AZİ-nin (indiki Azərbaycan Dövlət Neft Akademiyası) "Geoloji kəşfiyyat" fakültəsinə daxil olmalısan".

Bu söhbət Osman müəllimin həyatında dönüş nöqtəsi olur. Payızın başlanğıcında, geoloqlar Kəlbəcəri tərk etdikdən sonra, o böyük həvəslə dərslərini oxumağa başlayır.

Sevdiyin və ürəyin istəyən işlə məşğul olduqda zaman və vaxt başqa miqyasda ölçülür. Osman müəllim üçün də həmin illər tez ötüb keçmişdi. O, buraxılış imtahanlarından sonra sənədlərini Azərbaycan Neft və Kimya institutuna verir, lakin iki il dalbadal müsabiqədən keçə bilmir. Hərbi xidmətə getməli olur. Onun hərbi xidməti Rusiya Federasiyasının Samara şəhərində keçmişdir. Vaxt tapdıqca əldə etdiyi kitabları oxuyur və qəbul imtahanlarına hazırlaşır.

Hərbi xidmətdən qayıtdıqdan sonra Bakı "Komvol-mahud" kombinatında əmək fəaliyyətinə başlayır.

1985-ci ilin aprel ayının 29-da qəzetlərin birində maraqlı elana rast gəlir. Burada Azərbaycan Neft və Kimya institutunun hazırlıq kursundan qovulmuş 3 nəfərin yerinə (o vaxt 9 aylıq hazırlıq kursları fəaliyyət göstərirdi) müsabiqə elan edilmişdi və 30 aprel sənəd təqdimatının axırıncı günü idi.

O, ertəsi gün işə getməyərək, topladığı sənədlərini götürüb instituta gəlir. Həmin gün müsabiqə iştirakçılarının sonuncusu olur. Elan olunmuş üç yerə 38 nəfər sənəd vermişdi.

O, müsabiqədən müvəffəqiyyətlə keçir və bir ay dərs keçdikdən sonra buraxılış imtahanı verir. İmtahandan sonra institutun prorektor və fakültə dekanları onlarla söhbət edərək ixtisas seçimində məsləhətlər verirlər. Həmin illərdə «İstehsalat proseslərinin avtomatlaşdırılması» fakültəsinin dekanı Razim Zeynalov Osmanın yüksək bal topladığını nəzərə alaraq təhsilini onun fakültəsində davam etdirməyi təklif edir. Osman müəllim isə geoloq olmaq istədiyini bildirəndə o qəti etirazını bildirir. Qəbul komissiyası da fakültə dekanını dəstəkləyir.

Osman müəllimin tələbəlik illəri çətin olsa da maraqlı keçib. İkinci kursu qurtaranadək oxumaqla yanaşı dərsdən sonra müxtəlif müəsissələrdə gözətçi işləyib. O, qrup nümayəndəsi olmaqla institutun ictimai işlərində aktiv iştirak edib. İki il xarici tələbələrlə birlikdə tələbə inşaat dəstələrinin tərkibində komandir qismində fəaliyyət göstərib. İnstitutun tələbə yataqxanasında tələbə şurasının sədri olub.

Osman müəllimin tələbə yoldaşları. 1995-ci il. I kurs.

Yataqxanada aktivliyi nəzərə alınaraq, ikinci kursun sonunda tələbə şəhərciyinin direktoru Məhərrəm Bağırovun təqdimatı ilə institutun rektoru İbrahim İsmayılov onu 1 saylı tələbə yataqxanasına komendant vəzifəsinə təyin edir və o, institutu bitirənə qədər bu vəzifədə işləyir.

1990-cı ildə institutu bitirir. O illərdə artıq fərdi kompüterlərin tətbiqinə başlanmışdı və "Mühəndis qrafikası" kafedrasının nəzdində "Displey sinfi" yaradılmışdı. Bu sinif 10 ədəd "DVK-3" tipli kompüterlə təchiz edilmişdir ki, bunlardan çertyojların çəkilməsində istifadə edilirdi. Sinfin təşkil edilməsinə baxmayaraq onu işlədən yox idi.

Təyinat bölgüsü zamanı İPAF-nin dekanı Osman müəllimə "Mühəndis qrafikası" kafedrası üzrə müsabiqə elan edildiyini söyləyir və onun burada iştirakını təklif edir. Müsabiqə komissiyasının sədri o illərdə kafedra müdiri Sabir Bünyatov, üzvləri isə dosentlər Cahangir İsmayılov və Vasif Məmmədov idilər. Onlar iddiaçılarla söhbətdən sonra Osman müəllimə üstünlük verdilər və o, 1994-cü ilə qədər "Mühəndis qrafikası" kafedrasında işlədi.

Müəyyən subyektiv səbəblərdən Osman müəllim bir müddət kafedradan uzaqlaşmalı olur. Kəlbəcər rayonunu ermənilər yenicə zəbt etmiş, yarımçıq qalmış elmi isi, işsizik Osman müəllimə mənəvi əzablar verirdi. O, problemlər içərisində ilişib qalmışdı.

Hər bir qaranlıq gecənin, mütləq işıqlı bir səhəri olur. Böyük Yaradan öz sadiq bəndələrini ümidsiz, köməksiz qoymur. Bu zaman Osman müəllimə "Neft-qaz mədən avadanlıqları" kafedrasında işləmək təklif olunur və 1995-ci ilə qədər orada calışır.

1995-ci ilin may ayında mən "Mühəndis qrafikası" kafedrasına müdir təyin edildim. Osman müəllimdən kafedraya qayıtmağı, mənə köməklik etməyi xahiş etdim. O gündən biz bir yerdəyik. Osmanda dağ adamlarına xas olan saflıq, mərdlik xüsusiyyətləri vardır. Ona 100% arxayın olmaq olar.

Kafedrada məsləhət saatı

2001-ci ildə o assistent vəzifəsinə seçilmişdir. Böyük ictimai, elmi-pedaqoji fəaliyyətlə məşğuldur. Uzun illər «Neft mexanika» fakültəsi Elmi Şurasının elmi katibi olmuşdur. 2005-ci ildən hal-hazırki dövrə qədər Təhsil nazirliyi "Maşınqayırma və metallurgiya" elmi metodiki şurasının elmi katibidir.

O, 2004-cü ildə professor R.Ə.Əliyevin rəhbərliyi altında dissertasiya işi müdafiə etmişdir. 2005-ci ildə "Mühəndis qrafikası" kafedrasında dosent vəzifəsinə seçilmişdir. 2008-ci ildə dosent elmi adı almışdır. Böyük həvəslə doktorluq dissertasiyası üzərində çalışır.

ПРЕЗИДИУМ
РОССИЙСКОЙ АКАДЕМИИ
ЕСТЕСТВОЗНАНИЯ
Мирзоев
фамилия
Осман
имя
Гасан оглы
отчество
№ 01336

Решением Президиума
Российской Академии Естествознания
присвоено
ПОЧЕТНОЕ ЗВАНИЕ
ЗАСЛУЖЕННЫЙ РАБОТНИК
НАУКИ И ОБРАЗОВАНИЯ
Президент РАЕ М.Ю. Ледванов
Ученый секретарь РАЕ Н.Ю. Стукова
Протокол № 337 от "27" января 12 20 г.

2011-ci ildən ADNA-nın "İnformasiya hesablama və nəşr mərkəzi"nin rəisdir.

2012-ci ildə Rusiya "Təbiət elmləri" akademiyasına üzv seçilmişdir. Həmçinin 2012-ci ilin yanvar ayında Rusiya "Təbiət elmləri" akademiyası tərəfindən "Əməkdar elm və təhsil işçisi" fəxri adını almışdır.

Osman müəllim gözəl ailə başçısıdır. Onun üç övladı vardır.

Həyat yoldaşı Mirzəyeva Gülparə çox savadlı uşaq həkimidir və mənim nəvəmin ilk gündən hal-hazıra qədər sağlamlığının keşiyindədir.

Oğlu Tural və qızı Türkan bizim akademiyanın tələbələridir. Kiçik oğlu Şəhriyar isə 10-cu sinif şagirdidir.

Bu gözəl ailəyə məhəbbət, hörmətlə dolu həyat arzulayıram.

QAYĞIKEŞ BABA, SEVİMLİ ATA VƏ ETİBARLI AİLƏ BAŞÇISI

Səmədov Faiq Ələvsət oğlu

Mən M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutunda oxuduğum müddətdə ixtisas dərslərimizin çoxu əsas binanın həyətində yerləşən laboratoriyada olurdu. Orada böyük preslər, müxtəlif kəsici dəzgahlar və alətlər var idi.

Həmişə oraya dərsə gələndə gənc bir oğlanın plastik materiallardan nə isə hazırladığının, sonradan onları müxtəlif sınaqlara uğratdığının şahidi olurdum. Onun gördüyü işlər məndə böyük maraq yaradırdı. Onunla birlikdə tədris ustası da çalışırdı. Onun adı Altay idi. Tələbələrlə xoş münasibəti vardı. Bir dəfə mən Altay müəllimdən soruşdum: Bu oğlan kimdir və nə ilə məşğul olur? O cavab verdi ki, aspirantdır, adı Faiqdir və elmi-tədqiqat işi ilə məşğuldur. Hər dəfə onun işlərini gördükcə məndə də elmi-tədqiqat işləri aparmaq arzusu güclənirdi.

Faiq Ələvsət oğlu Səmədov 5 yanvar 1941-ci ildə Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açmışdır. Onun atası dövrünün tanınmış təhsil işçisi olmuşdur. İxtisasca bioloq olan Ələvsət müəllim Azərbaycanda bu sahədə elmi ad almış alimlərdəndir. O, Azərbaycan Dövlət Universitetində (indiki BDU) dosent vəzifəsində çalışmışdır.

Anası Lumu xanım İsmayıl qızı evdar qadın idi. Ailədə uşaqların tərbiyəsi və tədrisi, eləcə də digər problemlər bu xanımın üzərində idi. Müharibə və ondan sonrakı illərdə üç oğlan uşağını nizam-intizam, səliqə-səhman içində saxlamaq olduqca çətin missiyalardan biri idi.

Ailənin böyük övladı olan Tofiq 1938-cı ildə anadan olub.Tofiq müəllim texnika elmlər doktorudur. Uzun illər ADNA-nın «Qazneftmədən» fakültəsinin dekanı vəzifəsində çalışıb. Hal-hazırda həmin fakültənin ixtisas kafedralarından

birinin - «Qaz və kondensat yataqlarının işlənməsi və istismarı» kafedrasının müdiridir. Faiq müəllimin kiçik qardaşı Namiq də böyük qardaşlarının yolunu təkrarlayaraq Azərbaycan Neft və Kimya institutunu bitirib. İxtisasca neftçidir və uzun müddət neft mədənlərinin birində mühəndis vəzifəsində işləyib.

Faiq 1949-cu ildə orta məktəbə getmiş və 1960-cı ildə məktəbi bitirərək, sənədlərini Azərbaycan Politexnik institutuna vermişdir. 1965-ci ildə institutun «Neft mexanika» fakültəsini «Maşınqayırma texnologiyası, metalkəsən dəzgahlar və alətlər» ixtisası üzrə bitirmişdir.

Ali məktəbdə oxuduğu illəri yada salan Faiq müəllim böyük hörmət və ehtiramla ona dərs deyən müəllimləri - Q.Qarayevi, N.Məlikaslanovu, A.Məmmədovu, E.Ağayevi və F.M. Yaroşevskini xatırlayır.

Ali məktəbin ictimai-mədəni həyatında fəal iştirak etməyindən, futbol və basketbol yarışlarından həvəslə danışır. Qrup yoldaşları arasındakı mehribanlıqdan söz salarkən institutun əsas binasının fonunda yadigar çəkdirdikləri şəkildəki dostlardan bircə-bircə mənə danışdı.

Faiq müəllim tələbə dostları ilə

Həmin illər ali məktəb tələbələri istehsalat təcrübələrini SSRİ-nin qabaqcıl müəssisələrində keçirdilər. Mühəndis hazırlığında bu olduqca faydalı bir iş idi. Belə bir təcrübə Faiq müəllimin həyatında da baş tutmuşdu. «Maşınqayırma texnologiyası» kafedrasının müdiri Fedor Markoviç Yaroşevski belə təcrübə

qruplarının birinin tərkibinə 3-cü kurs tələbəsi Faiqi də daxil etdi. Təcrübə Moskva şəhərində yerləşən məhşur Lixacov adına avtomobil və 1 saylı podşipnik zavodlarında keçirdi. Təcrübədən səmərəli istifadə edən Faiq müəllim sonradan diplom işini də podşipniklərin hazırlanma texnologiyası ilə əlaqələndirmişdi.

1965-ci ildə institutu bitirdikdən sonra onu ordu sıralarına çağırırlar. Hərbi xidməti başa vurduqdan sonra qısa bir müddətdə Bakıdakı Kondisioner zavodunda aparıcı mühəndis vəzifəsində çalışır. 1967- ci ildə Azərbaycan Neft və Kimya institutunun «Maşınqayırma texnologiyası» kafedrası üzrə aspiranturaya qəbulla bağlı elan edilmiş müsabiqədə iştirak edir və kafedranın əyani aspirantı olur.

«Plastik kütlələrin neftmədən avadanlıqlarında tətbiqi» mövzusunda dissertasiya işi üzərində çalışmağa başlayır. 1970-ci ildə dissertasiya işini davam etdirmək məqsədi ilə ony Leninqrad şəhərinə (indiki Sankt-Peterburq) ezamiyyətə göndərirlər.1971-ci ildə dissertasiya işinin istiqamətinin Tribologiyaya yaxın olduğunu nəzərə alaraq institutun elmi şurası prof. S. M. Mustafayevin həmin işə rəhbər təyin edilməsi haqda qərar verir.

Faiq müəllim 1973-cü ildə namizədlik dissertasiyasını müdafiə edir və 1974-cü ilin mart ayının 1-də SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə ona texnika elmlər namizədi alimlik dərəcəsi verilir.

1970-ci ildə müsabiqə yolu ilə Azərbaycan Neft və Kimya institutunun «Rəsmxət» kafedrasına assistent vəzifəsinə seçilir. Həmin kafedrada tərcübəli müəllimlərlə: Y.Fərzanə, Ə.B. Hacıyev, İ.P.Çernikova, Z.Hasımmədova, F.Sultanova, S.Məlikova, Q.A.Fukson, B.M.Qutman, C.Camalov və başqaları ilə birgə çalışır və onlardan müəllim olmağın sirlərini öyrənməyə başlayır.

Kafedra seminarlarının birində

1978-ci ildə Rumıniyanın paytaxtı Buxarest şəhərində Politexnik institutunda elmi məzuniyyətdə olur.

Faiq müəllimin ADNA-da böyük hörməti vardır. Kafedranın əməkdaşları və tələbələr arasında nüfuz sahibidir.

Faiq müəllim 1975-ci ildə ailə həyatı qurmuşdur. Gənclik illərində klassik musiqiyə, teatra olan məhəbbət onun qarşısına Məlahət xanım kimi incə zövqlü bir qadın çıxarmışdır. Məlahət xanım Azərbaycan Dövlət Konservatoriyasını fortepiano ixtisası üzrə bitirib. Hal-hazırda V.Mustafazadə adına uşaq incəsənət məktəbində fortepiano şöbəsinin rəhbəri vəzifəsində işləyir. Bakıda keçirilən bir çox mədəni tədbirlərə mənim qatılmağıma köməklik edir.

Bu gözəl cütlüyün və səmimi ailənin iki qızı vardır: İlhamə və Ülkər. Hər ikisi bizim akademiyada tədris keçiblər və mühəndisdirlər. İlhamə artıq anadır. Onun bir övladı var.



Məlahət xanım, Faiq müəllim nəvələri Qasımla birlikdə

Faiq müəllim qayğıkeş bir ailə başçısıdır. Yaşının maraqlı bir dövründə olmasına baxmayaraq Faiq müəllim kafedranın aktiv əməkdaşlarındandır. Daim hərəkətdə və axtarışdadır.

Mən qayğıkeş babaya, sevimli ataya və etibarlı ailə başçısına səmimi və xoş arzular diləyirəm.

«DAİM MÜBARİZƏDƏ OLMAQ» DEVİZİ İLƏ YAŞAYAN İNSAN

Süleymanov Süleyman Salman oğlu

Belə bir el məsəli vardır: «Hər bir şey öz ölçüsündə gözəldir». Hətta ifrat dərəcədə prinsipiallıq və düzgünlük həqiqəti ifadə etdikdə yaxşılıqla nəticələnmir. Süleyman müəllim bu baxımdan işində, çıxışlarında və deyərdim, həyata baxış məsələlərində ifratçılığın zirvəsində dayanan bir insan idi.

Onun xarakterində bu xüsusiyyət özünün də inkişafına mane olurdu. Mən Süleyman müəllimlə bərabər uzun müddət «Mühəndis qrafikası» kafedrasında dərs aparmışam. Çox vaxt eyni qrupda o mühazirə, mən isə məşğələ dərsləri keçirirdik. Tələbələr ilk gündən Süleyman müəllimin kim və necə müəllim oluğunu bildiklərindən dərslərdə tam ciddiyyətlə məşğul olurdular. Onlar bilirdilər ki, bu müəllim tərəfindən heç bir kompromis olmayacaq və onun dərsini yalnız oxuyub, öyrənib qiymət almaq olar. Tələbələr onun adını öz aralarında «SS» çağırardılar. Bu Süleymanov Süleyman Salman oğlunun ciddiliyi, adında və soyadındakı hərflərlə bağlı idi.

Süleymanov Süleyman Salman oğlu 1936-cı ilin may ayının 12-də Şəmkir rayonunun Təzəkənd kəndində qulluqçu ailəsində anadan olmuşdur.

Atası – Süleymanov Salman Süleyman oğlu (1895-ci il təvəllüdlü) Oktyabr inqilabına qədər Şəmkir rayonunda fəhlə işləmiş, inqilabdan sonra isə orada M.Əzizbəyov adına sovxozda şöbə müdiri olmuşdur.

Anası – Süleymanova Fatma Mürsəl qızı 1907-ci ildə anadan olmuşdur, evdar qadın idi.

1945-ci ildə Şəmkirdə orta məktəbə getmiş, 1955-ci ildə məktəbi bitirmişdir. 1957-ci ildə M.Əzizbəyov adına Neft və Kimya institutuna daxil olmuş, 1963-cü ildə mühəndis-mexanik ixtisası üzrə oranı bitirmişdir. 1964-1966-cı illərdə

M.Əzizbəyov adına Neft və Kimya institutunun aspiranturasında təhsil almışdır. 1969-cu ildə namizədlik dissertasiyası müdafiə etmişdir.

1958-1967-ci illərdə müxtəlif müəssisələrdə çalışmışdır. 1967-1970-ci illərdə Neftmaşınqayırma elmi-tədqiqat layihə institutunda və «Neftkimya avtomat» EİB-də birinci dərəcəli mühəndis-konstruktor vəzifəsində çalışmışdır.

1970-1988-ci illərdə Azərbaycan Neft və Kimya institutunun «Mühəndis qrafikası» kafedrasında əvvəlcə assistent, daha sonra isə baş müəllim və dosent işləmişdir. İşlədiyi müddətdə 25 dərslik, dərs vəsaiti və elmi məqalə çap etdirmişdir. 3 dəfə ixtisasartırma kurslarında olmuşdur:

1976-cı ildə - Moskvada Qubkin adına Neft - kimya və Qaz sənayesi institutunda;

1981-ci ildə - Kiyev Politexnik institutunda;

1986-cı ildə – Leninqrad Politexnik institutunda.

Həyat yoldaşı – 1947-ci il təvəllüdlü Süleymanova Fəridə İsmayıl qızı.

Oğlu – 1968-ci il təvəllüdlü Süleymanov Elxan.

Oğlu – 1972-ci il təvəllüdlü Süleymanov Elşad.

1988-ci ildən «Neftmədən mexanikası, maşın və mexanizmlər» kafedrasında işləmişdir.

Süleyman müəllimin ağır xasiyyəti hər gün onu başa düşməyənlərin və sevməyənlərin sayını artırırdı. Bütün bunları nəzərə alaraq o, institutdan getməli olur və Azərbaycan kənd təsərrüfatı nazirliyində işləməyə başlayır. O, institutdan uzaqlaşsa da mənim yanıma tez-tez gələr və söhbətlər edərdi. Harada və nə vəzifəsində işləməsindən asılı olmayaraq o, mübarizədə idi.

Süleyman müəllim 2009-cu ildə dünyasını dəyişmişdir.

BÖYÜK İNTELLEKTUAL, TƏŞKİLATÇI, DİQQƏTCİL ATA

Rəhimov Oqtay Paşa oğlu

«Mühəndis qrafikası» kafedrasında çalışan müəllimlər sırasında ən parlaq şəxsiyyətlərdən birisi Oqtay müəllimdir. O, öz təşkilatçılıq bacarığı, elmi axtarışlara olan tükənməz həvəsi, böyük iradəsi və səbri ilə həmişə fərqlənirdi. Bunlarla yanaşı Oqtay müəllim xeyirxah insan, qayğıkeş ata və mehriban dost kimi xatirələrdə qalmışdır.

Rəhimov Oqtay Paşa oğlu 1935-ci il martın 23-də Lənkəran şəhərində anadan olmuşdur. Oqtay müəllimin hər iki valideyni Lənkəranda anadan olmuşdular. Onun atası - Rəhimov Paşa Həsən oğlu (1907) bu şəhərin tanınmış simalarından biri olmuşdur. O, 1943-cü ildə Böyük Vətən müharibəsində həlak olub. Həyat yoldaşını erkən itirən Qəmərxanım Muxtar qızı (1913-cü il təvəllüdlü) övladlarını tək böyütmüşdür. O, 1991-ci ildə vəfat etmişdir.

Oqtay müəllim 1953-cü ildə Lənkəran şəhər 3 saylı orta məktəbi bitirəndən sonra Azərbaycan Sənaye institutunun "Geoloji-kəşfiyyat" fakültəsinə daxil olub və oranı 1958-ci ildə müvəffəqiyyətlə başa vurub. 1958-ci ildə institutun təyinatıyla «Şirvanneft»ə işə qəbul olunur və burada böyük təcrübə toplayır. O, 1958-1961-ci illərdə böyük mühəndis, 1961-1963-cü illərdə isə şöbə müdiri vəzifəsində işləyib.

Elmi axtarışlara olan marağı onu 1963-cü ildə doğma institutun aspiranturasına gətirb çıxarır. 1967-ci ildə müvəffəqiyyətlə dissertasiya işini müdafiə edən Oqtay müəllimə texnika elmlər namizədi adı verilmişdir. Həmin il ona əmək fəaliyyətini institutda davam etdirmək təklif olunur və o problem laboratoriyasında böyük elmi işçi vəzifəsində işləməyə başlayır.

Oqtay müəllim 1971-1981-ci illərdə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutunun «Mühəndis qrafikası» kafedrasının dosenti olmuşdur. O, məzəli və xoş söhbətləri, intellektual səviyyəsi ilə kafedranın bütün müəllim heyətinin hörmətini qazana bilmişdir. Həmişə onun əlində mütaliə üçün müxtəlif

mövzulu kitablar görərdim. Oxuduqlarının içərisində maraqlı hadisələri kafedra müəllimlərinə danışmağı xoşlayardı.

1981-ci ildə dos. O.Rəhimovu Bakı Neft texnikumunun direktoru təyin edirlər. Oqtay müəllim orada fantastik işlər aparır: texnikumun stadionunun və tədris korpusunun tikintisi, tədris planlarının yeniləşməsi, elmi işlərin aktivləşdirilməsi və s. Bir dəfə mən ona yaxınlaşıb həyat yoldaşımın işə qəbul olunması ilə bağlı müraciət etdim. Oqtay müəllimin cavabı indiyə qədər yadımda qalmışdır: «Sənin həyat yoldaşın bizim bacımızdır. Mən şərəf duyaram ki, o bizim texnikumda çalışacaq. Qoy sabahdan işə çıxsın».

Məhin xanım, Oqtay Rəhimov və Qorxmaz Bəylərov

1989-cu ildə onu Azərbayan respublikası təhsil nazirliyinin tədris-metodiki mərkəzinə direktor vəzifəsinə təyin edirlər, sonradan 1990-1992-ci illərdə o həmin nazirliyin material təchizat idarəsinin rəisi olmuşdur.

Oqtay müəllim 1992-1994-cü illərdə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutunda prorektor,1994-cü ildən isə «Neftqazmədən geologiyası» kafedrasında dosent vəzifəsində çalışmışdır.

Oqtay müəllim gözəl ailə başçısı idi. Həyat yoldaşı Züleyxa xanım (1943-cü il təvəllədlü) Bakı şəhərində anadan olub, diş həkimidir.

Oğlu Emin mənim tələbəm olmuşdur. Oqtay müəllim həmişə onunla fəxr edirdi. Emin 1967-ci ildə Bakı şəhərində anadan olub. O, müxtəlif vəzifələrdə çalışmışdır.

Qızları Leyla (1972) və Sevda (1974) həkimdirlər.

Rəhimov Oqtay Paşa oğlu 17.04.2001-ci ildə vəfat etmişdir.

YÜKSƏK SƏVİYYƏLİ MEXANİK, TƏCRÜBƏLİ MÜƏLLİM

Qirimov Qalib Pirmurad oğlu

1976-cı ildə yazdığım ilk elmi məqalənin əl yazısını rəhbərim Arif Rəhimova təqdim edəndə, o mənə dedi: "Mən onu oxuyub sənə qaytarandan sonra mütləq tanış olmaq və rəyini bildirmək üçün Qalib Qirimova göstər. O çox savadlı yoldaşdır".

Onunla məqalədə qoyulmuş məsələnin aktuallığını, həlli yollarını və alınmış nəticələri müzakirə etdikdən sonra Qalib müəllim əlavə bir neçə sınaq işlərinin aparılması və elmi işin tamamlanması istiqamətində olduqca əhəmiyyətli təkliflər verdi. Bu işlərdə mənimlə birlikdə iştirak edəndən sonra «Константы уравнения состояния расплава полимеров и их роль в процессе литья подавлением» adlı məqalə hazırladıq və onu 1976-cı ildə Bakıda keçirilən «Прогрессивная технология в машиностроении» beynəlxalq elmi texniki konfransda məruzə etdik.

Qirimov Qalib 1939-cu ilin sentyabr ayında Azərbaycan Respublikası Qusar rayonunun Piral kəndində anadan olmuşdur. 1955-ci ildə orta məktəbi bitirmiş və həmin il Azərbaycan Dövlət Sənaye institutuna daxil olmuşdur. 1960-cı ildə bu təhsil ocağını fərqlənmə diplomu ilə başa vurmuşdur. Hələ institutun sonuncu kursunda oxuyarkən ona Binəqədi armatur zavodunda böyük mühəndis-texnoloq vəzifəsi tapşırılanda, işin öhdəsindən müvəffəqiyyətlə gəlmiş, müəyyən səmərələşdirici təkliflər vermişdir.



Arif Rəhimov və Qalib Qirimov

1960-61-ci illərdə Azərbaycan Dövlət Neft Müəssisələrinin Layihələndirilməsi institutunda layihəçi-mühəndis vəzifəsində işləmişdir.

Qalib müəllim 1962-ci ildə Azərbaycan Neft və Kimya institutunun nəzdindəki aspiranturanın əyani şöbəsinə daxil olmuş, 1965-ci ildə dissertasiya müdafiə edərək, texnika elmlər namizədi elmi dərəcəsi almışdır. Eyni zamanda Azərbaycan Respublikası Məişət Xidməti Nazirliyinin Konstruktor Bürosunda baş konstruktor vəzifəsində çalışmışdır.

1965-ci ildə «Rəsmxət» kafedrasının elmi və elmi-metodiki cəhətdən gücləndirilməsi və genişləndirilməsi məqsədilə aspiranturanı bitirmiş bir sıra gənc mütəxəssislər işə qəbul olunur. Bunlardan Q.P.Qirimovu, B.N.Qutmanı, İ.S.Tsibulskini, A.Sideifzadəni, "Azinmaş"dan G.A.Fuksonu göstərmək olar. Qalib müəllim əvvəlcə assistent, 1968-ci ildən isə dosent vəzifəsində çalışmışdır. Eyni zamanda Ümumittifaq Neft Maşınqayırma Texnologiyası elmi-tədqiqat institutunda böyük elmi işçi vəzifəsini yerinə yetirmişdir. 1969-cu ildə Leninqrad Dövlət Universitetinin xarici dillər fakültəsində fransız dili kurslarına qəbul olunmuş, 1970-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir.

1970-ci ildə o, Əlcəzairə uzunmüddətli ezamiyyətə göndərilmişdir. Orada kontraktla 3 il işləməli olan müəllimləri (İsmayılov C.X., Qirimov O.R.) 5 il saxlayırlar. Qalib müəllimə Əlcəzair Milli Neft institutunun professoru vəzifəsi həvalə olunur.

1975-1980-ci illərdə Azərbaycan Neft və Kimya institutunda pedaqoji fəaliyyətini davam etdirmişdir. 1980-ci ildə Q.Qirimov yenidən Əlcəzairə göndərilmişdir və 1984-cü ilə qədər orada Milli Neft instutunda kafedra müdiri vəzifəsində işləmişdir.

Əlcəzair Energetika və Təhsil Nazirliyi, həmçinin Sovet İttifaqı Təhsil Nazirliyi tərəfindən Əlcəzair respublikası üçün neft sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasında, eyni zamanda Sovet İttifaqı və Əlcəzair xalqları arasında dostluq münasibətlərinin inkişaf etdirilməsində Q.Qirimovun böyük əməyi dəfələrlə qeyd edilmiş, ona fəxri fərmanlar və qiymətli mükafatlar verilmişdir. Əlcəzairdə işlədiyi müddətdə Qalib müəllim fransız dilində 12 adda elmi metodik dərs vəsaiti hazırlamış və nəşr etdirmişdir.

Əlcəzair Milli Neft institutunda konfrans zamanı

1984-cü ildən Q.Qirimov Azərbaycan Dövlət Neft Akademiyasında işini davam etdirir.

1998-2002-ci illərdə paralel olaraq Azərbaycan Respublikası «Qərb» Universitetində dərs demişdir.

1985-1987-ci illərdə Azərbaycan KP yanında Marksizm–Leninizm universitetinin axşam şöbəsini fərqlənmə diplomu ilə bitirmişdir.

Q.Qirimov fəal ictimaiyyətçidir. İşlədiyi Neft Akademiyasının bütün tədbirlərində yaxından iştirak edir.

Q.Qirimov Azərbaycan, rus və fransız dillərində yazılmış müxtəlif jurnal və məcmuələrdə nəşr olunmuş 120-dən artıq elmi məqalə, metodik göstəriş, tədris vəsaiti və dərsliyin müəllifidir.

Qalib müəllim tələbkar və qayğıkeş pedaqoq, tanınmış alim və bacarıqlı metodistdir. Onun elmi əsərləri, dərs vəsaitləri öz aktuallığını itirməmişdir, onlardan mütəxəssislər və tələbələr geniş şəkildə istifadə edirlər. Ötən illəri yada salan Qalib müəllim qeyd edir: - Tələbələr maraqlı həyat keçirirdilər. Çox həvəslə oxuyur və işləyirdilər. Onlar dərsləri ilə bərabər ictimai işlərdə də çox fəal idilər, dərnəklərə, kitabxanalara, tamaşalara maraqları cox böyük idi. Çoxlu bədii ədəbiyyat oxunurdu. Bir-birilərinə və əsasən müəllimlərə diqqət və hörmətlə yanaşırdılar, tələbkar idilər. İndi tələbələr çox fərqlidirlər.

Qalib müəllim səmimi ailə başçısıdır. Üç övladı – iki oğlu, bir qızı var və onlar bizim akademiyanın tələbələri olmuşlar.

Qalib müəllimin böyük oğlu Babək qeyri-səlist məntiq sahəsində tanınmış alimlərdəndir. Kiçik oğlu Şamil Azərbaycan Dövlət Neft Şirkəti "Neftqazelmitədqiqatlayihə" institutunda baş elmi işçidir. Sonbeşiyi, qızı Amal ADNA-nın nəzdində olan "Neftin, qazın geotexnoloji problemləri və kimya" ETİ-da çalışır.

Qalib müəllim indi də pedaqoji və elmi fəaliyyətini müvəffəqiyyətlə davam etdirir, «Maşınqayırma və material emalı» kafedrasında bakalavr və əsasən magistr pillələrində oxuyan tələbələrə dərs deyir, onların elmi işlərinə rəhbərlik edir.

Qalib müəllimə möhkəm cansağlığı və işində uğurlar arzulayırıq.

AĞBİRÇƏK XANIM, MEHRİBAN RƏFİQƏ, PEŞƏKAR MÜƏLLİMƏ



Dadaşova Turan Dadaş qızı

Qədim tarixə və zəngin elmi potensiala malik olan Azərbaycan xalqı zamanının hər bir dövründə fədakar müəllimləri, qabaqcıl pedaqoqları ilə öyünmüşdür. Gələcək mühəndislərin yüksək səviyyədə hazırlanmasında əmək sərf edərək çalışan müqəddəs peşə sahibləri ilə öyünməyə əlbət ki, haqqımız, hüququmuz vardır. Haqqında söz açdığımız Turan xanım Dadaşova 31 illik, yüksək səviyyədə elmi-pedaqoji təcrübəyə malik ziyalı olaraq, çox gənc yaşlarından əmək fəaliyyətinə başlamışdır.

O, 1927-ci ildə Balaxanıda neftçi-fəhlə ailəsində anadan olmuşdur. 1934-cü ildə Bakı neft texnikumuna daxil olmuş və 1948-ci ildə isə texnikumu əla qiymətlərlə bitirmişdir. Sonradan təhsilini davam etdirmək üçün o, sənədlərini M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutuna vermişdir. İnstitutda öz bacarığı, biliyi ilə çalışan Turan xanımın professor-müəllim və tələbələr arasında xüsusi hörməti vardı. Hamı bu gənc qızın yaşına məxsus olmayan ağlı, təmkini və iradəsinə məətəl idilər.

Aspiranturada təhsil aldıqda

Turan xanım 1953-cü ildə institutu bitirərək dağ mühəndisi ixtisasını almışdır. Həmin il onu Azərbaycan SSR Elmlər Akademiyası Neft Ekspedisiyasının yeraltı hidravlika laboratoriyasında kiçik elmi işçi vəzifəsinə qəbul edirlər. Çalışdığı müəssisənin rəhbərliyi ona aspiranturaya daxil olmağı təklif edərkən Turan xanım tərəddüd etmədən razılaşır və 1956-1959-cu ildən Azərbaycan SSR EA-aspiranturasında təhsilini davam etdirir.

1959-cu ildən 1963-cü ilə qədər «Neft-qaz yataqlarının işlənməsi və istismarı» institutunda mühəndis, 1963-cü ildən 1969-cu ilədək Azərbaycan elmi Tədqiqat Neftçıxarma institutunda kiçik, daha sonralar baş elmi işçi vəzifələrində çalışmışdır.

Turan xanım dünya şöhrətli akademik Azad Mirzəcanzadənin ilk aspirantı olmuş və onun rəhbərliyi ilə 1962-ci ildə dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək texnika elmləri namizədi elmi dərəcəsini almışdır.

1968-ci ildə ona SSRİ Ali Attestasiya Komisiyasının qərarı ilə baş elmi işçi elmi adı verilmişdir.

Turan xanım neftə, qaza və onlarla bağlı elmə həvəsi valideynlərindən almışdır. Onun atası Dadaşov Dadaş neftçi olmuşdur və 1926-cı ildən Kommunist Partiyasının üzvü idi. Anası T.M.Dadaşova evdar qadın olsa da həyatı neft buruqları və neft quyularının arasında keçmişdi.

Turan xanım 1970-ci ilin yanvarında Azərbaycan Neft və Kimya institutunun «Rəsmxət» kafedrasına müsabiqə yolu ilə assistent vəzifəsinə qəbul olunmuş və həyatının sonuna qədər bu kafedrada çalışmışdır. 1975-2001-ci illərdə «Mühəndis qrafikası» kafedrasında dosent vəzifəsində çalışmışdır. Hətta təqaüdə çıxandan sonra da o, kafedra ilə əlaqələrini kəsməmişdi.

Dadaşova Turan xanım mühazirə və məşğələ dərslərini özünə məxsus tərzdə, tələbələr üçün tez qavranıla bilən səviyyədə aparırdı. O, həqiqi mənada öz peşəsini çox sevirdi, tələbələrlə dərsdən kənar vaxtlarda saatlarla işləyərək, onları böyük həvəslə öyrədirdi. Müəllimlik onun alnına yazılmışdı, belə müəllimlər mində bir nəfər olur. Mən onun iş prinsipini dəfələrlə müşahidə etmişəm. Onda olmazın səbr vardı. Tələbə fənni, mövzunu anlamayana qədər ondan «əl çəkməzdi».

Turan xanım öz elmi pedaqoji fəaliyyətini daim inkişaf etdirirdi. Müxtəlif səviyyəli konfranslarda iştirak etməkdən, ixtisasartırma kurslarına getməkdən zövq alırdı. Mən ondan soruşurdum: «Turan xanım, o kurslar sizə nə verə bilər? Siz oradakılara dərs deməyə layiqsiniz». Cavabında deyərdi: "Hər şeyi bilmək mümkün deyildir, lakin bilikləri təzələmək vacibdir". Turan xanım 1978-ci ildə Moskva Aviasiya institutunda, 1995 və 2001-ci illərdə Azərbaycan Baş Pedaqoji kadrların ixtisasının artırılması və yenidən hazırlanması institutunda tam ixtisasartırma kursunu bitirmişdir.

Turan xanım 50-dən çox elmi məqalə və elmi metodiki vəsaitin müəllifidir. O həmişə kollektivin hörmət və diqqət mərkəzində olmuşdur. Hamı ona böyük bacı, ana, ağbirçək kimi müraciət edirdi.

Turan xanımın 70 illik yubileyi

1997-ci il 5 yanvar tarixində ADNA-nın rəhbərliyinin iştirakı ilə kafedrada Turan xanımın 70 illik yubileyi təntənə ilə qeyd olundu. ADNA-nın rektoru professor Pərviz müəllim çıxış edərək, Turan xanıma akademiyadakı uzun müddət səmərəli və qüsursuz fəaliyyətinə görə minnətdarlığını və təşəkkürünü bildirdi. Rektorun çıxışının bir hissəsini xüsusi olaraq qeyd etmək istəyirəm: «**Turan xanım! Siz təkcə bu kafedra üçün deyil, bütövlükdə Azərbaycan Dövlət Neft Akademiyası üçün örnəksiniz. Sizin kimi şəxsiyyətlərin akademiyada çalışması bizim hamımıza şərəf və şöhrət gətirir**».

Turan xanımın cavabı isə belə oldu: «**Mənim bu institutdan başqa heç nəyim, bu kollektivdən savayı heç kimim yoxdur. Mən hamıya öz dərin minnətdarlığımı bildirirəm».**

2001-ci dərs ilinin sonunda Turan xanım mənə yaxınlaşaraq dedi: «İbrahim müəllim, mən səndən və bütün kollektivdən həmişə hörmət görmüşəm. Lakin artıq yaşlaşmışam və hiss edirəm ki, getməliyəm. Sən məni dilə tutma, ərizəmə qol çək gedim. Söz verirəm kafedraya gəlib-gedəcəyəm».

Ərizəsini stolumun üstünə qoyub ağır addımlarla otağımdan çıxdı. Mən hiss etdim ki, onun qərarı qətidir. Buna baxmayaraq bir neçə gün onun ərizəsinə qol çəkmədim. Hər gün dərsə gələndə o mənə baxanda gözlərində: «Məni incitmə, qoy gedim» ifadəsini oxuyurdum.

2001/2002-ci tədris ilindən Turan xanım artıq təqaüdə çıxmışdı. Yaxın rəfiqələri olan Məleykə xanım və Nailə ilə tez-tez zəngləşirdilər. Söz verdiyi kimi kafedraya da gəlirdi. Bəzən həyat yoldaşı Tücarla birlikdə gəlirdilər. O, çox səmimi, dərin təfəkkürə malik, alicənab hərbçi idi. Onların «torpağı bir yerdən götürülmüşdü». Qəlbləri kimi adları da uyğun idi – Turan və Tücar. Onlar bir-birini çox sevirdilər. Məleykə xanım bu sevginin bir epizodundan danışmağı Turan xanımdan xahiş edəndə o, tərəddüd edərək susurdu, sonra gülərək söyləyirdi ki, Moskvadan Aviasiya institutunda ixtisasartırma kurslarını bitirib geri döndükdə, evimizin böyük otağının divarında mənim böyüdülmüş şəkilimin asıldığını gördüm. «Ay Tücar, bu nədir belə? Cavan uşaqsan məgər?» – deyə ondan soruşanda mənim üçün çox darıxdığını və bu səbəbdən şəklimi gözləri önündə asdırdığını dedi.

Məleykə xanım zarafata salıb: «Turan müəllimə, deyəsən Tücar sizi çox sevir» – deyəndə o, ürəkdən güldü. Biz hər ikimiz bir-birimizi çox sevirik – dedi.

Çox şərəfli və mənalı həyat yolu keçmiş, peşəkar müəllim, elmli, bilikli ziyalı, sevilib seçilən, nüfuzlu nur-ziya sahibi Turan xanım haqqında çox yazmaq olar, lakin onun təvazökarlığını gözümün qabağına gətirəndə elə bilirəm ki,- «Bəsdir, bilirsən ki, tərifdən xoşum gəlmir» deyəcək.

Allah sənə rəhmət eləsin, Turan xanım!

«TƏRSİMİ HƏNDƏSƏ» FƏNNİNİ MƏNƏ SEVDİRƏN MÜƏLLİMİM

Əyyubova Raisə Osman qızı

1968-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutuna daxil oldum. Sentyar ayının 1-ni səbirsizliklə gözləyirdim. Bu institutun qapısından keçmək, auditoriyalarında oturmaq, müəllimlərin dərslərinə qulaq asmaq və onlara cavab vermək istəyim digər arzularıma gün-gündən üstün gəlirdi. İlk dərsimiz «Tərsimi həndəsə» dərsi idi. İndiki kimi yadımdadır, dərsimiz 508 saylı auditoriyadaydı.

Tələbələrin bir-birini tanımaması, eləcə də institutun bizə tanış olmayan aurası hər birimizdə dərin bir sıxıntı yaratmışdı.

Zəng vurulan kimi auditoriyaya bir xanım müəllimə daxil oldu. Özünü təqdim edərək dedi: «Mənim adım Raisə xanım, soyadım isə Əyyubovadır. İlk gündən sizləri xəbərdar etmək istəyirəm – "Tərsimi həndəsə" fənni üç günə, üç həftəyə öyrənilən dərs deyildir. Siz bu fənni məktəbdə keçməmisiniz, odur ki, diqqətli olunuz. Fənni mənimlə paralel öyrənsəniz, nə isə alınacaq, əks halda heç nə alınmayacaq».

Sentyabr ayının istisi və Raisə müəllimənin bu sözləri daxilimdə bir ağırlıq, diskomfort yaratdı. Tənəffüsdə ona yaxınlaşıb soruşdum: «Müəllimə, mən mühəndis olmaq istəyirəm, bunun üçün ilkin olaraq Sizin fənni yaxşı mənimsəmək lazımdır. Mən isə burada böyük çətinliklər görürəm. Nə etməliyəm»?

Raisə xanım diqqətlə məni dinləyərək, iti baxışları ilə gözümə baxaraq dedi: «Sən ürəkli oğlana oxşayırsan. Mühazirələrimi tam yaz, evdə təkrarla və iki-üç dərsdən sonra mənə yaxınlaşarsan, onda bir qərara gələrik». Üstümdən elə bil böyük bir dağ götürüldü. Raisə xanımın köməkliyi ilə bu fənni elə öyrənmişdim ki,

25 il ötdükdən sonra mən «Mühəndis qrafikası» kafedrasında işləməyə başlayanda o biliklər hələ də yadımda idi.

Raisə xanım 11 fevral 1924-cü ildə Azərbaycanın Qazax şəhərində anadan olmuşdur. Onun atası Əyyubov Osman Mustafa oğlı 1920-ci ildən Kommunist partiyasının üzvü olmuş və məsul vəzifələrdə çalışmışdır. Anası Pəri Kazım qızı isə Bakı şəhərindəki uşaq bağçalarının birində müdir olmuşdur.

Raisə xanımın qardaşı Fuad ixtisasca yol inşaat mühəndisi idi. O, Azərbaycan dəmiryolu idarəsində layihə bürosunda çalışmışdır.

R.O.Əyyubova 1932-ci ildə Bakı şəhəri 1 saylı orta məktəbin birinci sinfinə getmiş və oranı 1942-ci ildə bitirmişdir. 1943-cü ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye institutuna daxil olmuşdur. Həmin illərdə "Neft-mexanika" fakultəsinin tərkibində «Avtomobil və avtomobil təsərrüfatı» ixtisası üzrə mütəxəssis hazırlığı aparılırdı. Raisə xanım öz gələcək həyatını bu ixtisasla bağlamaq istəyərək bu sənəti seçmişdi.

1948-ci ildə İnstitutu bitirərək təyinat üzrə Azərbaycan avtomobil nəqliyyatı nazirliyində fəaliyyətə başlayır. Qısa bir müddətdə onun təşkilatçılıq qabiliyyəti, ictimai fəaliyyəti nəzərə alınaraq Raisə xanımın Bakı şəhər Sovetinə deputatlığa namizədliyi təklif olunur. Üç çağırış Əyyubova R.O. bu şərəfli adı müvəffəqiyyətlə daşıyır.

1952-ci ildə müsabiqə yolu ilə Raisə xanım «Tərsimi həndəsə» kafedrası üzrə vakant assistent vəzifəsinə seçilir və onun bundan sonrakı həyatı bu kafedra ilə bağlı olur. 1959-cu ildə Raisə xanım kafedranın baş müəllimi vəzifəsinə seçilir.

1963-cü ildə Raisə xanım Vladimir Filipoviç Puzırevski ilə ailə həyatı qurmuşdur. Onların bir övladı – Eldar ixtisasca həkimdir.

1984-cü ildə Raisə xanım təqaüdə cıxmaq arzusu ilə institutun rəhbərliyinə müraciət etdikdə, ona kafedra ilə əlaqələrinin saxlanması təklif olunur.

1984-1988-ci illər arasında Raisə xanım kafedrada əvəzçi müəllim qismində fəaliyyətini davam etdirir.

Yuxarıda etdiyim qeydlər şəxsiyyətin formal tərəfini göstərdiyindən, anket xarakteri daşıdığından bu yerdə dayanmaq və Raisə xanımın insani keyfiyyətləri haqda danışmaq istəyirəm.

Zahiri baxışdan super ciddi, ağır xasiyyətli, hər şeyi bəyənməyən insan təəsüratı bağışlayan bu xanım sədaqətli həyat yoldaşı, mehriban ana, gözəl əl qabiliyyəti olması ilə seçilirdi. Onun hazırladığı şirniyyatlar və yeməklər o dərəcədə dadlı və ləzzətli olurdu ki, hər bir yığıncağımızın sonunda, imkan olanda, bir pay evə götürməyə çalışırdıq.

Raisə xanım olduqca səliqəli bir qadın idi. Evində həmişə təmizlik və rahatlıq hökm sürürdü.

Kafedra əməkdaşları Raisə xanımın həyat yoldaşı ilə olan münasibətindən danışarkən onların çox mehriban və dost olduqlarını qeyd edirlər. Düşünürəm ki, bu başqa cürə ola bilməzdi, çünki Vladimir Filipoviç dövrünün ziyalısı, dövlət tərəfindən dəyərləndirilən şəxsiyyət, çətin həyat yaşamış bir insan idi. Uzun müddət kafedraya rəhbərlik etmiş bu insan heç kəsin qəlbinə toxunmamış və incitməmişdir. Raisə xanım öz növbəsində imkanlı ailənin qızı olmuş, ailədə yüksək tərbiyə görmüş, şairlər vətəni Qazaxda doğulmuş, musiqiyə, ədəbiyyata xüsüsi marağı olan bir qadın idi.

Raisə xanım 1988-ci ildən sonra tez-tez kafedraya gələrək hamımızı sevindirərdi. 1994-ci ildə onun 70 illik yubileyində Raisə xanımın hamıya müraciət edərək dediyi sözlər indi də yadımdadır və mənim müəlliməm olmuş Raisə xanım haqda yazımı onun bizlərə verdiyi qiymətlə bitirmək istəyirəm:

«Burada yığılan insanlar mənim yaxınlarım, qohumlarım və 32 il çalışdığım kollektivin üzvləridirlər. Mən bu kollektivə, bu kafedraya borcluyam. Gəncliyim burada, onlarla keçib. Həyat yoldaşımla burada tanış olub, ailə qurmuşum. Həmişə hörmət və ehtiram görmüşəm. Bu xoşbəxtlikdir.»

GÜLƏRÜZLÜ XANİM, SEVİMLİ HƏYAT YOLDAŞI, MEHRİBAN NƏNƏ

Balakişiyeva Mina Mustafa qızı

Hər bir kəs xarakterində, hərəkətlərində və davranışında olan müəyyən xüsusiyyətlərlə yadda qalır. Həmin insan haqda düşündükdə məhz onu digərlərindən fərqləndirən bu xüsusiyyətlər gözlərimiz qarşısında canlanır.

Mina xanim mənim yaddaşımda və xatirələrimdə gülərüz, həyata nikbin və məhəbbət dolu nəzərlərlə baxan Azərbaycan qadını kimi qalmışdır. O, 1936-cı il 26 fevral tarixində Bakı şəhərində Mustafabəyov Mustafa Sadıx oğlu və Amxaniçka Bronislava Lvovnanın ailəsində dünyaya göz açmışdır. Valideynlərinin hər ikisi öz dövrlərinin aktiv gənclərindən olub, Bakı şəhərinin rayon komsomol təşkilatlarında işləyirdilər.

Mina xanımın atası Mustafa Sadıx oğlu çox erkən yaşlarından yetim qalmısdır və ona Nəriman Nərimanovun silahdaşı olan atasının əmisi oğlu Əli-Heydər Mustafabəyov himayədarlıq etmişdir. Əli-Heydər Mustafabəyov XX əsrin əfsanəvi inqilabçılarından biri idi. Onun inqilabçılar arasında gizlin ləqəbi "Şirvani" olmuşdur. Mustafa müəllim uzun müddət onun yanında Moskvada yaşamışdır. Bakıya qayıtdıqdan sonra onu "Qırmızı kadetlər" məktəbinə qəbul etdilər. Daha sonra o Azərbaycan Dövlət Universitetinin (ADU) "Tarix" fakültəsinə qəbul olmuşdur. O, bütün həyatını xalqına, onun maariflənməsinə, gənclərin düzgün əqidədə böyüməsinə həsr etmişdir.

Mustafa müəllimin 2 övladı olmuşdur: oğlu Lətif və qızı Mina. Bası daim islə qarışıq olmasına baxmayaraq övladlarının tərbiyəsi və tədrisini diqqətdə saxlayırdı. Oğlu Lətif həkimdir. Mina xanım bu ailənin çox sevilən usaqlarından olmuşdur.

Mina xanım gənclik illərində inşaatçı olmağa hazırlaşırdı, lakin respublikada güclü kimya-istehsalat proseslərinin inkişafı onu bu fikirdən döndərərək Azərbaycan Sənaye institutuna gətirir.

O, 1953-cü ildə 134 saylı rus qızlar orta məktəbini bitirərək, tərəddüd etmədən sənədlərini AzSİ-nin "Kimya texnologiyası" fakültəsinin "Neft və qazın texnologiyası" ixtisasına verir və müvəffəqiyyətlə ora daxil olur. 1958-ci ildə institutu bitirərək təyinatı üzrə "Neftzavod" birliyində əmək fəaliyyətinə başlayır. Bir müddətdən sonra o, Azneft birliyinin layihə institutuna mühəndis vəzifəsinə işə qəbul edilir.

Nadir müəllim, Mina xanım və ilk övladları Gülnarə

Mina xanimin 50 illik yubileyində

1959-cu ildə Mina xanım Balakişiyev Nadir Ağa Dayı oğlu ilə ailə həyatı qurmuş, onunla 45 il xoşbəxt ömür sürmüşdir. Bir gün də olsa belə Nadir müəllimin cismani yoxluğu bu ailədə hiss olunmamışdır. Nadir müəllim çox yaxşı həyat yoldaşı, ata, baba və ulu baba olmaqla hamının xatirəsində əziz və doğma İnsan kimi yaşayır.

Balakişiyevlər ailəsi öz başçısını itirəndə Nadir müəllimin 19 yaşı vardı. Qardaşı Qabili və bacısı Böyükxanımı böyütmək, onların təhsil problemlərini həll etmək, həyat yollarını istiqamətləndirmək bu gənc oğlanın çiyinlərinə düşmüşdü.

Böyük Yaradan Nadir müəllimə şərəfli bir yol açmışdı. İnstitutu bitirdikdən az sonra Nadir Balakişiyev Azərbaycan Dövlət Nəzarət komitəsinin energetika şöbəsində müdir müavini vəzifəsində çalışırdı. 1961-cı ildə çox cavan olmasına baxmayaraq, Sumqayıt şəhər KP-nın I katibi vəzifəsinə təyin edilmişdir. Şəhər aktivistləri və ağsaqqallarla görüşdə Azərbaycan KP MK-nın I katibi Vəli Axundov onu təqdim edərək belə demişdir: "Cavan şəhərə - cavan katib! İsləmək, yaratmaq üçün hər bir şərait vardır. Sizlərə uğurlar arzulayıram və xoş müjdələr gözləyirəm!"

Həyat yoldaşının belə bir məsul vəzifəyə təyin olunması onun xanımından və ailə üzvlərindən daha çox məsuliyyətli olmağı tələb edirdi. Eyni zamanda ailədə artıq iki uşaq var idi. Bu səbəbdən Mina xanım ürək ağrısı ilə 1962-ci ildə daxil olduğu aspiranturadan imtina etməli olur.

Balakişiyeva Mina xanım 1974-ci ildən təqaüdə çıxana qədər, indiki "Mühəndis qrafikası" kafedrasında çalışmışdır. Mənimlə söhbətində isə çıxdığı ilk günü böyük sevinclə yaşadığını xatırlayaraq demişdi: "Tələbə olarkən "Tərsimi həndəsə" fənnini dahi Puzırevski Vladimir Filipoviç aparırdı və imtahanı ona vermisəm. Bu insan mənim yaddaşımda xoş xatirələrlə qalmışdı. Həmişə belə bir şəxsiyyətlə birlikdə işləməyi arzulayırdım və bu mənə nəsib oldu. Ümumiyyətlə bu kafedra, onun kollektivi zaman keçsə belə mənə doğmadır."

Mina xanım həmişə tələbələrin sevimlisi olmuşdur. Xüsusən qizlar ona böyük bacı, ana məhəbbəti bəsləyirdilər. Çəkinmədən onunla məsləhətləşir və fikirləri ilə bölüşürdülər. Kafedranın əməkdaşları da onunla həmsöhbət olmaqdan

zövq alırdılar. Mina xanım səsinin ahəngi, müsbət enerjisi və təkrarolunmaz təbəssümü ilə hamıya sakitçilik bəxş edə bilirdi.

1980-cı il Mina xanım tələbələri ilə

Xoşbəxt ailənin xoş anlarından birinin xatirəsi

Telefon söhbətlərimizin birində Mina xanımdan sorusdum: 20 il ali məktəbdə dərs demisiniz, həyatınızın böyük bir hissəsini tələbələrə həsr etmisiniz, buna heyfslənmirsiniz?

Mina xanım cavabında dedi: "Bir az keçmişə qayıtmaq istəyirəm. 1998-ci ildə səhhətimdə yaranan problemlə əlaqədar İsraildə müalicə olurdum. Bir nəfər mənə yaxınlaşıb – Mina xanım, məni tanımadınız? Mən sizin dərs dediyiniz 474 saylı qrupun tələbəsi olmuşam. Mən və qrupumuzun digərləri Sizi həmişə məhəbbətlə xatırlayırıq – deməsi məni qürurlandırdı. İnsana bundan da gözəl dəyər vermək olarmı? Çox vaxt şəhərdə nəvələrimlə gəzərkən, müxtəlif mərasimlərdə olarkən və ya ictimai nəqliyyatda gedərkən mənə ilk baxışdan tanış olmayan insanlar salam verərək soruşurlar: «Mina xanım, deyəsən məni tanımadınız? Sizin tələbəniz olmusam. Siz həmişə yadımızdasınız. Minnətdarıq!» Mən cox xoşbəxtəm ki, müəllim olmuşam və bu institutda işləmişəm".

Nadir müəllim və Mina xanımın üç gözəl qızları və altı nəvəsi var.

Böyük qızı - Gülnarə Mirzəyeva Üzeyir Hacıbəyov adına Musiqi Akademiyasının "Xüsusi fortepiano" kafedrasının baş müəllimidir. O, həmçinin Bül-Bül adına musiqi məktəbində çalışır. Bu kafedranın rəhbəri, Azərbaycan Respublikasının Xalq artisti, professor Fərhad Bədəlbəylidir.

Ortancıl qız - Elmira Fərəcullayeva Azərbaycan Xarici Dillər institutunu bitirib. O, filologiya elmlər namizədidir. Hal-hazırda BDU-də fransız və alman dili kafedrasının müdiri vəzifəsində işləyir.

Kiçik qızı - Nailə Balakişiyeva çox istedadlı dəri-zöhrəvi həkimidir. O, atasının soyadını saxlamışdır, belə ki, professor-anatom Kamil Balakişiyevdən başlayaraq ailə bütöv bir həkim nəslindən ibarətdir. Nailə xanim böyük şer həvəskarıdır. Onun Qarabağ, vətən sevgisi, insani münasibətlərlə bağlı yazılarına internet və müxtəlif ədəbiyyat səhifələrində rast gəlmək olar. Mənim ürəyimcə olan bir serinin bir bəndini diqqətinizə çatdırmaq istəyirım:

Бакинка - я! И нет священней дара!
В какую б даль не занесла меня судьба,
Я Каспия, Торговой и Бульвара
От вздоха первого и до смерти раба..

Doğma şəhərə, Bakıya olan məhəbbəti bundan artıq necə izah etmək olar?

Mina xanımın altı nəvəsi var, onlardan Gülnarənin qızı Firuzə Mirzəyeva hüquq elmləri namizədidir. Onun bacısı Fərizə Mirzəyeva həmçinin BDU-nin "Hüquq" fakültəsini bitirmişdir. O, hüquq üzrə magistrdir və xarici şirkətdə işləyir. Onların hər ikisi ulu babaları - Qaragin qəzasının prokuroru, babaları-Nəsimi rayon prokuroru Mirzəyev Hüseynin, ataları – Bakı şəhəri Sabunçu rayon prokuroru Fuad Mirzəyevin davamçılarıdır.

Nəvəsi – Elmiranın qızı – Praqa şəhər Karlov Universitetinin magistraturasını bitirmişdir.

Nailənin böyük qızı Cəmilə - BDU-nin "Dünya İqtisadiyyatı" fakültəsinin, kiçik qızı - Leyla isə Azərbaycan Diplomatiya Akademiyasının tələbələridirlər.

Elmira xanım və Əli müəllim öz övladlarına, bu böyük ailənin yeganə oğlan nəvəsinə babası Nadirin adını qoyublar. Nadir Fərəcullayev 23 №-li məktəbin 10-cu sinif şagirdidir və hal-hazırda ABŞ-da "Flex" proqramı üzrə təhsil alır.

Mina xanımın iki nəticəsi vardır: Fuad - ana babasının və Adil - ata babasının adlarını daşıyırlar. Hər ikisi məktəblidirlər.

Bu böyük ailəyə xoş günlər arzulayırıq.

XATİRƏLƏRDƏ DAİM YAŞAYAN MÜƏLLİM

Qurbanov Oqtay Əli Əsgər oğlu

M.Əzizbəyov adına Neft və Kimya institutunda oxuduğumuz müddətdə Oqtay müəllim bizim qrupda dərs aparmasa da bütün tələbələr onun «Tərsimi həndəsə» kafedrasının aparıcı müəllimlərindən biri olduğunu deyirdilər. O, hər bir kəsə diqqət və vaxt ayırmağa həmişəhazır olan müəllim idi. Bu gün də onun keçmiş tələbələri öz xatirələrində Oqtay müəllimi xeyirxah insan kimi xatırlayırlar.

Qurbanov Oqtay Əli Əsgər oğlu 4 iyun 1936-cı ildə Bakı şəhərində qulluqçu ailəsində anadan olmuşdur.

1946-cı ildə Oqtay və qardaşı Mövsüm kiçik yaşlarda olanda anaları Mehri Hacı Məmməd qızı onları tək böyütməyə məcbur olur. Mehri xanım (1916-cı il təvəllüdlü) onların boya-başa çatdırılmasındakı çətinlikləri dəf etməyə çalışsa da, bu yükün ağırlığını həmişə hiss edirdi.

1951-ci ildə Mehri xanım Qasım Məmməd oglu Bağırzadə ilə yeni həyat qurur və övladları bu qayğıkeş insanın himayəsində böyüməyə başlayırlar.

Qasım müəllim oğlanların tərbiyəsinə xüsusi fikir verirdi. Oqtay da bunu layiqincə qiymətləndirirdi. Bütün məsələlərin həllində Qasım müəllimlə məsləhətləşməyi vacib bilirdi. Oqtayda texniki fənlərə olan həvəs Qasım müəllim tərəfindən yaranmışdı.

Oqtay müəllimin qardaşı Qurbanov Mövsüm Əli Əsgər oğlu 1942-ci ildə anadan olmuşdur. Digər qardaşı Bağırzadə Elxan Qasım oğlu isə 1953-cü ildə dünyaya göz açmışdır. Onların hər ikisi Azərbaycan Neft və Kimya institutunu bitirmişdirlər.

Oqtay müəllim 1950-ci ildə Bakı şəhərindəki 32 saylı məktəbin 7-ci sinfini bitirdikdən sonra Neft texnikumuna daxil olmuş və 1954-cü ildə bu texnikumu fərq-

lənmə diplomu ilə bitirərək neft hasılatı üzrə texnik ixtisasına yiyələnmişdir. Həmin ildə də texnikumu əla qiymətlərlə bitirdiyi üçün onu M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutunun "Qazneftmədən" fakültəsinə imtahansız qəbul etmişdilər.

Bakı neft texnikumunun tələbəsi O.Qurbanov dostları ilə birlikdə

Oqtay müəllim 1959-cu ildə institutu bitirərək «Dag mühəndisi» adına layiq görülür və Orjonikidze adına neft qaz çıxarma idarəsinə təyinatla göndərilir. O, 1959-cu ilin iyul ayından 1960-cı ilin aprelinə kimi mədəndə operator və yerüstü avadanlıqlar üzrə usta vəzifələrində işləmişdir. O,1960-cı ildə Dəniz Neft layihə institunun «Uzən özüllər» şöbəsinə mühəndis vəzifəsinə keçir.

Mədən sınaqları zamanı

Elm- tədqiqat laboratoriyasında

Elmə və tədqiqat işlərinə xüsusi həvəsi olan Oqtay müəllim 1962-ci ilin dekabr ayından Azərbaycan Neft və Kimya institutunun aspiranturasının əyani şöbəsinə qəbul olur. Aspiranturada oxuduğu dövrdə «Qısaldılmış arxa divarlı mərkəzdənqaçma nasoslarının tədqiqi» mövzusunda dissertasiya işi üzərində çalışır, lakin səhhətindəki problemlərlə bağlı bu işi tamamlaya bilmir.

1966-cı ildə ona Azərbaycan Neft və Kimya institutunun «Tərsimi həndəsə» kafedrasında assistent vəzifəsində işləmək təklif olunur və həmin ildən başlayaraq onun həyatı bu təhsil ocağı, bu kafedra ilə bağlı olmuşdur. Oqtay müəllim öz peşəsinin vurğunu idi.

Tələbələri onu çox sevirdilər. Bu onun xarakterindən gəlmə bir iş idi, beləki onun üzündən təbəssüm heç vaxt əskik olmurdu. Ona istənilən vaxt yaxınlaşıb məsləhət almaq və kömək istəmək olardı. Həmişə onunla zarafatlaşaraq deyərdim:
- Oqtay müəllim, görəsən bizi də nə vaxtsa belə sevəcəklərmi?

Oqtay müəllim tələbələri ilə

Oqtay müəllim 1966-cı ildə ailə həyatı qurmuşdur. Onun xanımı - Bəylərova Almaz Rüstəm qızı 1939-cu ildə anadan olmuşdur. O bizim institutun ən hörmətli və savadlı riyaziyyatçılarından biri – Qoxmaz müəllimin bacısıdır.

Oqtay və Almaz xanımın toyu

Bu toy Neft və Kimya institutunun həyatında olduqca şən və yadda qalan toylardan biri olmuşdur. Burada kafedranın və institutun gənc alimləri, böyük müəllim kollektivi iştirak edirdi.

B.Qutman, A.Abdullayev ...

Q.Qirimov, A.Cavadov və İ.Tsıbulski

Almaz xanım həmişə Oqtay müəllimin «Muzası - İham Pərisi» olmuşdur. Onlar bir-birlərinə olan məhəbbətlərini açıq etiraf etməkdən çəkinmirdilər.

Almaz xanım bizim akademiyanın məzunu olmuşdur. O, uzun müddət Dəniz neft layihə institutunda kimyaçı-mühəndis vəzifəsində işləmişdir. Bu iki insan arasında yaşanan məhəbbət haqda saatlarla danışmaq olar. Almaz xanım bütün həyatı boyu Oqtay müəllimə ən əziz adamına olan duyğular bəsləmişdir. Çətin

günlərdə, problemlərin aşıb-daşdığı bir vaxtda, eləcə də xoş günlərdə həmişə Oqtay müəllimin yanında olmuş və ona dəstək vermişdir.

Yadımdadır, gün ərzində Oqtay müəllim bir neçə dəfə evə zəng edər və hal-əhval tutardı. Almaz xanım da həyat yoldaşının qeydinə qalmaqdan zövq alardı.

Oqtay saatlarla televizorun qarşısında oturub idman proqramlarına baxmağı və şahmat oynamağı xoşlayardı.

1967-ci ildə onların yeganə övladları Nərminə dünyaya göz açmışdır. Oqtay müəllim tez-tez onu instituta gətirərdi. Nərminə bizim kafedranın sevimli qızı idi.

Tərlan və Nərminənin toyu

Nərminə xanım Azərbaycan Neft və Kimya institutunun "İqtisadiyyat" fakültəsini bitirmişdir. O, həmişə kafedramızın sevimli qızı olmuşdur. Yüksək mədəniyyət və əxlaq sahibi olan bu xanım ata-anaya böyük hörmət bəsləyən, onları dünyalar qədər sevən bir övladdır. Onun həyat yoldaşı Tərlan olduqca səmimi bir insandır.

Oqtay müəllimlə onun arasındakı münasibət kürəkən-qaynata səviyyəsindən də yuxarıda dururdı.

Tərlan ixtisasca hüquqşünasdır. Onların iki qızları vardır - Məryəm və Nurlanə.

Oqtay müəllim bu qızlara dünyalar qədər məhəbbət bəsləyirdi.

Oqtay müəllim 1972-ci ilin fevral ayında «Tərsimi həndəsə» kafedrasının baş müəllimi vəzifəsinə seçilmiş və son günə qədər bu adı şərəflə daşımışdır.

1977-ci ildə Oqtay müəllim Kiyev Universitetinin nəzdində olan 10 aylıq fransız dili kursunu bitirdikdən sonra Əlcəzair Xalq Demokratik Respublikasına

ezam olunmuşdu. O 1977-1980-ci illərdə bu ölkənin Neft, qaz və kimya institutunda «Tərsimi həndəsə və rəsmxət» kafedrasında müəllim vəzifəsində işləmişdir. Oqtay müəllim bu müddətdə pedaqoji təcrübə və biliklərini artıraraq fransız dilində bir sıra dərs vəsaitləri çap etdirmişdir.

Kafedradakı tədbirlərin birində

Oqtay müəllim təbiətcə sadə, gözəl həmsöhbət, aktiv həyat tərzinə malik bir insan idi. Gənclik illərində musiqi və rəqsə xüsusi maraq göstərirdi. Əlcəzairdə işlədiyi müddətdə institutun rəqs ansamblının aktiv üzvü olmuş və ölkənin bir çox şəhərlərində keçirilən konsertlərdə müvəffəqiyyətlə çıxışlar etmişdir. Onun aktivliyi institutun rəhbərliyi tərəfindən fəxri fərmanlarla qiymətləndirilmişdir.

Akademiyada işlədiyi müddətdə 30-a yaxın dərslik, dərs vəsaiti, metodik göstərişlər və elmi-metodik məqalələr çap etdirmiş, bir sıra konfranslarda çıxış etmişdir. Akademiyanın müəllim kollektivi ilə həmişə yaxşı münasibətdə olmuşdur. Kafedra ilə institutun tədbirlərində və ictimai həyatında aktiv iştirak etmişdir. İnstitutun axşam təhsil şöbəsinin ümumtexniki fakültəsinin dekan müavini vəzifəsində çalışmış və kafedranın həmkarlar ittifaqının katibi olmuşdur.

Oqtay müəllimin kafedranın bir çox müəllimi ilə dostluq münasibətləri vardı. Dosent İsmayılov Cahangir ilə bu münasibətlər daha yaxın olmuşdur. Onlar ailəvi dost idilər və yay tətilləri zamanı bir-birinin bağına getmək, avtomobillə ailəvi şəkildə səyahətə çıxmağı çox xoşlayırdılar. Bu səyahətlərdə yerlərin tarixi

abidələri ilə tanış olmaq, adət və ənənələrini öyrənmək Oqtay müəllimə xüsusi zövq verirdi.

Oqtay müəllim, Almaz xanım və Böyükağa Quliyev

C.İsmayılov, Ə.Babayev və O.Qurbanov

Son illərdə Oqtay müəllimin səhhətində problemlər yarandığından o işə gələ bilmirdi. Mən ona səhhəti bərpa olana qədər evdə qalmağa icazə vermişdim və onun dərslərini müəllimlər arasında bölmüşdüm.



Oqtay müəllim nəvələri Məryəm və Nurlanə ilə birlikdə

2002-ci ilin sentyabrında öz xahişi ilə tutduğu vəzifədən azad edilməsi haqda ərizə ilə müraciət etdi və həmin ilin oktyabr ayında dünyasını dəyişdi.

Almaz xanımla görüşümüz zamanı o mənə çoxlu sayda albomları göstərərək dedi: - İstədiyiniz şəkli seçə bilərsiniz. Mən oradan seçdiyim şəkillərin içərisində Oqtay müəllimin son dəfə nəvələri ilə birlikdə bəzədikləri şam ağacı yanında çəkdirdikləri şəkli bu gözəl insan haqda yazdığım yazıda verməyi qərara aldım. Burada Oqtay müəllim yalnız ona məxsus olan və təkrar olunmaz təbəssümü ilə əks olunmuşdur. **Allah rəhmət eləsin.**

TƏLƏBƏM, HƏMKARIM, DOSTUM

Məlikov Rauf Xəlil oğlu

1977-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutunda əmək fəaliyyətimə başlayarkən, ilk dərs apardığım qruplar içərisində tanıyıb, xoş münasibətlər qurduğum tələbələrdən biri Rauf Xəlil oğlu Məlikov olmuşdur.

1979-cu ildə Macarıstana istehsalat təcrübəsinə göndərilən tələbə dəstəsinə rəhbərlik mənə həvalə edilmişdi. Bu dəstənin tərkibində 458 - cı qrupun tələbəsi Rauf da var idi. O, artıq 3-cü kursun imtahanlarını yüksək qiymətlərlə verərək, 4-cü kursun tələbəsi olmuşdu. Ümumiyyətlə, dəstənin tərkibində 10 tələbə var idi, onlardan iki nəfəri qız və 8 nəfəri oğlan idi. Onların hər biri mənə əziz olsalar da məndə Raufa qarşı xüsusi münasibət yaranmışdı. Bu, onun sakit təbiətindən, qarşılıqlı münasibətləri yüksək səviyyədə qoruyub saxlama qabliyyətindən, tərbiyəsindən və savadından irəli gəlirdi.

Bu səfər zamanı yaranan münasibətlərimiz sonradan dostluğa çevrilmişdi. Məlikov Rauf Xəlil oğlu 1959-cu il aprelin 12-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur.

Mənim bu ailə ilə yaxınlığım, bizim Macarstan səfərindən sonra olmuşdur. Raufun atası Macarstandan Bakıya gələn tələbə dəstəsinin bütün üzvlərini evlərinə dəvət etmişdi. Gözəl bir gün yaşanmışdı onda.

Məlikov Xəlil ixtisasça mühəndis mexanik idi. Uzun müddət Bakıda fəaliyyət göstərən bir sıra zavodlarda yüksək vəzifələrdə işləmiş, sonradan Bakı Energetika texnikumunda «Mexanika» kafedrasına rəhbərlik etmişdir. Onun həyat yoldaşı Asiya xanım həkim – nevropatoloqdur. O görkəmli Azərbaycan yazıçısı və folklorşunası Əbülqasım Hüseynzadənin ailəsində anadan olmuşdur. Xəlil müəllim

və Asiya xanımın Raufdan başqa bir oğlu - Hacı və bir qızı - Gülnarə vardır. Övladlarının hamısı mühəndis sənətini seçmişlər.

Hacı ailənin böyük oğludur. Almaniyanın Drezden Texniki Universitetini bitirmişdir, texniki elmlər namizədidir və hal-hazırda bizim akademiyanın dosentidir.

Gülnarə də Azərbaycan Neft və Kimya institutunu bitirmişdir. O institutda oxuduğu müddətdə ali təqaüd - Lenin stipendiyası alırdı. Fakültəmizin ən savadlı və bacarıqlı tələbəsi idi. Sonradan o, qrup yoldaşı Kamil ilə ailə qurdular.

Rauf müəllim 1976-cı ildə Bakı şəhər Nərimanov rayonu 82 saylı orta məktəbi bitirmişdir. Məktəb illərində bir neçə rayon, şəhər və respublika olimpiadalarında iştirak edib, müxtəlif mükafatlara layiq görülüb.

O, 1976-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutunun «Neft-mexanika» fakültəsinə daxil olmuş və «Maşınqayırma texnologiyası, metal kəsən alətlər və dəzgahlar» ixtisasını öyrənməyə başlamışdır.

Rauf müəllim institutu 1981-ci ildə fərqlənmə diplomu ilə bitirmişdir. İnstitut müəllimlərini xatırlayaraq qeyd edir: «Mən ömrüm boyu mənə dərs deyən professorlar - Ramiz Qurbanov, Fuad Vəliyev, dosentlər - Rza Talıbzadə, Arif Rəhimov və dekanımız Asif Cərrahov və başqalarına borcluyam

İnstitutda oxuyarkən Rauf müəllim tələbə elmi cəmiyyətinin aktiv üzvlərindən biri idi. Onun hazırladığı məruzələr tələbə-elmi konfranslarında diplomlarla mükafatlandırılırdı. Tədris müddətində Macarıstan, Moldova və Estoniyanın maşınqayırma müəssisələrində təcrübə keçmişdir.

Ali məktəbi bitirdikdən sonra ona aspiranturada qalmaq təklif olunsa da əmək fəaliyyətini istehsalatdan başlamağa qərar verdi. Onu gənc mütəxəssis kimi «Azərelektroterm» İstehsalat Birliyinə işləməyə göndərdilər və o 1988-ci ilədək bu təşkilatda mühəndis vəzifəsində işləmişdir. Bu zavodda işləmək böyük təcrübəyə yiyələnmək demək idi. İşlərin profilinə uyğun olaraq o, Bauman adına Ali texniki məktəbdə, bir sıra elektrotexnika avadanlığı istehsalı ilə məşğul olan müəssisə və elmi-tədqiqat institutlarında, Qorki şəhərindəki avtomobil zavoduna və digər yerlərə ezam olunaraq, texniki məsələlərin həllində iştirak etmişdir.

Lakin elmə bağlılıq 1988-ci ildə yenidən onu Azərbaycan Neft və Kimya Neft institutuna qaytarır. O, Neft-qaz mədən fakultəsi üzrə aspiranturaya qəbul

üçün elan olunmuş müsabiqədə iştirak edir və oraya daxil olur. Onun rəhbəri dünya şöhrətli akademik Azad Mirzəcanzadə olub.

Rauf müəllim 1996-ci ildən «Mühəndis qrafikası» kafedrasında dosent vəzifəsində çalışır. O, çoxlu sayda elm, elmi-metodiki işlərin müəllifidir.

Neft-mexanika fakültəsinin tələbələri ilə

Rauf müəllim 1988-ci ildə ailə həyatı qurmuşdur. Onun həyat yoldaşı Hicran xanım ixtisasca həkimdir. Bu qadın gözəl bir peşənin sahibi olmaqla

yanaşı, ona Allahdan xoş xasiyyət, geniş ürək, xeyirxahlıq, səmimiyyət kimi insani keyfiyyətlər verilmişdir. Məndən Rauf və onun ailəsi haqda soruşanda deyirəm: Böyük yaradan hər kəsə layiqli qiymət verir və əgər Raufa nəyi isə verməyibsə, onların əvəzinə Hicranı onun qismətinə nəcib edibdir. Hicran evin xanımı, həyat yoldaşının dostu, övlvdlarının dayağı, qohumların kömək əlidir.

Bu ailədə bir oğlan və bir qız uşağı böyüyür. Fidan – ailənin ilk övladı - 2011-ci ildə Qərb universiteti bitrib, hal hazırda tanınmış bir firmada çalışır. Hamımızın sevimlisi Xəlil isə (ona babasının adı verilmişdir) Türkiyənin Antalya şəhərindəki akademiyada təhsil alır.

Mən tələbəmə, həmkarıma və dostuma həyatda uğurlar arzulayıram.

SAKİT TƏBİƏTLİ, AÇIQLIĞI SEVƏN VƏ TƏVAZÖKAR İNSAN

Kərimov Zöhrab Hacıbala oğlu

Zöhrab müəllim ilə kafedrada işlədiyim vaxt tanış olmuşdum. Onun haqda məlumatım çox olmasa da, bilirdim ki, o ADNA-nın tanınmış professorlarından biri Zahid Kərimovun qardaşıdır. Kafedranın müəllimlər otağında mən onunla yanaşı stolda oturdum. Arabir söhbətimiz vaxtı onun özü haqqında qısaca məlumatlarından aydın olurdu ki, Zöhrab müəllim 15 iyul 1939-cu il tarixdə Lənkəran şəhərində anadan olmuşdur. 1946-cı ildə Lənkərandakı 3 saylı orta məktəbə daxil olub və 1956-cı ildə həmin məktəbin onuncu sinfini bitirmişdir. 1956-cı ildə Azərbaycan Neft və Kimya institutunun "Energetika" fakültəsinə daxil olmuşdur. Bu ixtisas onun öz seçimi olduğundan bütün fənlərə böyük maraq göstərirmiş. 1961-ci ildə institutu bitirərək «elektrik mühəndisi» diplomunu alanda sevincinin həddi-hüdudu olmadığını xatırlayan Zöhrab müəllim illər keçdikdən sonra bu ali məktəbdə dərs deyəcəyinə heç cür inanmadığından danışardı.

O, əmək fəaliyyətinə 30.08.1961-ci ildə Bakı geofiziki cihazlar və avadanlıqlar zavodunun texniki şöbəsində mühəndis vəzifəsində başlamışdır. Bu müəssisədə Zöhrab müəllim 26.11.1963-cü ilə qədər çalışdıqdan sonra «Neft və Kimya» institutunun «Texniki kibernetika» laboratoriyasına mühəndis vəzifəsinə köçürülür. Özünün daxili potensialı və laboratoriyada hökm sürən ab-hava onu elmi-tədqiqat işləri ilə ciddi məşğul olmağa sövq edir. 1972-ci ildə Zöhrab müəllim namizədlik dissertasiyasını müdafiə edərək, texnika elmlər namizədi elmi dərəcəsi almışdır.

1976-cı ildə Azərbaycan Neft və Kimya institutunun «Mühəndis qrafikası» kafedrası üzrə assistent vəzifəsini tutmaq üçün müsabiqə elan olunduqda Zöhrab müəllim zavoddakı uğurlarına və yüksək statusuna baxmayaraq orada iştirak edir və doğma ali məktəbə işə qəbul olunur.

Aktiv tədris prosesinə qoşulan Zöhrab müəllim tezliklə dosent elmi adına layiq görulur. O, kafedrada işlədiyi müddətdə ardıcıl olaraq bir sıra metodiki işlər hazırlayır, onların nəşrini həyata keçirərək tədris prosesində geniş tətbiqinə səbəb olur.

Zöhrab müəllim sadəliyi, açıqlığı və təvazökarlığı ilə öz müəllim yoldaşları, eləcə də institutun kollektivi arasında hörmət qazanmışdır.

O, maraqlı söhbətlər edərdi. Yığıncaqlar keçirmək, istirahət günlərində yaxın yoldaşlıq etdiyi müəllimlərlə yığışmağı, birlikdə şənlənməyi çox sevərdi.

Uzaq məsafələrə səyahət etməyi xoşlayardı və hara getsə tək övladı olan Aydını özü ilə aparardı. Aydın 1974-cü ildə anadan olmuşdur. O, Zöhrab müəllimin həyatının mənası idi. Aydının uğurlarından danışmağı çox xoşlayırdı. Onsuz heç bir yerə getməzdi. Öz müəllim yoldaşları ilə Qara dəniz sahillərinə avtomobillə gəzintiyə çıxdıqda Aydını özü ilə götürmüşdü.

Zöhrab müəllim tələbələr arasında da böyük hörmət qazanmışdı. Öz tələbələrinə diqqətlə yanaşmağı bacaran müəllim idi.

Allah ona rəhmət eləsin, ruhu şad olsun.

PROFESSİONAL MÜHƏNDİS, TƏLƏBKAR MÜƏLLİM

Quliyev Böyükağa Rəhman oğlu

Hər dəfə mühazirə və məşğələ dərslərimdə tələbə-müəllim münasibətlərindən danışarkən Azərbaycan Neft və Kimya institutunda oxuduğum dövrdə özümlə Böyükağa müəllim arasında yaşanan günlərdən, ondan hansı çətinliklə məqbul almağımdan söhbət açıram.

Mən ikinci kursda oxuyanda məqbul işlərini mərkəzləşmiş qaydada kafedra tərəfindən müəyyən edilmiş komissiya qəbul edirdi.

Axşam saat 18-də başlanan məqbul işlərinin qəbulu saat 22-də başa çatırdı. Kafedra üzrə bu işə Böyükağa müəllim rəhbərlik edirdi. O, qrupumuzda dərs aparmadığı üçün bizləri yaxşı tanımırdı. Buna baxmayaraq hamımız ona cavab verməliydik. Onun xasiyyətcə ağır, prinsipial bir insan olduğu, proteksionizmdən uzaqlığı hamıya bəlli idi. Bunlarla bərabər Böyükağa müəllimi institutda obyektiv bir müəllim kimi tanıyırdılar. Mənim hər dəfə ona məqbul vermək istəyim nəticəsiz qalırdı. Elə düşünürdüm ki, ondan heç vaxt qiymət ala bilməyəcəyəm. Bütün günüm institutun 5-ci mərtəbəsində keçirdi. «Rəsmxət» kafedrası orada yerləşirdi. Dərsdən sonra tələbələrdən bəziləri boş otaqlarda toplaşaraq ev tapşırıqlarını yerinə yetirməkdə bir-birilərinə köməklik edir, bəziləri isə müəllimlərin məsləhətlərinə qulaq asırdı. Kafedranın detal parkında çoxlu sayda, müxtəlif quruluşlu və mürəkkəbliyi ilə bir-birindən seçilən detallar vardı. Mən onları bir-bir götürüb, eskizlərini tərtib edirdim. Lakin məqbul almağım müşgül bir işə çevrilmişdi. Hər dəfə komissiyaya gələndə Böyükağa müəllim mənə elə detalların eskizini tərtib etməyi tapşırırdı ki, verilmiş vaxt ərzində bunu etmək mümkün olmurdu. Nəhayət, 17-ci dəfə məqbul vermək cəhdim baş tutdu. Dəqiqliklə yadımdadır o gün. Böyükağa müəllim bir neçə dəfə mənə yaxınlaşaraq tərtib etdiyim eskizə baxdı. Bu dəfəki baxışlarda xeyirxahlıq və səmimiyyət görürdüm. Daxilimdəki gərginlik yox olub itmişdi. Həqiqətən də insanın

xoş rəftara, xoş sözə, heç olmazsa xoş baxışa ehtiyacı var. Mən bu gün məqbul alacağıma tam əmin idim.

Çəkdiyim eskizi diqqətlə yoxladıqdan sonra Böyükağa müəllim məqbul kitabçama qeydlər edərək mənə qaytardı. Qiymət almağıma sevinirdim, lakin bu sevincin içərisində nə isə o zamanlar dərk edə bilmədiyim bir hissi də var idi. Onun nə olduğunu zaman keçəndən sonra, çox sonra başa düşdüm. Bu, mənim Böyükağa müəllimə olan minnətdarlıq hissim idi. Mənim məqbullara dəfələrlə gəlməyim, keçirdiyim gərginliklər və onun ağır təbiəti, daxilində saxladığı və heç cür büruzə vermədiyi xeyrxahlıq bu hisslərin gerçəkləşməsinə mane olurdu. Bu müddətdə məndə çertyoj çəkmək vərdişi o dərəcədə yüksəlmişdi ki, istənilən detalın eskizini avtomatik olaraq tərtib edə bilirdim.

Bunu yazmaqda məqsədim müəllimin tələbkarlığı və prinsipiallığı, tələbənin isə iradə və çalışqanlığını qeyd etmək, burada digər bir məqsədin və mənanın olmaması, mövqelərin düzgün qiymətləndirilməsinin gözəl nəticə verəcəyini açmaq istəyimdir.

Bu gün biz Böyükağa müəllimlə bir yerdə çalışırıq. O, kafedramızın ağsaqqalı, korifeyidir. Onun məsləhətlərinə və köməyinə hər gün ehtiyac duyuram. Onun olduqca maraqlı və çoxları üçün örnək ola biləcək bir tərcümeyi- halı vardır.

Böyükağa Rəhman oğlu Quliyev 1934-cü il yanvarın 10-da Bakı şəhərində dünyaya göz açmışdır. Atası Rəhman Əhəd oğlu mağaza müdiri işləyirdi. Həmin dövr üçün bu fərqləndirici bir göstərici idi. O, 1949-cu ildə 51 yaşında qəflətən vəfat etmişdir. Anası İzzət xanım Axund Əliskəndər qızı evdar qadın idi. Həyat yoldaşını itirəndə cəmi 32 yaşı var idi. Müharibədən sonrakı ağır illərdə iki oğlan və iki qız uşağını böyütmək İzzət xanımın öhdəsinə düşmüşdü. Ailənin böyük övladı Böyükağanın 15, Səidənin -14, Ramizin - 12, sonbeşikləri Həlimənin isə 8 yaşı vardı.

İkinci Dünya müharibəsinədək firavan və qayğıkeş həyatlarından danışan Böyükağa müəllim 4 yaşı olanda valideynlərinin onun hərtərəfli inkişafı üçün alman əsilli quvernant qadın tutduqlarını yadına salaraq, alman və rus dillərində danışmağı necə öyrəndiyini yaxşı xatırlayır. Çox danışmağı xoşlamadığına baxmayaraq, o illərin xoş günləri sırasında bağlarında nənəsinin, əmisinin və bibilərinin əhatəsində keçirdiyi yay günlərindən, bu böyük ailədəki mehribançılıqdan söhbətlər aparmaqdan çəkinmir və həmin dövrü ən xoş

duyğularla xatırlayır. Məktəb yaşına çatanda rus dilində oxumaq istədiyini bildirdi: görünür bu, kiçik yaşlarında onunla məşğul olan quvernantkanın təsiri idi.

1942-ci ildə Bakıdakı 29 saylı rus təmayüllü məktəbdə, sonra isə 13 saylı yeddiillik məktəbdə təhsil almağa başlayır. Təhsildəki və məktəbin ictimai həyatındakı fəallığını nəzərə alaraq onu 14 yaşı tamam olandan 2 gün sonra komsomol sıralarına qəbul edib məktəbin komsomol komitəsinin katibi seçirlər. Maddi və mənəvi çətinliklər, qohum və qonşu ailələrin başçılarının, oğullarının döyüş cəbhələrinə göndərilməsi, müharibədə yaralanıb şikəst qayıdanların söhbətləri, hər gün radioda verilən müharibə xəbərləri təsirsiz ötüb keçmirdi. Müharibə və ondan sonrakı çətin həyat hər an özünü göstərirdi. Uşaqlar vaxtından tez böyüyür və ciddiləşirdilər. Böyükağa müəllim yaşadığı məhəllədə də, keçmiş Şors, indiki Bəşir Səfəroğlu küçəsinin Zərgərpalanla kəsişdiyi tindəki uşaqlar da elə bil 5-10 yaş böyümüşdülər. Hər bir oğlan iş tapmaq, ailəsinə kömək etməyi ümdə vəzifəsi bilirdi. Belə bir fikir 1950-ci ildə otra məktəbi bitirən Böyükağa müəllimin də əqlinə hakim kəsilmişdi.

Atasının vəfatından sonra Bakıdakı mətbəələrin birində cildləmə sexində az maaşlı bir işə düzəlmiş anasının əziyyətlərini görmək ona çox ağır gəlirdi. 15 yaşı olduğundan heç bir yerdə onu yüksək maaşlı işə qəbul etmirdilər. Çıxış yolunu o illərdə böyük tələbə təqaüdü verilən Bakı Neft texnikumuna daxil olmaqda görərək oraya qəbul olur və tezliklə əlaçı təqaüdü almaqla ailələrinə az da olsa köməklik edə bilir. Həmin illərdə idmanla da məşğul olmağa başlayır. Respublikada gimnastlar arasında birinci yeri tutur.



1954-cü ildə texnikumu əla qiymətlərlə başa vuran Böyükağa Quliyev imtahansız M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutuna qəbul olunur. Texnikumda onunla birlikdə oxuyan yaxın dostu Oqtay Qurbanov da əlaçı kimi bu instituta qəbul olunmuşdu. Hər ikisi eyni fakültədə və eyni qrupda oxuyurdular. Oqtayla dostluqları uzun illər davam edərək, həmkar kimi bir kafedrada işləmək səviyyəsinə çatır.

İnstitut həyatının çox məzmunlu və maraqlı olduğunu, birinçi kursdan "Qazneftmədən" fakültəsinin komsomol komitəsinin katibi seçildiyini, bu işin onun ürəyincə olduğunu söyləyəndə Böyükağa müəllim tələbə dostlarını xüsusi bir duyğu ilə xatırlayır.

Bacısı Səidə də Böyükağa müəllimin yolu ilə gedərək orta məktəbi bitirəndən sonra Bakı Neftayırma zavodunda işləməyə başlayır və eyni zamanda M.Əzizbəyov adına Neft və Kimya institutunun qiyabı şöbəsinə daxil olur. İnstitutu bitirdikdən sonra təqaüdə çıxanadək Neftayırma zavodunda mühəndis vəzifəsində çalışıb.

Qardaşı Ramiz isə Azərbaycan Dövlət İdman institutunda təhsil almışdır. Oranı bitirəndən sonra idman müəllimi işləmiş, sonra isə həmkarlar ittifaqında məsul vəzifələrdə çalışmışdır. Bacısı Həlimə Azərbaycan Xarici Dillər institutunun ingilis dili fakültəsini bitirib, Azərbaycan Neft və Kimya institutunun "Xarici dillər" kafedrasında işləmişdir. Atasını itirəndən sonra çətin günlər yaşasalar da zəhmətləri hədər getməmiş, dördü də ali təhsil almışdır.

Böyükağa müəllim danışır: - "Mən 1959-cu ildə institutu bitirib Orcenikidzeneft neft-mədən idarəsinə təyinat aldım. Məni 6-cı mədənə 7-ci dərəcəli operator vəzifəsinə işə götürdülər. Böyük həvəslə, məsuliyyətlə işləyirdim. Bir neçə aydan sonra məni usta köməkçisi vəzifəsinə keçirtdilər. Bu qabaqcıl bir mədən idi və kommunist əməyi mədəni adını almışdı. Tezliklə mədənin partiya təşkilatının katibi seçildim. Mədənin ictimai işlərində fərqlənirdim, mətbuatda işimiz haqqında məqalələrim dərc olunur, respublika səviyyəsində keçirilən tədbirlərdə neftçilər adından çıxışlar edirdim.

1961-ci ildə sovet gənclərindən ibarət bir qrup dövlət tərəfindən ingilis gəncləri ilə görüşmək üçün İngiltərənin paytaxtı Londona göndərildi. 25 nəfərdən ibarət bu qrupda cəmi 5 azərbaycanlı var idi ki, bunlardan biri mən idim. O vaxtlar sovet adamlarının kapitalist ölkələrinə səfərləri nadir hadisə idi və hər adama nəsib olmayan bir xoşbəxtlik idi."

Böyükağa müəllim səfər təəsüratlarından danışarkən: «Bu səfər çox təsirli və maraqlı keçdi, həyatımda ən unudulmaz hadisələrdən biri kimi xatirimdə qaldı» söylədi.

Bir müddətdən sonra Böyükağa müəllim qonşuluqdakı 5 saylı mədənə sahə rəisi vəzifəsinə təyin olundu. Bu mədəndə o, 1963-cü ilədək işləyir. Ən böyük arzusu isə doğma institutda çalışmaq idi. Qəzetdə institutun «Rəsmxət» kafedrasında boş olan müəllim vəzifəsinə müsabiqə elan edildiyini oxuyur. Tərəddüd etmədən sənədlərini həmin müsabiqəyə təqdim edir və 1963-cü ildən «Rəsmxət» kafedrasında assistent kimi fəaliyyətə başlayır. O, bu sahədə böyük hörmət və mənsəb sahibləri olan alimlərlə – dos. A.V. Dmitriyevski, Q.Bağırzadə, Ə.Məmmədov, Ə. Mirzəbəyli və b. ilə birlikdə çalışır.

Böyükağa müəllim xatirələrinin birində qeyd edir ki, 1964-cü ilin əvvəllərində, axşam qrupunda dərs keçirdim. Birdən auditoriyaya rektor İsmayıl İbrahimov daxil oldu. İnstitutda oxuduğum illərdə o, institutun partiya təşkilatının

katibi, mən isə fakültənin komsomol bürosunun katibi idim. İsmayıl müəllim məni yaxşı tanıyırdı. Dərsimlə maraqlanıb getdi. Sabahı günü məni ümumtexniki fakültəsinin dekanlığına çağırıb, fakültənin axşam şöbəsində dekan müavini vəzifəsində işləməyi təklif etdilər. Razı oldum. Həm dekan müavini, həm də kafedrada müəllim kimi çalışırdım. 1965-ci ildə məni baş müəllim vəzifəsinə təsdiq etdilər.

Tələbkarlığı və əxlaqi keyfiyyətləri nəzərə alınmaqla Böyükağa müəllimə tez-tez məsul tapşırıqlar verilirdi. O, uzun illər qəbul komissiyasında çalışmışdır. Həmin illərdə instituta tələbə qəbulu məsələsində rektor tərəfindən əsaslı dəyişikliklər edilmişdi və bu işin yaxşı nəticələnməsinin kadrlardan çox asılılığını nəzərə alaraq Böyükağa müəllimi məsul katibin birinci müavini təyin etmişdilər. Bu iş çox çətin və məsuliyyətli idi. Qəbul komissiyasında 10 ilə qədər çalışmışdır.

Böyükağa müəllimin mədən təcrübəsi, mühəndis peşəkarlığı ilə yanaşı tədrisin metodikası sahəsində böyük təcrübəsi vardır. Kafedrada bu gün də öz aktuallığını saxlayan metodiki göstərişlərin bir çoxu onun iştirakı və ya məsləhətləri ilə tərtib olunaraq istifadə edilir. O, kafedra üçün ayrılmış otaqların yeni avadanlıqla, əyani vasitələrlə təmin edilməsində, detal parkının genişləndirilməsində və s. işlərdə yaxından kömək edir.

1980-81-ci illərdə Böyükağa müəllim Leninqrad universitetində 10 aylıq ingilis dili kursunu bitirmişdir.

Onun böyük əməyi bir sıra dövlət təltifləri, Fəxri Fərmanlarla qiymətləndirilmişdir. Böyükağa müəllim həmişə qeyd edir: «Mənim dünyadan aldığım ən böyük payım valideynlərim, uğurum – ailəm, qazancım isə övladlarımdır».

Böyükağa müəllim bir az gec ailə həyatı qurmuşdur. Ailələrində hər bir şey yerbəyer olandan sonra, o 1976-cı ildə evlənməyə qərar verir. Həyat yoldaşı Safura xanım Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisidir, filologiya üzrə fəlsəfə elmlər doktorudur.

İki qızı və iki nəvəsi vardır. Böyük qızı Nurlana və kürəkəni Emil Quliyevlər – hər ikisi jurnalist, kiçik qızı Zəhra və kürəkəni Ramil Salayevlər Xarici Dillər institutunu bitirsələr də, hər ikisi bank işçiləridir.

Nəvəsi Saranın beş yaşı, Nigarın isə 2 yaşı var.

Bir dəfə ondan soruşanda: «Böyükağa müəllim, həyatınızdan razısınızmı?», düşünmədən cavab verdi: «Bəli! Qismətimə düşən həyat tərzim, ömür yolum üçün, qarşıma çıxan insanların ürəyimcə olduğuna görə böyük Yaradana daim şükürlər edirəm!»

ARZUSU MÜƏLLİMLİK, KREDOSU ÖYRƏTMƏK OLAN XANIM

Babayeva Xədicə Heybət Qulu qızı

1968-1973-cü illər ərzində M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutunda oxuduğum müddətdə yaddaşımda qalan, böyük minnətdarlıq hissilə yanaşdığım və hörmət bəslədiyim müəllimlərimdən biri də Babayeva Xədicə xanımdır. O, mənim xatirəmdə həmişə prinsipial insan və tələbə psixologiyasına yaxından bələd olan müəllim kimi yaşayır.

Babayeva Xədicə xanım 1929-cu il 18 yanvar tarixində Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdu. O, Azərbaycanda tanınmış maliyyəçi, böyük hörmət və ehtiram sahibi olan Heybət Qulu Babayevin qızıdır.

Xədicə xanımın atası qısa bir həyat yaşasa da Azərbaycan Dövləti qarşısında böyük xidmətləri olmuşdur.

Heybət Qulu Babayev 1893-cü il dekabrın 10-da Bakı şəhərində anadan olmuşdur. Respublikamızın ilk ali təhsil məktəbi olan Azərbaycan Dövlət Universitetinin birincilərindən olan Heybət Qulu müəllim oranın "Maliyyə-kredit" fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Gənc mütəxəssisin bilik və bacarığı nəzərə alınaraq onu təyinat üzrə ölkənin 1 saylı bankına, o zamanlar QOSBANK kimi tanınan bir quruma işə göndərirlər. Burada onu şöbə müdiri vəzifəsinə təyin edirlər. Heybət Qulu müəllim bütün həyatını bu bankın möhkəmlənməsinə və inkişafına sərf etmişdir və burada müdir müavini vəzifəsinə qədər yüksəlmişdir. Heybət Qulu müəllim 1937-ci il dekabr ayının 10-da ürək tutmasından vəfat etmişdir.

Xədicə xanımın anası Tuqra xanım Hacıbəy qızı Mustafabəyli 1906-cı il may ayında Bakı şəhərində anadan olmuşdur. O, Asəf Zeynallı adlı musiqi məktəbinin fortepiano bölməsini bitirmişdir. Həyatını övladlarının tərbiyəsinə,

yetişməkdə olan gənc nəslin musiqi zövqünün yüksəlməsinə həsr etmişdir. Dünyasını dəyişəndə onun 61 yaşı vardı.

Xədicə xanım 1936-cı ildə 132 saylı məktəbin I sinfinə getmiş və oranı 1947-ci ildə bitirmişdir. Məktəbi bir il gec qurtarmasını səhhəttində yaranan problemlə izah edən Xədicə xanım tərcümeyi-halında aşağıdakıları yazır: «Bizim Şüvəlanda bağımız var idi, hər yay ora köçərdik. Bir istirahət günü mən avtomobil qəzasına düşdüm, odur ki, mən bir dərs ili ötürməli oldum. Bu səbəbdən məktəbi 1946-cı ildə yox, 1947-ci ildə qurtardım».

Xədicə xanım 1947-ci ildə Azərbaycan Sənaye institutunun inşaat fakültəsinə daxil olmuşdur. Xatirələrində belə bir qeydiyyata rast gəldim: «Qəbul imtahanlarını əla qiymətlərlə vermişdim, bağa istirahətə gedirdik. Şəhərdəki evimizə Azİİ-nin rektorunun imzası ilə məktub gəlmişdi və orada mənim rektorun qəbuluna gəlməyim xahiş olunurdu. Ertəsi gün mən instituta gəldim. İnstitutun rektoru S.B.Qocayev idi. Onunla görüşəndə mənə dedi ki, qızım, mən səni Moskvaya oxumağa göndərmək istəyirəm. Bu böyük bir imkandır. Get evdə valideynlərinlə razılaş və mənə nəticəni söylə. Əlbəttə ki, evdə mənə icazə vermədilər. Mən təhsilimi Bakıda almalı oldum. Bundan heç də heyfslənmirəm».



Azərbaycan Dövlət Layihə İnstitutunda

Ali məktəbi bitirdikdən sonra Xədicə xanım təyinatla Azərbaycan Dövlət Layihə institutunda əmək fəaliyyətinə başlayır, lakin onda doğma tədris müəssisəsinə qayıtmaq, orada dərs demək həvəsi günü-gündən güclənirdi. Hər gün qəzetlərə baxan, onun elanlar guşəsini izləyən Xədicə xanım bir gün onların birində «Rəsmxət» kafedrasına assistent vəzifəsinə qəbul olmaq üçün müsabiqə elan olunduğunu görür və bu vakant vəzifəni tutmaq qərarına gəlir. Müsabiqədə elan olunmuş bir yerə üç nəfər ərizə vermişdi. Müsabiqə komissiyası üstünlüyü Xədicə xanıma verərək onun instituta qəbul olunması ilə bağlı rektora tövsiyə ilə müraciət edir və bu qərar rəsmiləşdirilir.

Xədicə xanım xatirələrinə davam edir: «Sənədlərimi oraya verdim, təyin olunmuş gündə imtahana gəldim. 3 nəfər idik. Bir də gördüm evə məktub gəlib ki, sən qəbul olunmusan».

Mənim oxuduğum 493 saylı qrup Xədicə xanımın dərs apardığı ilk qruplardan biri idi. Yadımdadır, 1968-1969-cu tədris ilinin qış semestrində bizim qrupda «Rəsmxət» fənnini Xalidə Cavadova ilə birlikdə Xədicə Babayeva aparırdı. O vaxt kafedra müdiri Bağırzadə Qasım müəllim idi.

Xədicə xanım 1968-ci ildən 1995-ci ilə kimi kafedrada çalışmışdır. O, öz peşəsini yaxşı bilməklə yanaşı, biliklərini tələbələrə tam verməyi bacaran müəllim olmuşdur. Onun «Neft-mexanika» fakültəsinin professor-müəllim və tələbə kollektivi arasında həmişə xüsusi hörməti olmuşdur. Xədicə xanımın tərtib etdiyi metodiki işlər bu gün də tədris prosesində tətbiq olunur.

SƏDAQƏTLİ DOST, MEHRİBAN ANA VƏ SEVİMLİ NƏNƏ

Sadıqova Nailə Səhliyalı qızı

Kafedrada işlədiyim bütün dövrlərdə hər bir əməkdaşla qarşılıqlı hörmət, dostluq münasibətlərində olmağa çalışmışam. Bir rəhbər kimi hər bir kəslə bərabər səviyyədə və ürəkaçıqlığı ilə iş qurmaq mənim əmək kredom olub. Lakin Nailə xanımla olan münasibətim tamamilə fərqlidir. Mənim üçün o, həmişə kafedrada yaranan problemlərin həllində düzgün seçim etməkdə məsləhətçi, tapşırılan bütün işləri dəqiqliklə yerinə yetirən əməkdaş olmaqla bərabər, yüzlərlə, minlərlə insana nümunə ola biləcək dost, ana, həyat yoldaşı və sevimli nənədir.

Nailə xanım 1952-ci il mayın 24-də Azərbaycanın dilbər guşələrindən biri olan Füzuli rayonunda dünyaya gəlmişdir. Qarabağda tanınmış bir nəslin, soyun, kökün sonbeşiyi olan Nailə nə qədər şıltaq və ərköyün böyüyürdüsə də, zaman ötdükcə o cəfakeş, hamının dərdinə, ağrısına yanan və əlindən gələn köməkliyi edən bir xanım kimi böyük hörmət və ehtiram sahibinə çevrilirdi.

Nailə xanım qızı Ellada və oğlu Zaurla

Nailə xanımın atası - Sadıqov Səhliyalı Muxtar oğlu Şuşa şəhərində anadan olub. O, öz dövrünün tanınmış ziyalılarından biri olmuşdur. Səhliyalı müəllim təhsilini Qori seminariyasında aldıqdan sonra öz doğma rayonunda işləməyə başlamışdır və burada bir çox müəssisələrdə məsul vəzifələrdə çalışmışdır. O, 1953-cü ildə vəfat etmişdir. Onun anası - Ağayeva Suğra Saleh qızı da zatən Qarabağlı olmuşdur. O, 1917-ci ildə Füzuli rayonunda anadan olmuşdur, uşaq baxçasında tərbiyəçi işləyirdi. Gənc yaşlarında (35 yaşında) həyat yoldaşını itirən bu xanım 6 (2 oğul və 4 qızı) uşaqla dul qalmışdı. Bu böyük ailənin dərd-səri, yemək-içməyi, geyim-keçimi bu zərif qadının çiyinlərinə düşmüşdü. Dərzilik peşəsini seçərək Suğra xanım balalarını təmənnasız, düzgün, yüksək tərbiyədə böyütmüş və hamısına ali təhsil vermişdir. Görünür ki, Peyğənbərimiz – Cənnət anaların ayaqları altındadır – dedikdə Suğra xanım kimi Anaları nəzərdə tutur.

Nailə xanım orta təhsilini Füzuli rayonundakı Bünyad Sərdarov adına 1 saylı məktəbdə almışdır. Böyük qardaşı Ağa müəllimin məsləhəti ilə 1971-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutunun "Neft-mexanika" fakültəsinin axşam şöbəsinə daxil olmuşdur. Həmin ildən də institutun «Mühəndis qrafikası» kafedrasında laborant vəzifəsində çalışmağa başlamışdır.

1977-ci ildə institutu bitirəndən sonra həmin kafedrada baş laborant kimi fəaliyyətə başlamışdır. Onun pedaqoji keyfiyyətləri nəzərə alınaraq 1980-cı ildə kafedranın assistenti və sonradan baş müəllimi kimi vəzifələrinə keçirilir.

Nailə xanım kafedrada geniş ictimai fəaliyyətlə məşğuldur. O, uzun illərdir ki, kafedranın həmkarlar qrupuna rəhbərlik edir və elmi katibidir. Bunlardan əlavə Nailə xanım kafedrada dərs yükünün paylanması və onun icrasına nəzarət kimi ən mühüm tapşırıqları yerinə yetirir. Mən həmişə deyirəm ki, Nailə xanım kafedranın icraçı direktorudur.

Nailə xanım kafedrada tədrisin yaxşılaşdırılması məqsədi ilə həmişə maraqlı təklif və tövsiyələrlə çıxış edir. O, 2 dərs vəsaitinin, 10-dan çox elmi məqalələrin müəllifidir. Kafedrada aparılan elmi-tədqiqat işlərində yaxından iştirak edir.

Nailə xanım 1977-ci ildə mənim yaxın dostum, düşüncə tərzi və daxili dünyası ilə əsl azərbaycanlı olan, yaradıcılıq eşqi ilə yaşayan Həsənov Əbülfət

Zəfər oğlu ilə ailə həyatı qurmuşdur. Əbülfət AzərNeftTikinti idarəsində mühəndis vəzifəsində çalışır. Onların iki övladı – bir qızı, bir oğlu vardır.

Əbülfət bəy və Nailə xanım

Ailənin böyük övladı Ellada 1979-cu ildə Bakı şəhərində anadan olmuşdur. ADNA-nın "Qazneftmədən" fakültəsinin bakalavr və magistr səviyyəsini fərqlənmə diplomu ilə bitirmişdir. Hal-hazırda həyat yoldaşı Muxtarla Səudiyyə Ərəbistanının Bəhreyn şəhərində yaşayır və çalışırlar. Onların iki qızları var.

Oğlu Həsənov Zaur 1983-cü ildə anadan olmuşdur. O da ADNA-nın "İstehsal Proseslərinin Avtomatlaşdırılması" fakültəsini bitirib. Hal-hazırda SOKAR İnformasiya texnologiyası institutunda mühəndis vəzifəsində çalışır. Ailəlidir, bir oğlu, bir qızı var.

Bu, ideal bir ailədir. Allahlarına şükürlü insanlardırlar. Nailə xanımla bütün söhbətlərimiz həmişə onun bir cümləsi ilə tamamlanır: «Allaha çox şükür edirəm ki, mənim belə gözəl ailəm – həyat yoldaşım, qızım, kürəkənim, oğlum və gəlinim var».

Yay tətilindən əvvəl Nailə xanımla növbəti söhbətlərimizin birində ondan soruşdum: «Yadında qalan və sənə əziz olan hadisələrdən hansıları xatırlayırsan?»

Nailə xanım cavabında söylədi: «Mənim həyatımda yadda qalan hadisələr çox olmuşdur. Ən çox yadda qalan xatirələrim ilk məktəbə getdiyim illərlə bağlıdır. Həmin illəri xatırlayanda qəhər məni boğur. İndi mənim vətənim çirkin erməninin tapdağı altındadır. Həsrətlə gözləyirik ki, nə vaxt evimizə, gözəl baxçalı isti ocağımıza qayıdacağıq, sevimli atamın qəbrini ziyarət edəcəyik. Bunu bizim ailə səbirsizliklə gözləyir. Məktəb illərini yada salmaq üçün hamı şəkillərə baxır, uşaqları xatırlayır. Mənim isə o xatirələrim ata ocağımda qalıb. Anam bizimlə həmişə fəxr edərdi, bizim məktəb və institut illərində olan şəkillərimizi özündə saxlayardı. Anam şəkillərin orada qalmasından ürək ağrısı, göz yaşları ilə danışırdı. Onu sakitləşdirməyə çalışırdım, lakin içimdə ağlayırdım. Bizim şəkillərdə əks olunan gənclik xatirələrimiz orada qalıb. Buna çox heyfslənirəm».

Şükür Yaradanın məsləhətinə.

MÜBARİZ QADIN, PEŞƏKAR MÜƏLLİM VƏ SEVİMLİ ANA

Cavadova Xalidə Əli Cavad qızı

1969-cu ilin fevral ayında bizim qrup üçün yaz semestrinin ilk dərsi «Rəsmxət» fənni ilə başlamışdı. Həmin ildə «Tərsimi həndəsə» və «Rəsmxət» kafedraları müstəqil fəaliyyət göstərirdilər. Hər iki kafedrada keçirilən dərslərin mürəkkəbliyi və müəllimlərin ciddiliyi bütün tələbələr arasında qorxu yaradırdı. Kafedralara uyğun olaraq professor V.F.Puzırevski və dosent Q.M.Bağırzadə rəhbərlik edirdilər.

Həyəcanla bizə kimin dərs deyəcəyini müzakirə edirdik. Zəng vuruldu və auditoriyaya cavan, həmin dövr üçün müasir və dəbdə olan geyimdə müəllimə daxil oldu. Özünü təqdim etdi: Cavadova Xalidə. İlk andan məndə ona qarşı inam yarandı. Qrupumuzu iki yarımqrupa böldülər və hər birinə ayrı-ayrı müəllim dərs aparacağını dedilər – Xalidə Cavadova və Xədicə Babayeva.

Xalidə müəllimə 1933-cü ilin iyulun 8-də Bakıda ziyalı ailəsində dünyaya göz açmışdır.

Atası Əli Cavad Məmməd Əli oğlu 1924 - cü ildə Azərbaycan Dövlət Universitetitin tibb fakültəsini bitirib. Əmək fəaliyyətinə həkim kimi başlayaraq, sonradan həmin institutda müəllim vəzifəsində çalışmışdır. Anası Firuzə Səlim qızı 1905-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, müqəddəs Nina gimnaziyasını bitirdikdən sonra, 1936-cı ildə həkim ixtisasına sahib olmuş və bütün həyatını bu gözəl peşəyə sərf etmişdir. Əli Cavad bəy II Dünya müharibəsinin iştirakçısı olub.

Müharibə illərində anası Ağdam rayonunda baş həkim işləyirdi. Müharibə qurtardıqdan sonra Əli Cavad bəyi Gəncə şəhərində yerləşən hərbi hospitala müdir təyin edirlər. Onların övladları, o cümlədən Xalidə xanım 4 saylı orta məktəbdə oxumağa başlayır, lakin bir müddətdən sonra onların ailəsi Bakıya köçürülür. Xalidə təhsilini Bakıdakı 134 saylı məktəbdə davam etdirir və 1953-cü ildə oranı müvəffəqiyyətlə başa vurur. Həmin ildə Politexnik institutuna daxil olur. O zamanlarda inşaatçı mühəndisləri bu ali məktəbdə hazırlayırdılar. Qurmaq, yaratmaq həvəsi Xalidə xanımın ilkin arzularından biri idi. Odur ki, o inşaatçı ixtisasını seçir, 1958-ci ildə tam təhsilli mühəndis qismində institutu bitirir. Ali məktəbi bitirdikdən sonra Xalidə xanım Azərbaycan Dövlət Sənaye Layihə institutunda texnik mühəndis və baş mühəndis vəzifəsində işləyir.

1962-ci ildən onun həyatı M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutu ilə bağlı olmuşdur. Kiçik elmi işçi kimi fəaliyyətə başlayan Xalidə xanım, sonradan «Rəsmxət» kafedrasında assistent, 1968-ci ildən bu günə qədər orada isə baş müəllim vəzifəsində çalışır. Gənclik illərini, kafedrada çalışdığı və yoldaşlıq etdiyi insanları tez-tez xatırlayır.

Yaşanmış xoş günlərdən biri

Xalidə xanım öz qayğıkeşliyi, eyni zamanda tələbkarlığı ilə seçilən müəllimlərdəndir. Eyni zamanda o, həm də davranışı və geyim tərzi ilə seçilirdi. Həmin illərin dəbinə uyğun geyinməyi xoşlayırdı.

1960-ci ildə Xalidə xanım Bəhram Əmənulla oğlu ilə ailə həyatı qurur və onların yeganə övladları Cəmilə dünyaya göz açır. Cəmilənin uşaqlıq illəri Qasım İsmayılov küçəsində (indiki Zərgərpalan) keçib.

Xalidə və Cəmilə Cavadovalar

Bu küçə ilə ondan bir az kənarda yerləşən Passaj bazarı arasındakı məhəllələrdə tanınmış, öz yaradıcılıq istiqamətlərini müəyyənləşdirmiş gənc rəssamlar yaşayırdı. Tahir Salahovu, Cahangir Abdullayevi, Əlibəy Rzaquliyevi hər gün görmək, hərdən onlarla salamlaşmaq, danışmaq balaca Cəmilənin peşə seçiminin formalaşmasına böyük təkan vermişdir. Cəmilə orta məktəbdə oxuduğu müddətdə artıq profesional səviyyədə rəsmlər çəkməyi bacarırdı. Məktəbdə və respublika səviyyəli sərgilərdə iştirak edirdi. Sinifdə kimin hansı ixtisası seçəcəyi ilə bağlı söhbətlərdə Cəmilə birmənalı olaraq İncəsənət institutuna sənəd verəcəyini və rəssam olmaq arzusunda olduğunu bəyan edirdi. O, 1989-cu ildə Azərbaycan İncəsənət institutunun "Rəssamlıq" fakültəsinə daxil olur və 1995-ci ildə oranı müvəffəqiyyətlə bitirir.



Xalidə xanım peşəkar müəllim, metodist və mütəxəssisdir. Onun tələbələr arasında böyük nüfuzu və hörməti vardır. O eyni zamanda öz ictimai fəallığı ilə fərqlənir. Uzun müddət fakültəmizin həmkarlar ittifaqının sədri, fakültə Elmi Şurasının üzvü və ADNA-nın Həmkarlar İttifaqının fəal üzvlərindən olmuşdur. Onun gərgin əməyi SSRİ-in Neft Maşınqayırma və Kimya Nazirliyinin, Azərbaycan Təhsil Nazirliyinin və ADNA-nın rektorluğunun Fəxri Fərmanları ilə qiymətləndirilmişdir.

PEŞƏSİNİN VURĞUNU, ÖVLADLARININ DOSTU, SEVİMLİ XANIM



Məlikova Sevil Həmid qızı

Xeyli müddət idi ki, mən Sevil xanımın ünvanını və telefon nömrəsini axtarırdım. Hər dəfə kafedra əməkdaşları mənə onun ünvanının dəyişdiyini və telefon əlaqələrinin olmadığını deyirdilər. Nəhayət 19 sentyabr 2012-ci il tarixində Cahangir müəllim və Xalidə xanım mənə Sevil xanımın telefon nömrəsini verdilər. Biz onunla əvvəllər «Mühəndis qrafikası» kafedrasında birgə çalışmışdıq. 1986-cı ildə mənim və 1996-cı ildə isə Sevil xanımın kafedradan uzaqlaşması nəticəsində bizim əlaqələrimiz itmişdi. Eyni zamanda Sevil xanımın kafedradan incikliyi bu uzaqlaşmanı bir az da dərinləşdirmişdi. Buna baxmayaraq Sevil xanım həmişə mənim xatirimdə peşəsini yaxşı bilən mütəxəssis, səmimi insan olaraq qalmışdır və ona böyük bacı, müəllim hörməti və məhəbbəti bəsləyirəm.

Telefonun dəstəyini qaldıraraq ona zəng etməmişdən əvvəl fikirləşdim ki, o giley-güzar edəcək və bizə olan inciklikdən danışacaq. Mən yanılmışdım, Sevil xanım zəngimdən məmnun olduğunu, onu yad etdiyimizə görə minnətdarlığını bildirdi. Zəngimin səbəbini ona danışdıqda çox sevindi və söz verdi ki, ondan asılı olan bütün köməklikləri göstərməyə hazırdır. Bir neçə gündən sonra görüşməyə qərar verdik.

İlahi! Həqiqətən də insanın xoş sözə, münasibətə və diqqətə böyük ehtiyacı var. 22 sentyabrda Sevil xanımla görüşdük. Həyat yoldaşı Əli müəllimi uzun müddətə tək qoya bilmədiyini deyərək evlərinə yaxın bir yerdə görüşməyi təklif etdi. Ayna Sultanova parkı kimi tanınan bağda görüşdük. Boş skamyaların birində əyləşdik və bir-birimizdən hal-əhval tutduq. Əlbətdə vaxt, zaman öz işini görmüşdü, hər ikimizin yaşının üstünə illər əlavə olunmuşdu, lakin Sevil xanım öz

şuxluğunu və yaraşığını saxlaya bilmişdi. Mənə bir dəftər və çoxlu sayda şəkilləri uzadaraq dedi: «Bunları sənə etibar edirəm. Gənclik illərimin, ata və anamın, bacılarımın şəkilləridir. Dəftərdəki yazı isə həyatda başıma gələnlərin bir hissəsidir. Çox dərinə getmək istəmədim. Sənin kitabın üçün kifayət edər».

Məlikovlar ailəsi

Şəkilləri bir-bir mənə göstərərək hər biri haqda danışdıqca üzünün ifadələri dəyişirdi. Bacı və qardaşlarını itirməyindən söhbət açanda gözləri yaşla dolmuşdu. Söhbətin səmtini dəyişmək məqsədi ilə Sevil xanımdan övladları haqda danışmağı xahiş etdim. Onun kiçik oğlu - Kamran mənim tələbəm olub. Sevil xanım: «Böyük oğlum Kazım ADNA-nın "Geoloji kəşfiyyat" fakültəsini bitirib. Hal-hazırda Kanadada yaşayır və işləyir. Bir oğlu və bir qızı var. Onlar da həm oxuyur, həm işləyirlər. Kazımın həyat yoldaşı arxitektordur. Kiçik oğlum Kamranı yaxşı tanıyırsan. Onun oxumasında sənin zəhmətin olub. Sən ona həmişə dayaq olmusan. İnstitutu bitirərək əvvəlcə dənizdə 28 may NQÇİ-də, sonradan isə Dənizneft Layihə institutunda mühəndis işləyir. Evlidir, həyat yoldaşı hidrogeoloqdur, bir övladları var. Uşaqlarımdan çox razıyam».

Söhbətimiz bir saatdan çox çəkdi. Bu müddət ərzində o heç kəs haqqında irad və inciklik bildirmədi. Həyat yoldaşından nigaran olduğunu bildirərək, evə qayıtmalı olduğunu söylədi. Xudaafisləşdik, lakin tez-tez zəng edəcəyini bildirdi.

Axşamüstü bağda Sevil xanımım mənə verdiyi dəftərçəni diqqətlə oxumağa başladım. O, bu yazısında özündən çox ailəsindən, onların əzab və əziyyətlərindən, dünyasını tez dəyişmiş qardaşlarından, alova qərq olub yanan bacısından ürək ağrısı ilə yazırdı. Bu yazıları sakit və həyəcansız oxumaq mümkün deyildi. Sevil xanımın tərcümeyi-halından bir neçə anı qeyd etmək istəyirəm.

O, 1933-cü il 7 avqustda Bakıda ziyalı ailəsində anadan olmuşdur. Onun atası - Məlikov Həmid Məmməd Həşim oğlu mədəniyyət sahəsində çalışmış, uzun müddət Gənc tamaşaçılar teatrında aktyor işləmişdir. Anası - Mələknisə xanım evdar qadın olub, bütün həyatını 8 övladının tərbiyəsinə və sağlamlığına həsr etmişdir. Mənimlə görüşündə anasından, bacı və qardaşlarından danışarkən, Sevil xanımın dəhşətli bir hadisəni yadına salaraq dediklərini bir daha xəyalımda canlandırdım: «İsti yay günləri idi, anam mənə hamilə idi, böyük bacımla Buzovna bağından Bakıya qayıdırdıq. Bizim mindiyimiz «kukuşka» deyilən vaqonların birində, yolun Binə-Qala hissəsində qaz borularında nasazlıq səbəbindən partlayış baş verdi. Anamgilin olduqları vaqon relslərdən çıxaraq aşdı. Bu zaman yaranan qığılcım səbəbindən qatarlar yanmağa başladı. Alovun içində olan anam ondan xilas ola bilməyəcəklərini başa düşdükdə, bacımı özünə tərəf çəkərək qucağına alır. Anamın sinəsinə sıxılan bacım dəhşətli dərəcədə yanır və ana bətnində olan kiçik bacısını (məni) xilas edir. Bu hadisədə çoxlu sayda ölənlər oldu. Anam və bacımı Mərdəkan xəstəxanasına aparırlar - mən orada dünyaya göz açmışam. Bacımla anamın bir üzü və bir əli bərk yanmışdı. Evdəkilər bizi bir neçə gündən sonra tapa bilmişdilər».

Bəli, bu bir həqiqətdir, həmin illərdə bu hadisələr xoşagəlməz olduğundan qəzet və radiolarda bu haqda danışmırdılar və yazmırdılar. Sevil xanım bütün həyatı boyu bu hadisənin əsiri olmuşdu. Bəzən bunu bir olacaq kimi qəbul etmiş, bəzən özünü yanan bacısının yerində görmüş, bəzən də böyük qınaqlarla özünü günahlandırmışdı.

1941-ci ildə Sevil xanım Bakı şəhərindəki 25 saylı məktəbin 1-ci sinfinə getmişdi. Bu məktəb 8 illik tədris proqramı çərçivəsində fəaliyyət göstərdiyindən oradakı şagirdlər sonradan 190 saylı məktəbə köçürülmüşdü. 1951-ci ildə oranı

bitirdikdə mühəndis olmaq arzusu ilə Azİİ-yə qəbul olmuşdur. Görüşdüyümüz zaman məktəb illərini xüsusi olaraq xatırlayan Sevil xanım həmin illərin rəfiqələrindən danışaraq, fotoşəkillərdəki hər bir rəfiqəsini yada salmağa çalışırdı.

Aşağıdakı şəkildən göründüyü kimi o zaman qız və oğlan məktəbləri ayrı-ayrı idilər. Sevil xanım sinifdəki qızlar arasında yaşanan mehribançılıq və dostluq münasibətlərini xatırlayaraq, şən və gözəl keçirdiyi günlərə görə Allahına minnətdar olduğunu bildirdi.

1945-ci il 5[a] sinfi

Həmid müəllimin ailənin hər üç oğul övladı müharibədə iştirak ediblər. Sevil xanımın böyük qardaşı - Ənvər həmin illərdə Bayıl qəsəbəsindəki rus məktəbində tədris hissə müdiri işləyirdi. Ənvər müəllim dahi şairimiz Mikayıl Müşviqlə Bakıdakı 18 saylı məktəbdə birgə oxumuşdudar. Ortancıl qardaşı Bəylər Əmircan kəndində riyaziyyat müəllimi idi. Ailənin sevimlisi kiçik qardaşı Xanlar isə Konservatoriyada II kursda oxuyurdu. O, Üzeyir Hacıbəyovun tələbəsi idi. Məlikov Ənvər rota komandiri idi, Budapeşt ətrafında həlak olub. O, şəhid olanda yeganə oğlu – Rafiqin 3 yaşı vardı.

Məlikov Bəylər Belorusiyada vuruşubdur. O, itgin düşüb, tapılması üçün SSRİ-nin müdafiə nazirliyinin hər bir bölməsinə, strukturuna dəfələrlə müraciətlər edilməsinə baxmayaraq, ondan bir xəbər verən olmadı. Bu gün də qohum-əqrəba onun yolunu gözləyirlər. Ana və bacılarına əzab verən ən böyük dərd bu qardaşdan bir nişanın belə qalmamasıdır.

Ailənin kiçik oğlu Xanlar müharibədən sonra təhsilini davam etdirərək musiqi nəzəriyyəsi sahəsində tanınmış mütəxəssis, professor səviyyəsinə çatmışdır. O, Ü.Hacıbəyovun «Arşın mal alan» əsəri üzrə dissertasiya yazıb elmi dərəcə almışdır. Hal-hazırda Konservatoriyada işləyir. Onun 2 qızı, 4 nəvəsi, 1 nəticəsi vardır. Qızlar da Konservatoriyanı bitirib öz doğma ali məktəblərində çalışırlar.

Sevil xanımın iki bacısı Tibb universitetini, ən kiçik bacısı isə Bakı Dövlət universitetinin "Filolologiya" fakültəsini bitiriblər.

1951-1956-cı illərdə Sevil xanım Azərbaycan sənaye universitetinin "Neft–mexanika" fakültəsində təhsil almışdır. İnstitutu bitirdikdən sonra təyinat üzrə Qarayev adına neftayırma zavodunda əmək fəaliyyətinə başlamışdır. Sonradan Dənizlayihə elmi-tədqiqat institutunda 10 il çalışmışdır.

1957-ci ildə Sevil xanım yoldaşı Qurbanov Əli Kazım oğlu ilə ailə qurmuşdur. Əli müəllim öz doğma kollektivində, (Bibiheybət NQÇİ-də) avtomatik idarə olunan cihazların işinə nəzarət üzrə şöbədə yüksək səviyyəli mexanik kimi böyük hörmət sahibi olmuşdur. 1950-ci ildən 2008-ci ilədək bu idarədə çalışımışdır. Saatsazçılıq onun hobbisdir. Dünyanın bir çox saat firmalarının, tanınmış saatsazların işlərini yaxından tanıyır.

Əli müəllim səyahət etməyi xoşlayan bir insan kimi hər il ailə üzvləri ilə birlikdə Azərbaycanın və SSRİ-nin görməli yerlərinə istirahətə gedərdi. O, işinin çoxluğundan asılı olmayaraq uşaqların tərbiyəsində və tədrisində həmişə Sevil xanıma yaxından köməklik etməyi xoşlayırdı. Nəvələrini çox sevirlər. İkisi Azərbaycandan uzaq olsalar da belə, Əli müəllim və Sevil xanım hər gün onlarla internet vasitəsilə əlaqə saxlayırlar. Kiçik nəvəsi Günel babanın və nənənin ən sevimli qızıdır. Sevil xanım və Əli müəllim Timur və Tamillanın ətrini də ondan alırlar.



Timur və Tamilla

Günel

1970-ci ilin avqustunda ADNA-ya dəvət alan Sevil xanım əvvəlcə «Rəsmxət», sonra «Mühəndis qrafikası» kafedrasında ümumilikdə 25 ildən çox assistent, baş müəllim işləmişdir. 1995-ci ildə Azərbaycan elmi-tədqiqat neft layihə institutuna qayıdaraq təqaüdə çıxana qədər (2008) böyük elmi işçi vəzifəsində çalışmışdır.

Sevil xanım kafedrada işlədiyi müddətdə öz tələbkarlığı, ciddiliyi, tələbə-müəllim münasibətlərini yüksək səiyyədə qoruyub saxlamağı bacaran müəllimlərdən olmuşdur. Tələbələri həmişə ona böyük hörmət və məhəbbət bəsləmişdirlər. O, bir sıra elmi-metodiki işlərin müəllifidir.

TƏCRÜBƏLİ İNŞAATÇI, PEŞƏKAR MÜƏLLİM, SEVİMLİ ANA

Sultanova Bikə-Bacı Hüseynbala qızı

Kafedranın 80 illik yubileyi ilə əlaqədar vaxtı ikən burada çalışan, sonradan təqaüdə çıxan və ya dünyasını dəyişən əməkdaşlar haqda məlumat toplayarkən Fəridə xanımın qohumlarından birinin – Xədicə xanımın bizim akademiyada işlədiyini müəyyənləşdirdim. Mən ondan xahiş etdim ki, bizim keçmiş əməkdaşımız haqda mənə materiallar versin. Bir neçə gündən sonra o mənə Fəridə xanım haqda kiçicik bir yazı gətirdi. Yazını oxuduqda çox təəcübləndim. Səbəb-burada Fəridə xanım yox, Sultanova Bikə-Bacı haqqında məlumat yazılmış idi. Səbəbini soruşduqda mənə belə bir izahat verdilər ki, onun əsl adı Bikə-Bacı olmuşdur, lakin anası, sonradan isə bütün qohumlar uşaq yaşlarından ona Fəridə deyə müraciət ediblər. Fikirləşdim, görəsən nə üçün insana qoyulan ad ilə deyil, başqa birisi ilə müraciət edirlər? Görən bu dəyişiklik onun həyat yoluna, yaşadığı ömrə təsir edibmi? Belə hadisələrin tədqiqatı aparılıbmı?

Mən onu Fəridə xanım kimi tanımağıma baxmayaraq yazımda ona Bikə-Bacı deyə müraciət etməyə qərar verdim.

Sultanova Bikə-Bacı Hüseynbala qızı 4 oktyabr 1928-ci ildə Dərbənd şəhərində azərbaycanlı ailəsində anadan olmuşdur. Onun atası Hüseynbala Nəbiyev, anası Böyük-Bikə zatən Dərbəndlidirlər.

Bikə-Bacı 1949-cu ildə Bakı şəhərindəki 23 saylı orta məktəbi fərqlənmə diplomu (gümüş medalla) ilə bitirərək Azərbaycan Sənaye institutuna qəbul olmuşdur. Qurmaq və yaratmaq həvəsində olan Bikə-Bacı xanım bu ali məktəbdə "İnşaat" fakültəsini seçir. 1954-cü ildə institutu bitirərək doğma şəhərlərinə – Dərbəndə qayıdır və şəhər sovetində layihə-smeta bürosuna rəhbərlik etməyə

başlayır. Şəhər rəhbərliyi onda yüksək mühəndis xüsusiyyətlərini müəyyən edərək, kənd təsərrüfatı texnikumuna müəllim vəzifəsinə dəvət edirlər.

Artıq Bikə-Bacı xanım öz həmyerlisi Sultanov Səftər Əlyar oğlu ilə ailə qurmuşdu. Səftər müəllim də inşaatçı idi. O, ilkin olaraq Bakı kommunal tikinti texnikumunu, sonra isə Novoçerkassk Politexnik institutunun "İnşaat" fakültəsini bitirmişdi. Səftər müəllim əfsanəvi bir həyat yaşamışdır, 2-ci Dünya müharibəsinin iştirakçısı olan Səftər müəllimin igidliyi 4 orden və 16 döyüş medalı ilə qiymətləndirilmişdir.

Səftər və Bikə-Bacı xanımın yaş fərqi böyük olmağına baxmayaraq bu ailədə mehribançılıq və qarşılıqlı hörmət olub. Onların bir oğlü və iki qızı vardır.

1951-ci ildə Bikə-Bacı xanım və Səftər müəllimin ilk övladı dünyaya göz açır. Onun adını Zərifə qoyurlar. Zərifə ixtisasca iqtisadçıdır, Azərbaycan Neft və Kimya institutunu bitirmişdir. Zərifə xanımın bir qızı vardır. Oğlu Əlyar müəllim 1974-cü ildə Azərbaycan Tibb Universitetini bitirmişdir, tibb elimləri namizədidir, bir övladı var. Bikə-Bacı xanımın ikinci qızı Bahar xanım isə həkimdir, onun iki övladı var. Bahar xanımın oğlu, Bikə-Bacı xanımın nəvəsi Fərid ADNA-nı bitirmişdir.

Sultanova B.H. 1959-cu ildə Bakı şəhərinə köçür və onu Tikinti Sənayesi nazirliyində baş mütəxəssis qismində işə qəbul edirlər. Lakin müəllim olmaq, tələbələrə dərs demək, öyrətmək istəyi Bikə-Bacı xanımı Azərbaycan Neft və Kimya institutuna gətirir. O, əvvəlcə elmi-tədqiqat sektorunda kiçik elmi işçi, 1961-cı ildən isə «Mühəndis qrafikası» kafedrasında əvvəlcə assistent, sonradan isə baş müəllim vəzifəsində çalışmışdır.

Bikə-Bacı xanımla az bir müddətdə işlədiyimə baxmayaraq o, mənim xatirimdə xoş təəsüratlarla qalmışdır. Onun valehedici

təbəssümü vardı. Səsinin ahəngi, danışıq tərzi söhbət əsnasında yarana biləcək bütün gərginlikləri yox edir və insanı yormurdu. Kafedranın müəllimləri və tələbələr arasında böyük hörməti və nüfuzu vardı. İstənilən məsələnin həllində sülh tərəfdarı kimi çıxış edərdi. Kafedraya gələn gənc müəllimlərə köməkliyini əsirgəmirdi. Dəfələrlə ona etdiyim müraciətlərə təmkinlə və hörmətlə cavab verərdi.

Sultanova Bikə-Bacı təqaüdə çıxandan sonra asudə vaxtını, sevgi və məhəbbətini nəvələrinə yönəldərək, onların tərbiyəsi və sağlamlığı ilə məşğul olurdu. Arabir kafedraya gələrək, iş yoldaşları ilə söhbətlər edər, mütləq mənimlə görüşərdi. Həmişə mənə təskinlik verərək deyərdi: "Bu kafedra çox mürəkkəb kafedradır, lakin burada gözəl insanlar toplaşıblar. Onlarla işləməyə dəyər."

Allah Bikə-Bacı xanıma qəni-qəni rəhmət eyləsin.

BAKILI BALASIYAM, BAKIDA QALASIYAM

Babayev Ədalət Əliməmməd oğlu

«Mühəndis qrafikası» kafedrasında çalışan müəllimləri profesionallıq göstəricilərinə görə iki qrupa bölmək olar: nəzəriyyəçilər və metodistlər. Ədalət Əliməmməd oğlu Babayev kafedranın aparıcı metodistlərindən biri idi. O, 1934-cü il sentyabrın 12-də Bakıda fəhlə ailəsində anadan olmuşdur. Atası Əliməmməd Əli oğlu Babayev 1899-cu ildə Bakı şəhərində dünyaya gəlmişdir. Əliməmməd kişi qısa ömrünü fəhləliklə keçirmişdir. O, dünyasnı dəyişəndə 37 yaşındaydı və balaca Ədalətin iki yaşı vardı. Atasını lap kiçik yaşlarında itirən Ədalət müəllim həmişə ata nəvazişi görmədiyini böyük ürək ağrısı ilə danışırdı. Anası Aliyə Kamil qızı Babayeva 1902-ci ildə dünyaya gəlmiş, evdar qadın olmuşdur. Cavan yaşında kimsəsiz qalan bu cəfakeş qadın bütün həyatını balalarının böyüməsinə sərf etmişdi. 1970-ci ildə vəfatından əvvəl övladlarına son vəsiyyətində demişdi: "Kasıbçılıq qəbahət deyil, ailədə əsas mehribançılıqdır."

Ədalət müəllim 1944-cü ildə Bakının «Sovetski» deyilən küçəsində yerləşən 17 saylı məktəbin 1-ci sinfinə getmişdir. O, 1951-ci ildə həmin məktəbin yeddinci sinfini bitirərək Bakı Neft texnikumuna daxil olub 1955-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. Həmin ildə Azərbaycan Neft və Kimya institutunun "Qaz-neftmədən" fakültəsinə daxil olur. Onun institut həyatı çox rəngarəng və maraqlı olub. Onunla eyni qrupda dərs apardığım zaman Ədalət müəllim tələbələrdəki süstlüyü, tənbəlliyi görəndə çox əsəbləşərdi və öz gənclik illərindən danışardı. Eyni zamanda rəqs, dram dərnəklərində iştirakından, idman məşğuliyyətindən və bunların dərslərə paralelliyindən, seçdiyi ixtisasa hörmətdən söhbət açardı.

Ə.Ə.Babayev 1960-cı ildə institutu bitirib istehsalata işləməyə göndərilir. İlkin olaraq Leninneft NQÇİ-də qaz təsərrüfatı sexində işləməyə başlayır, sonradan

onu tədqiqat və layihə institutuna konstruktor şöbəsinə keçirirlər. Burada böyük təcrübə toplayan Ədalət müəllim 1965-1966-cı illərdə Azkommunalayihə institutunda qazlaşdırma şöbəsində mühəndis vəzifəsində çalışır və sonra Azərbaycan Neft Maşınqayırma elmi-tədqiqat və layihələndirmə institutunda (AzİNMAŞ) baş mühəndis vəzifəsinə köçürülür.

Ədalət müəllim Azərbaycan Neft və Kimya institutunda 1972-ci ilin 22 noyabrından işləməyə başlamışdır. O, müsabiqə yolu ilə "Rəsmxət" kafedrasına assistent vəzifəsinə qəbul olunur və beş ildən sonra (1977-ci ilin 19 dekabrından) baş müəllim kimi çalışmağa başlayır.

Ədalət müəllim professional metodist müəllim idi. O dərslərini elə yüksək səviyyədə aparırdı ki, mühəndislik ixtisasını ürəkdən sevməyərək instituta daxil olan tələbələr belə onun dərslərindən sonra öz peşələrinə tamamilə başqa münasibət bəsləməyə başlayırdılar. O, tələbələrə rəsmxətin incəliklərini dərindən öyrədə bilirdi.

Ədalət müəllim həmişə öz üzərində işləyib biliyini, təcrübəsini artıran, məsuliyyətli, peşəkar müəllimlərdən idi. O, 20-dən çox elmi və elmi metodik işlərin müəllifidir. Bu işlər öz aktuallığını saxlamaqdadırlar.

Ədalət müəllim gözəl ailə başçısı idi. Həyat yoldaşı Zemfira xanımla 1981-ci ildə ailə qurmuşdular. Zemfira xanım da ixtisasca mühəndis idi, 1960-cı ildə Azərbaycan Neft və Kimya institutunu bitirmişdi. Onların bir oğlu - Babayev Azər, bir qızı - Babayeva Mətanət və dörd nəvələri var. Onlar Ədalət müəllimin istinad yeri idilər.

Ədalət Babayev 26 yanvar 2003-cü ildə dünyasını dəyişmişdir. Onun vəfatından bir az sonra Zemfira xanım əbədiyyətə qovuşmuşdur.

Ruhunuz şad olsun!

ÖMRÜNÜ ÖVLADLARINA HƏSR EDƏN ANA, SƏDAQƏTLİ HƏYAT YOLDAŞI

Sadıqova Rəfiqə Camal qızı

Tələbəlik illərimi xatırlayarkən, zaman ötdükcə hörmətini həmişə əziz tutduğum, böyük məhəbbət və ehtiramla yad etdiyim müəllimlər sırasında Ağa Sadıqov xüsusi önəm kəsb edir. Sonuncu kursda Ağa müəllim bizim qrupda «Əmək mühafizəsi və təhlükəsizlik texnikası» fənni üzrə dərs aparırdı. Mən ilk gündən onun alicənablığı, mədəniyyəti və davranışına heyran olmuşdum.

Qrupumuzun bütün tələbələri Ağa müəllimi XX əsrin ziyalısının ümumiləşmiş obrazı kimi qəbul edirdilər.

1996-cı ilin yazında Ağa müəllim mənə yaxınlaşaraq özünə məxsus tərzdə, sakit səslə və böyük ehtiramla həyat yoldaşı Rəfiqə xanımın bizim kafedraya işə qəbul olunması təklifi ilə müraciət etdi. Mən ona söylədim ki, xanımınızın bizdə işləməsi hamımız üçün şərəfdir, lakin akademiyanın rəhbərliyinə müraciət etmək lazımdır. Ağa müəllim bu sözün əvəzində söylədi ki, sizin razılığınız olmasa mən heç vaxt, heç kəsə müraciət etmərəm. Bu hərəkət, bu söhbət bir daha onun böyüklüyünü göstərdi.

Sadıqova Rəfiqə Camal qızı Qarabağda geniş tanınan, məhşur bir ailənin qızıdır. O, 1944-cü il may ayının 17-də Füzuli şəhərində Hacıyev Camal Alış oğlunun ailəsində anadan olmuşdur. Hacıyev Camal Qarabağ bölgəsində yerləşən bir çox rayonlarda müxtəlif səviyyəli dövlət qulluqlarında çalışmışdır. Öz prinsipiallığı və qayğıkeşliyi ilə hamının hörmətini qazanmışdır. O torpağına, xalqına çox bağlı bir insan idi. Camal müəllim 1970-ci ildə vəfat etmişdir.

Qarabağın, ona doğma olan Cəbrayılın, Füzulinin dəhşətli günlərini görməsə də belə, 100% əminliklə deyə bilərəm ki, onun ruhu bu yerlərin, işğal altında olan, doğma ocaqlarının üzərində dövran edir. Ruhun şad olsun Camal müəllim!

Rəfiqə xanımın anası Rəna xanım evdar qadın olmuşdur. Ailədə böyüyən 9 uşağın (2 qız və 7 oğlan) tərbiyəsi, böyüyüb-başa çatması Rəna xanımın üzərinə düşmüşdür. Hər iki valideyn uşaqların ali təhsilli, cəmiyyət üçün faydalı olmasında böyük zəhmət çəkmişdi. Onların övladlrı Füzuli və Bakı şəhərində müxtəlif elmi, pedaqoji, tibbi və dövlət qulluğu sahələrində məsul vəzifələrdə çalışmış və bu gündə çalışmaqdadırlar.

Rəfiqə xanım 1951-ci ildə Füzuli şəhər orta məktəbin I sinfinə daxil olmuş və oranı 1963-cü ildə əla qiymətlərlə bitirmişdir. Həmin il ali məktəbə qəbul olmuş və 1968-ci ildə lifli materialların texnologiyası ixtisası üzrə tam kursu bitirmişdir.

Ağa müəllim və Rəfiqə xanım

Rəfiqə xanım 1968-ci ildə ADNA-nın aspirantı Ağa Sadıqovla ailə qurmuşdur. Ağa Sadıqov aspiranturanı bitirib texnika elmlər namizədi alimlik dərəcəsi aldıqdan sonra ADNA-da əmək fəaliyyətini davam etdirmişdir. Az sonra bu gənc ailə SSRİ Təhsil Nazirliyinin inkişaf etməkdə olan ölkələrə yardım məqsədilə qabaqcıl elmi-pedaqoji proqram çərçivəsində Əlcəzairə ezam edilir. Ağa müəllim Əlcəzairin Bumerdes şəhərində yerləşən Milli Neft və Qaz institutunun «Qazıma və istismar» kafedrasında ilkin olaraq müəllim, sonradan kafedra mudiri vəzifəsində çalışır.

Əlcəzairə birinci səfərlərində bu cənc ailənin iki övladı (Oqtay və Natiq) dünyaya gəlir. Rəfiqə xanımın əsas vəzifəsi dünyalar qədər sevdiyi həyat yoldaşı Ağa müəllimə və övladlarına qulluq etmək, onların sağlamlığının keşiyində durmaq, uşaqların təhsili ilə məşğul olmaqdan ibarət olur. Həmin illərdə Bumerdes şəhərində Sovetlər İttifaqı səfirliyinin təşkil etdiyi 8 illik orta məktəb var idi və bu ölkədə çalışan bütün mütəxəssislərin övladları burada təhsil alırdılar.

1977-ci ildə Əlcəzairdə yaşayan zaman Rəfiqə xanımın üçüncü oğlu Samir dünyaya gəlir. 1981-ci ildə 5 illik müqavilə bitdikdən sonra Rəfiqə xanım ailəsi ilə birlikdə Bakıya qayıdır və Respublika Məişət Xidməti Nazirliyi sistemində olan müəssisələrin birində mühəndis vəzifəsində çalışmağa başlayır.

1984-cü ildə Ağa müəllim yenidən ƏXDR-na ezam olunur. Əlcəzairdəki məktəbin 8 illik oluğundan bu dəfə ailənin böyük oğlu Oqtay Bakıda qalır. Rəfiqə xanım Natiq və Samirlə Bumerdesə gedirlər. Həmin il Samir I sinifdə, Natiq isə VII sinifdə təhsil almağa başlayırlar.

1988-ci ildə növbəti ezamiyyət müddəti başa çatdığından ailə Bakıya qayıdır. Ağa müəllim ADNA, Rəfiqə xanım isə Məişət Xidməti Nazirliyində öz fəaliyyətlərini bərpa edirlər.

Rəfiqə xanım 1994-cü ildə Ümumittifaq Təhlükəsizlik elmi-tədqiqat institutunda mühəndis, 1995-ci illərdə isə ADNA-nın hazırlıq fakültəsində metodist vəzifəsində çalışır.

Rəfiqə xanım 1996-ci ildən ömrünün sonuna qədər bizim kafedranın müəllimi olmuşdur. O üç oğul anası və 6 nəvənin nənəsi idi. Övladlarının hər birinə sonsuz məhəbbət bəsləyən bu ana geniş qəlbli, mülayim xasiyyətli və şirin dilli olmaqla əzizləri və qohumları arasında xüsusi hörmət və ehtirama sahib idi.

Kafedradakı söhbətlərimizdə əsasən Ağa müəllimdən və övladlarından danışırdı. Bu mövzu onun həyatda yaşamaq kredosu idi. Ağa müəllim tənəffüslərdə tez-tez bizim kafedraya düşərdi, Rəfiqə xanım onu görən kimi ayağa durar, üzündə xüsusi bir ifadə yaranardı. Gözə görünməyən bir enerji Rəfiqə xanıma şuxluq gətirirdi. Belə epizodları görəndə fikirləşirdim – İlahi, elə bil bunlar xeyli vaxtdır ki görüşməyiblər, bir evdə olmayıblar, bir yerdə işə gəlməyiblər. Qibtə olunası bir məhəbbət, qibtə olunası bir münasibət.

Rəfiqə xanım kafedrada işlədiyi zaman elmi pedaqoji, elmi metodiki işlərin icrasında yüksək erudisiyaya və biliyə malik olduğunu nümayiş etdirərdi. Bir neçə elmi məqalə və metodiki işlərin müəllifi olmuşdu. O, fakültənin müəllim heyətinin və tələbə kollektivinin böyük hörmətini qazanmışdı.

Təmiz qəlbli, qayğıkeş insan olan Rəfiqə xanımın əziz xatirəsi «Mühəndis qrafikası» kafedrasının kollektivi və onun tələbələrinin qəlbində həmişə yaşayacaqdır.

GƏNC ALİM, QAYĞIKEŞ ÖVLAD, SEVİMLİ ANA

Bağırova Gülnarə Sadıx qızı

May ayının ilk günlərinin biri idi. Gülnarə xanımdan özü haqda ətraflı məlumat yazmağı xahiş etdim. Bir müddətdən sonra o mənə zəng edərək elektron poçtumu yoxlamağı xahiş etdi və dedi: «İstədiyinizi yazmışam, imkanınız olsa oxuyun. Mən bu yazını birnəfəsə yazmışam. Buradakı hər bir kəlmə, hər bir cümlə beynimdən keçib, ürəyimdən süzüldükdən sonra yazılmışdır. Siz istədiyiniz ixtisarları edə bilərsiniz, lakin sadəlik və bəzi açıqlıqlara görə mənə gülməyin». Gülnarə xanımın bu xəbərdarlığı məndə xüsusi bir maraq yaratdığından yazını diqqətlə oxumaqa başladım və oxudum …. Bu, tərcümeyi-hal deyildi. Bu yazılarda yaşanmış bir ömrün epizodları, ağrıları, acıları, şən və firavanlıq hissləri, valideyn itkisi, övlad məhəbbəti öz əksini tapmışdı.

Yazını olduğu kimi saxlamaq və kitabıma daxil etməyi qərara aldım və onu oxucularımın diqqətinə çatdırıram.

Gülnarə xanımın yazısı: «Mən 1966-cı il avqust ayının 1-də Bakı şəhərində anadan olmuşam. M.F.Axundov küçəsindəki həyət evimizi yağan güclü yağışın yaratdığı sel basdığından bizə 4-cü mikrorayonda yeni mənzil verdilər. Uşaqlıq illərindən ən çox yadımda qalanlar nənəmlə bağlıdır. O, mənim əziyyətimi çox çəkib, anam həmişə deyərdi ki, bu uşağın tərbiyəsini sən pozursan. Nənəm səhərlər məni aparıb uşaq baxçasının həyətində qoyub çörək dalınca gedərdi. Mən isə sakitcə oturub onun geri qayıtmasını gözləyirdim. Dükandan evə qayıdanda onun dalınca düşüb mən də evə dönərdim. Anam məni cəzalandırmaq istəyəndə qaçıb nənəmin geniş donunun altında gizlənərdim.

Nənəmin pensiya aldığı gün mən və bacılarım üçün toy-bayrama çevrilirdi. O, pensiyasını qəpiyinə kimi bizə xərcləyirdi. Şənbə-bazar günləri mənim üçün xüsusi bayram idi. Belə günlərdə atam məni bibimgilə aparırdı. Bibim orada evdən fərqli olaraq bizə hər şey etməyə icazə verirdi.

Məktəbə getdiyim ilk gün, əynimə geyindiyim forma, başıma bağlanan bant bu günə kimi yadımdadır. Atam və anam məktəbin həyətində mənimlə idilər. 10-cu sinif tələbəsinin və müəllimlərin gözü o qədər birincilərin içində məni seçdi. Dərs ilinin ilk zəngini çalmağı mənə həvalə etdilər. 10-cu sinif şagirdi məni qucağına aldı, məktəbin həyətində dairə boyunca fırlandıq, mən də əlimdəki ilk zəngi səsləndirdim. Sevincimin həddi-hüdudu yox idi.

Məktəbdə oxuduğum müddətdə mənim üçün birinci və ya ikinci dərəcəli fənlər yox idi. Bütün dərslərə maraq göstərir və onları dərindən öyrənməyə çalışırdım. Elə bir səsim olmasa da «Nəğmə» dərsində çox fəallıq göstərirdim. Ədəbiyyat günləri mənim üçün bayram idi, coğrafiya, riyaziyyat olimpiadalarında mütləq iştirak edirdim.

Müəllimlərim zehnimin iti olmasından, yüksək yaddaşa malik olmağımdan danışırdılar. Müəllimin dərsinə qulaq asmaqla keçilən mövzunu tam başa düşüb yaddaşımda saxlaya bilirdim.

Məktəbi bitirəndə diktor olmaq arzusundaydım. Atam bu seçimimi bəyənmədi və həm zarafatyana, həm də ciddi dedi: «Bircə artistimiz çatmır».

Sonuncu sinifdə oxuyanda azərbaycan bölmələrində rus dili fənni üzrə keçirilən olimpiadada iştirak edərək Respublika üzrə ikinci yer tutdum və qərara aldım ki, sənədlərimi M.F.Axundov adına Azərbaycan Dövlət Rus dili və Ədəbiyyatı institutuna (indiki Slavyan universitetinə) verim. O zamanlar bölgələrdə rus dili müəllimlərinə böyük tələbat olduğundan üstünlük oradan gələn şagirdlərə verilirdi. Mənim isə şəhər qeydiyyatım olduğundan sənədlərimi qəbul etmədilər. Onda tam əks istiqamətdə peşə seçmək qərarına gəldim və sənədlərimi M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutuna verdim və1983-cü ildə həmin instituta daxil oldum. İndiki kimi yadımdadır, son ədəbiyyat imtahanından qəbul olanların içərisində tək mən «əla» qiymət almışdım…

İnstitutun 2-ci kursundan bizi pambıq yığmağa Sabirabad rayonuna apardılar. Heç getmək istəmirdim. Amma bu bir ay o qədər maraqlı keçdi ki, düşünürəm, həyatımın ən maraqlı anları bu ayla bağlıdır. Hər səhər tezdən rəfiqəm Tamilla ilə 1-2 kq pambıq yığıb, sonra onu yastıq formasına salıb yatırdıq.

Atamın qaz təsərrüfatı sistemində işlədiyindən bu rayonda dostları çox idi. Prorabları hər gün mənə qazanla dolu ev xörəkləri gətirirdilər. Axşamlar isə diskoteka qurub oynayırdıq. Bütün kənd əhli yığışıb sanki teatra baxmağa gəlirdi. Kənd camaatı bizi növbə ilə qonaq çağırırdı. Beləliklə, 1 ay necə gəlib keçdi, bilmədik. 56 kq çəki ilə pambığa yollanıb, 66 kq çəki ilə qayıtdım.

Mən ikinci kursda oxuyanda nənəm birdən birə xəstələndi və qısa bir zamanda dünyasını dəyişdi. 84 yaşı vardı. Gümrah qadın idi, 7-ci mərtəbəyə ayaqla qalxıb düşürdü. Axır zamanlar bibimgildə qalırdı. Son dəfə ona dəyməyə gedəndə mənə bir fincan bağışladı, dedi pensiyama almışam, çay içəndə məni xatırlayarsan. İndi də bu fınçanı əzizləyib saxlayıram. Dekabrın 31-i idi. Axşam atamı gözləyirdik ki, bayram süfrəsinin arxasına oturaq. Qapının zəngi çalınanda qapıya qaçdım. Atam içəri girib uşaq kimi hönkür-hönkür ağlamağa başladı və söylıədi: «Nənə keçindi». Həyatımda ilk ağır itki ilə üzləşdim. Sevimli nənəmi beləcə itirdim...

Anamın ağır xasiyyəti və bizləri daim nəzarətdə saxlamağı səbəbindən mənə yaxınlaşan oğlanları rədd edirdim. 5-ci kursun axırında gələcək həyat yoldaşımla tanış olduq. Cox görkəmli olduğundan və əvvəllər heç kimlə ünsiyyətdə olmadığımdan ona qarşı məndə ülvi hisslər yarandı. O məni evə ötürməyə başladı.

Əmək fəaliyyətimə Bakı radiozavodundan başlamışam. Həmin il Uranla nişanlandım. Yadımdadır, evimizə elçiliyə dörd nəfər xanım gəlmişdi. Onlar adlı-sanlı Aşurbəylilər nəslindən idilər. Buna baxmayaraq anam Uranla şəxsən tanış olmaq istədiyini, sonra cavab söyləyəcəyini bildirdi. Ertəsi gün anam rəhmətliklə görüşdü və evə gəlib mənə dedi: «Ona ərə getmə, ürəyim rahat deyil». Lakin bu dəfə mən öz xarakterimi göstərərək dedim: «Razılaşmasanız, qaçacağam».

1990-cı ildə, «İnturist» restoranında toyumuz oldu. Oğlumuz Sadiq dünyaya göz açdı. Bu adı ona yoldaşım qoydu. Əvvəlcədən danışmışdıq ki, qızımız olsa onun anasının, oğlumuz olsa mənim atamın adını qoyaq.

Atamın sevincinin həddi-hüdudu yox idi. O, Urandan çox sevinirdi. Xəstəxanadan məni evə aparmağa gələndə atam o vaxt dəbdə olan «Çayka» markalı dövlət maşını sifariş etmişdi. O da, yoldaşım da təzə bəyə oxşayırdılar. Balaca Sadiqi qucağına kimin götürəcəyi uğrunda bəhsə girmişdilər.Yoldaşımın mənə gül dəstəsi verməyə başı qarışan kimi atam gənc oğlan çevikliyi ilə tibb bacısına şirinlik verib körpəni qucağına aldı.

Mən işləmək istəyirdim, lakin atam razılıq vermirdi. Onda İbrahim müəllim ona başa salırdı ki, institutda yaxşı oxuyub, boş yer həmişə olmur, qoy mənim yanımda işləsin. Uşağa baxmaq üçün hər cür imkan yaradarıq.

İbrahim müəllimin sözündən atam keçə bilmədi. Beləcə 2003-cü ildə ADNA-nın «Mühəndis qrafikası» kafedrasında baş laborant vəzifəsində işləməyə başladım. Bu arada ikinci oğlum Həsən dünyaya göz açdı, lakin mən işdən ayrılmadım. Körpəni Tanya adlı dayənin yanında qoyub işləyirdim. Az sonra müsabiqə yolu ilə assistent vəzifəsinə keçdim.

Atam dünyasını dəyişəndə 64 yaşı vardı. O, heç cür öləcəyi ilə barışmaq istəmirdi. Axı 64 yaş həyat eşqi ilə qəlbi dolu kişi üçün nədir ki?

Yadımdadır, həmin gün axşam ona dəyməyə getdim. Ağır nəfəs alırdı. Atam Sadiqi görmək istədi. Mən dedim ki, yatıb, indi gedib durquzaram, gələr. Onda Sadiqin 13 yaşı var idi. Atam icazə vermədi, dedi: «Durquzma, özün də evə get. Uşaqları tək qoyma». Mən tərpənmədim. Atam yavaşca dedi: «Məni əsəbiləşdirmə, uşaqların yanına get». Mən çıxanda atam dedi: «Əyil». Əyiləndə məni öpdü. O halsız, taqətsiz, can verən insanın bu güclü öpüşü məni indi də yandırıb yaxır. O zaman bu qüvvət ona hardan gəldi ki, məni belə bərk öpdü?...

Evə yollandım. Səhərə yaxın bacım zəng vurdu ki, gəlin, son nəfəsidir. Amma mən çatmadım. Hələ də niyə atama qulaq asıb evə getdiyimi özümə bağışlaya bilmirəm. Hətta bacılarımın və anamın mənə sən xəstə idin, allah-təala belə məsləhət bilib desələr də. Allah heç kimə itki qismət etməsin. Atamın dünyadan köçməsi mənə ağır dərd oldu, axı o mənim ən yaxın dostum, həmdəmim, qardaşım idi.

Beləcə günlər bir-birini əvəz etməyə başladı. Başımı işlə və uşaqlarımla qatırdım. Kafedra müdirimiz mənə bu ağır günlərimdə yaxın həmdəm oldu. Yenidən yoldaş, qardaş, ata...bir sözlə onun simasında özümə dayaq, arxa tapdım.

Kafedrada yaşanan mehribançılıq və qarşılıqlı hörmət prinsipi hər birimizi işə tələsməyə sövq edirdi.

Mənim addımbaadım, pillə-pillə inkişafımda bütün kollektivin - rəhmətlik Valentina Yejkovadan, laborant qızlarımızdan tutmuş, ağsaqqal müəllimlərə qədər hər bir insanın əməyi var. Yadımdadır, 2011-ci ilin əvvələrində dissertasiya işimin müdafiəsi ərəfəsində laborant qızların otağına «köçmüşdüm». Biri mənə yemək hazırlayır, digəri kompüterdə yazılarımdakı səhvlərimi yoxlayır, biri də sənədlərimi qaydaya salmağa kömək edirdi. Bəzən Rəbiyə mənə görə evə gec də gedirdi. Hər bir əməkdaşımıza minnətdaram.

Kafedra müdirimiz, professor İbrahim müəllim barədə ayrıca danışmaq istəyirəm. O olmasaydı, mən bəlkə də müdafiə etmək həvəsinə də düşməzdim. Onun mənimlə söhbətləri, savadlı olduğuma və hər bir sahədə uğur qazanmağa

inandığını deməsi məndə məsuliyyət hissini gücləndirirdi. Hərdən zarafata salıb deyirdim: «Siz məni axırda döyə-döyə alim edəcəksiniz».

Tədqiqat illərində daim mənimlə bərabər müxtəlif neftçıxarma idarələrinə, mədənlərə gedər, məni məsul şəxslərdən tutmuş fəhlələrədək hamı ilə tanış edərdi. Ölkəmizdə və xaricdə keçirilən müxtəlif elmi-texniki konfranslarda çıxışlar edirdim. 2010-cu ildə Sankt-Peterburqda keçirilən beynəlxalq forumda fərqlənmə diplomuna layiq görüldüm. 2011-ci ilin noyabr ayında müdafiəyə çıxdım.

Gülnarə xanım övladları Sadiq və Həsənlə

Ümumiyyətlə həyatımdan razıyam. Düşünürəm ki, insan pozitiv, optimist olmalı, pis şeyləri tez unutmalı, yaxşı şeyləri isə daim yadında saxlamalıdır. Yalnız belə olduqda işlərin qaydasında olacaq, auran müsbət olacaq, insanlar sənə tərəf can atacaq, yaşamaq asanlaşacaq.

Allah mənə 2 gözəl bala qismət edib. Sadiq Xüsusi Dövlət Mühafizə Xidmətində əsgərlikdədir. Kiçik oğlum Həsən tam başqa uşaqdır. O, Sadiq kimi sakit təbiətli deyil, çox aktivdir, dərs əlaçısıdır, sinif nümayəndəsidir, şəkli məktəbin Şərəf lövhəsindədir. Xasiyyətcə özümə oxşayır. Rəqslə məşğul olur. Böyüyəndə alim-zooloq olmaq istəyir.

Keçən il oğlum Sadiqi sevib seçdiyi qızla nişanladım. Əvvəldən demişəm ki, uşaqlarımın seçiminə müdaxilə etməyəcəm. Düzünə qalsa, gəlinim ürəyimcədir, çox mehriban qızdır. Həmişə oğluma başa salmağa calışıram ki, hər şey sənin özündən asılıdır. Ailəni kişi idarə etməlidir.

Çətinliyim olanda, çıxılmaz vəziyyətlərə düşəndə, cavabını tapmadığım sual qarşısında qalanda tez İbrahim müəllimin yanına qaçıram. O həmişə bu sualların cavabını bilir. Allahımdan razıyam kı, mənim arxamda belə müdrik insan dayanıb. Ona görə də həyatda çox şeyə nail olmuşam. Özümü xoşbəxt sayıram. Bir müdrikin dediyi kimi, hər səhər həvəslə işə, hər axşam da eyni həvəslə evə tələsirəm. Bundan sonra başlıca məqsədim uşaqlarımı sağlam ruhlu, gözəl tərbiyəli, vətənə layiqli, həyatda yerini və nə istədiyini bilən oğullar kimi böyütməkdir.

Böyük oğlumun bu yaxında mənə dediyi «Düz deyirsən, Prezidentin fəxri qarovulunda xidmət çətindir, lakin şərəflidir. Mən ailə saxlamalıyam, işə düzəlməliyəm, pul qazanmalıyam» sözləri qəlbimi qürurla doldurdu.

Kizik oğlum isə deyir ki, mən nəsli kəsilmək üzrə olan heyvanları araşdırmaq üçün Avropaya gedəcəyəm, bunun qarşısını almaq sahəsində böyük işlər görəcəyəm.

Bu cür arzularla və məqsədlərlə yaşayan övladların anası olmaq böyük şərəf və xoşbəxtlik deyilmi?»

QEYRƏTLİ OĞUL, MEHRİBAN QARDAŞ VƏ EHTİBARLI DOST

İsmayılov Elçin Qərib oğlu

1997-ci ilin sonuna yaxın kafedramızın baş müəllimi Nailə xanım mənə yaxıınlaşaraq qonşularından birinin oğlunun ADNA-da oxuduğunu və onun müəyyən problemi olduğunu bildirərək, köməklik göstərməyimi xahiş etdi. Problemin nədən ibarət olduğunu öyrənmək məqsədi ilə tələbənin mənim yanıma gəlməsini bildirdim.

Ertəsi gün Nailə xanım mənim yanıma hündür boylü, kifayət qədər cüssəli bir tələbə ilə yaxınlaşdı və onu Elçin İsmayılov kimi təqdim etdi. İlk baxışdın və qısa söhbətimizdən sonra həmin tələbənin yüksək ədəb-ərkan, tərbiyə sahibi olduğunu müəyyən etdim və ona lazımi köməklik göstərəcəyimi bildirdim. Problemin nədən ibarət olduğu indi yadımda olmasa da bu hadisədən sonra Elçin ilə mənim xoş münasibətlərim yarandı.

İsmayılov Elçin Qərib oğlu 1975-ci il may ayının 21-də Ermənistanın Spitak rayonunda anadan olub. 1982-ci ildə Bakı şəhərində orta məktəbə getmiş, 1992-ci ildə orta məktəbi bitirmişdir.

1997-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasının "Qaz-neft mədən" fakültəsinə daxil olmuş, 2001-ci ildə oranı bakalavr pilləsi üzrə bitirmişdir. Həmin ildə də ADNA-nın QNMF-nin magistraturasına daxil olmuş, 2003-cü ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir.

Maqistraturada oxuduğu müddətdə Elçin tez-tez kafedraya gələrək onun həyatında aktiv fəaliyyət göstərirdi. Bu münasibətlərin qarşısında mən ona 0,5 ştat baş laborant vəzifəsində çalışmağı təklif etdim. Onun razılığından sonra bu məsələ öz müsbət həllini tapdı.

2003-cü ildə E.İsmayılov bizim kafedraya müsabiqə yolu ilə assistent vəzifəsinə seçilmişdir. Hal-hazırda da həmin vəzifədə çalışır.

Elçin müəllim ailədə böyük oğul olaraq onun bütün problemlərinin həllində iştirak edir. Son illər ailənin başçısı olan Qərib müəllimin səhhətində yaranan problemlər Elçini çox narahat edir. Atasını xəstəxanaya yerləşdirərkən onun göz yaşı axıtdığının şahidi olmuşam. Qardaşı Eldara olan münasibəti çoxları üçün örnək ola bilər. Bu bir epizoddur, lakin insanın daxili dünyasnı göstərir.

O, kafedrada çalışan müəllimlərə və texniki personala yüksək hörmət bəsləyərək həmişə yararlı olmağa çalışır.

İşlədiyi müddət ərzində o, özünü intizamlı işçi, yaxşı pedaqoq kimi göstərmişdir, kafedranın əməkdaşları arasında dərin hörmət qazanmışdır. Elçin ADNA-nın və NMF-nin bütün tədbirlərində yaxından iştirak edir. Bu müddət ərzində o, kafedranın elmi-tədqiqat işlərində aktiv iştirak etmişdir.

İsmayılov Elçin Qərib oğlu 12 elmi işin, o cümlədən 1 monoqrafiyanın, 6 məqalənin, tezis və konfrans materiallarının müəllifidir.

Evlidir. İki övladı var.

DÖVRÜNÜN ZİYALISI, MÜHƏNDİS VƏ PEDAQOQ

Fukson Herts Abramoviç

Fukson Herts Abramoviç 1922-ci il noyabrın 15-də Bakı şəhərində qulluqçu ailəsində anadan olub. O, 1925-1930-cu illərdə valideynləri ilə birlikdə İranda yaşamışdır. Valideynləri SSRİ-nin İrandakı səfirliyinin Ticarət nümayəndəliyində işləyirdilər. Herts Abramoviç 1939-cu ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun «Qazneftmədən» fakültəsinə daxil olmuşdur, lakin Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar, təhsilini yarımçıq qoyaraq 1941-ci ildə cəbhəyə getmişdir. O, Sovet Ordusu sıralarında böyük döyüş yolu keçmişdir. Əvvəlcə müdavim, sonradan tağım komandiri, batalyon komandiri, diviziya qərargahı rəisinin köməkçisi olmuşdur. O «За оборону Кавказа», «За победу над Германией», «20 лет победы над Германией» medalları ilə təltif olunmuşdur.

Müharibədən sonra 1946-cı ildə təhsilini davam etdirmiş, təhsil aldığı müddətdə «Stalinneft»də, «Leninneft»də müxtəlif vəzifələrdə çalışmışdır. 1950-ci ildə institutu bitirdikdən sonra «Stalinneft»də əvvəlcə usta, sonra isə 1953-1959-cu illərdə mədənlərdə baş mühəndis və rəis müavini işləmişdir.

1959-cu ildən ştanqsız quyu nasosları üzrə XKB-da mühəndis, layihə rəhbəri vəzifələrində çalışmışdır.

Q.A.Fukson 1965-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir. 1967-ci ildə müsabiqə yolu ilə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutunun «Mühəndis qrafikası» kafedrasına dosent vəzifəsinə işə qəbul olunmuş və burada 1993 -cü ilə qədər çalışmışdır.

O, 1969-cu ildə N.E.Bauman adına Moskva Ali Texniki Məktəbdə ixtisasartırma kurslarında olmuşdur.

Fukson Herts Abramoviçin həyat yoldaşı Midviani Elena Qeorqiyevna ingilis dili üzrə mütəxəssis idi. Onların bir oğlu (Aleksandr) və bir qızı (Anna) var.

Poçt markaları yığmaq onun hobbisi idi. O, Azərbaycan filatelistlər cəmiyyətinin üzvü olaraq beynalxalq konfranslara dəvət alardı. Bir neçə dəfə mənə markalarını gostərmişdi.

H.A.Fuksonla mənim xoş münasibətlərim vardı. O mənə öz köməkliyini heç vaxt əsirgəmirdi. Kafedrada işlədiyim ilk illərdə «Tərsimi həndəsə» fənninin çətin bölmələrini mənə dəfələrlə izah edərdi. Bunun olduqca korrekt və diqqətlə edərdi ki, məndə sıxıntı yaranmasın.

SSRİ dağılandan sonra bir çoxları kimi H.A.Fukson da ailəsi ilə birlikdə Azərbaycanı tərk etdilər.

MÜHƏNDİS, ALİM VƏ PEDAQOQ

Əliyeva Marina Lipmanovna

Əliyeva Marina Lipmanovna 1935-ci il aprelin 5-də Amur vilayətinin Svobodnıy şəhərində anadan olub, sonra Leninqrad şəhərində yaşayıb. 1943-cü ildə Moskva şəhərində 1-ci sinfə gedib. 1944-1951-ci illərdə Leninqradda orta məktəbdə oxuyub. 1951-ci illərdə ailəsi ilə birlikdə Bakıya köçüb.

1953-cü ildə Bakıda 134 saylı orta məktəbi gümüş medalla bitirib. Məktəbin sonuncu sinfində oxuyarkən Marina xanım mühəndis olacağını dəqiqləşdirmişdi. Bu səbəbdən həmin il Azərbaycan Politexnik inistitutunun «Dəmir yol nəqliyyatı» fakültəsinə daxil olur və 1958-ci ildə institutda Körpü və Tunellərin inşaat ixtisası üzrə tam təhsilni başa vurur.

Marina xanım təyinat üzrə 1958-1961-ci illərdə Azərbaycan Su Təsərrüfatı dövlət layihə institutunda mühəndis işləyib və sonradan 1961-66-cı illərdə Dənizneftlayihə elmi-tədqiqat institutunda əvvəlcə mühəndis, sonradan isə böyük mühəndis vəzifəsində çalışıb. Müəllimliyə olan böyük məhəbbət onu 1966-cı ildə Ümumittifaq yeyinti sənayesinin qiyabi institutunun Bakı filialına gətirir və o, burada 1967-ci ilə qədər «Mühəndis qrafikası» kafedrasında müəllim vəzifəsində çalışır.

1966-cı ildən M.Əzizbəyov adına Neft və Kimya institutunun «Tərsimi həndəsə» kafedrasında vakant assistent vəzifəsini tutmaq üçün müsabiqə elan olunur. Marina xanım bu müsabiqədə iştirak edir və qalib olur. O, 1983-cü ilə qədər «Mühəndis qrafikası» kafedrasında assistent vəzifəsində çalışıb.

O, 1969-cu ildə Bauman adına Moskva ali texniki məktəbdə ixtisasartırma kurslarında olmuşdur. Bir il sonra Əliyeva M.L. 1970-ci ildə Moskva Aviasiya institutunun aspiranturasının qiyabi şöbəsinə qəbul olunur və 1977-ci ildə böyük

müvəffəqiyyətlə texnika elmlər namizədi adını almaq üçün dissertasiya işi müdafiə edir.

1983-cü ildə «Mühəndis qrafikası» kafedrasında onu baş müəllim vəzifəsinə, 1989-cü ildə isə dosent vəzifəsinə seçirlər.

Marina xanım ziyalı bir ailədə tərbiyə almışdır. Onun atası Lyandres Lipman İzrailoviç Azərbaycan Politexnik institutunun «Geodeziya» kafedrasının müdiri işləyib. O, 1955-ci ildə vəfat edib. Anası Lyandres Fanya Moyiseyevna isə Azərbaycan Dövlət Universitetində ingilis dilindən dərs deyib.

Marina Lipmanovna 1968-ci ildə Əliyev Zaur ilə ailə həyatı qurub. Mən institutun birinci kursunda oxuyanda Zaur müəllim "Neft-mexanika" fakültəsinin dekanı idi. Onların iki oglu var.

Marina xanım 1990-cı ildə öz xahişi ilə işdən azad olunmuşdur.

ИСТИННАЯ БАКИНКА, ЛЮБИМАЯ ЖЕНА, МАТЬ И БАБУШКА

Черникова Ирина Петровна

За всю историю Азербайджанской Государственной Нефтяной Академии кафедра «Инженерная графика» отличалась своей особенностью. Она заключается в том, что основателем этой кафедры В.Ф. Пузыревский был Личностью, и он вкладывал всю свою душу в любимую работу.

Он принимал на работу себе подобных людей – преданных своему делу, честных, принципиальных и трудолюбивых. Одним из них была Ирина Петровна Черникова. Я работал с Ириной Петровной в 1984-1990 годы, в первый раз, когда перевели меня с кафедры «Технология машиностроения» на кафедру «Инженерная графика», и в 1995-1996 годы, когда я начал руководить этой кафедрой.

Ирина Петровна Черникова родилась в 1938 году в городе Баку. Все детство, молодость и сознательную жизнь она прожила в одном из красивых и незаменимых уголков города Баку - на Баилове. В 1955 г. она окончила школу №49, в которую поступила в 1945 г., в год окончания войны. В том же году поступила на “Нефте-механический” факультет Азербайджанского Индустриального Института, которого успешно завершила в 1960 году. Затем

И.Черникова, 1954г.

по распределению была направлена в АзИНМАШ – главной научно-проектный институт нефтяного машиностроения. Проработав здесь до середины 1963 года в качестве инженера-конструктора, она накопила определенную практику и в 1963/1964 учебном году начала свою преподавательскую деятельность в родном АзИИ сначала ассистентом, а за тем (1963-1996 гг.) старшим преподавателем на кафедре «Инженерная графика» до ухода на пенсию.

В АзИНМАШе она познакомилась со своим будущем мужем - А.Г.Дозорцевым; поженились они в 1962 г.

Ирина Петровна с супругом А.Г.Дозорцевым

Анатолий Григорьевич тоже бакинец. Он учился в знаменитой школе №160. В 1952 г. поступил в АзПИ им. Ч.Ильдырыма, который закончил в 1957 г. по специальности «Инженер-механик». В 1974 г. защитил в АзИИ диссертацию на соискание ученой степени кандидата технических наук. Его научным руководителем был профессор Аливердизаде К.С.

Анатолий Григорьевич Дозорцев работал в АзИНМАШ-е с 1959 г. по 1997 г., сначала инженером-конструктором, затем главным конструктором проекта в отделе № 6, а с 1972 г. до ухода на пенсию - начальником «Отдела стандартизации».

У них две дочери и четыре внука. Старшая дочь Лада родилась 1966 году, а младшая - Влада в 1969 г. Обе закончили школу № 203, с французским уклоном, на Баилове.

Влада

Лада

Макс и Леонард

Дина и Валерия

Ирина Пертовна с внуками

Лада Дозорцева 1988 году закончила АзИИ, по специальности АСУ. Замужем, у нее дочь, Дина (19 лет), которая родилась ещё в Баку и сын Леонард (10 лет). Лада работает программистом в одной из страховых компаний в Нюрнберге. Её муж тоже программист.

Влада Дозорцева в 1993 г. окончила Гидрометеорологический институт в Санкт-Петербурге. В 1996 году вместе с мужем приехали в Германию. Здесь у них родились - дочь Валерия (13 лет) и сын Макс (12 лет). Влада работает в фирме, занимающейся статистикой на разных европейских

языках. Её муж тоже окончил Гидрометеорологический институт. Он работает программистом в филиале крупной французской фирмы.

Дина, Валерия и Макс учатся в гимназиях, а Леонард ещё в начальной школе в 4-м классе.

Ирина Петровна была преподавателем строгих правил. Об этом знали все студенты и коллеги по работе. На занятиях она выкладывалась полностью, добросовестно учила студентов. Никакие просьбы завышения оценок студенту, «тапшы» руководства, родных и знакомых, льготы для «избранных» она не понимала и не принимала. Мы все уважали ее принципы и поэтому никогда с подобными просьбами к ней не обращались.

Ирина Петровна никогда не занималась частным репетиторством. При этом она помогала тем, кто хотел заниматься, консультировала тех, кто желал чему-то научиться. Мне очень нравилась одна из ее особенностей – она всегда была довольна своей работой. Многим нашим это не нравилось, считали это высокомерием. Но она ладила со всеми, как с заведующими, так и с коллегами по кафедре.

1965 год. Коллектив кафедры слева направо: ст.преп. Курбатова В.Н., асс.Рафиев Р.Р., асс.Черникова И.П., асс.Фаталиева М, асс.Есаулова М.М., проректор АзИИ Мамедов А., начальник учебной части Попова И.Н., асс.Бернштейн В.А., ст.преп. Глузкин М.И.

Мы на кафедре потеряли связь с Ириной Петровной после того, как она ушла от нас. Потом я узнал, что она переехала на постоянное место жительства в Германию. Накануне 80-летия кафедры, когда я решил написать о тех людях, которые работали на кафедре, начал искать Ирину Петровну. И вот на страницах сайта «Одноклассники» я ее нашел. Написал ей о моем плане. Ирина Петровна сразу же мне ответила. Хочу довести ее слова до внимания всех, поскольку эти слова являются оценкой того добра, которое она получила от города, где жила, и от людей, с кем работала:

« … Спасибо, Ибрагим Абульфасович, за Вашу память, за добрые слова в мой адрес и за хорошие пожелания! … Наш институт АзИИ навсегда остался для меня самым дорогим воспоминанием, ибо в нём прошла вся моя сознательная жизнь - и студенческая и трудовая! Наши преподаватели, многие из которых ещё стояли у истоков создания института, дали нам не только знания, но и сформировали нас как личности. За это моя большая им благодарность!

Многие преподаватели, у которых я училась, были из той первой плеяды видных учёных, которые создали наш институт. Именно они дали нам, студентам, не только знания, но и основы порядочности, что сформировало нравственные устои моего поколения. За это им большое спасибо! Я считаю, что жизнь моя удалась, ибо я имела счастье родиться в Баку и прожила там счастливо 59 лет, свою работу выполняла с удовольствием, не поступаясь своими принципами и с радостью возвращалась домой. В счастливом браке живу с мужем уже 50 лет. Обе наши дочки подтвердили в ФРГ свои дипломы и имеют работу по специальности, оба зятя - тоже, имеем 4-х внуков. Я поздравляю весь коллектив кафедры во главе с заведующим с приближающимся юбилеем и желаю всем успешной работы, хорошего настроения, здоровья и удачи в жизни!»

Мы тоже поздравляем Ирину Петровну с 80-летним юбилеем кафедры «Инженерная графика». Желаем ей счастья и благополучия в семье.

SSRİ QAZ SƏNAYESİ ƏLAÇISI, TƏCRÜBƏLİ MÜƏLLİM VƏ MÜHƏNDİS

Mustafayev Səfa Dadaş oğlu

Səfa müəllim «Mühəndis qrafikası» kafedrasında 1989-cu ildə işləməyə başladığından mən onunla yaxından tanış deyildim. İlk dəfə onunla 1995-ci ildə, kafedraya müdir seçildikdən sonra, əməkdaşlarla görüşdükdə tanış olmuşuq.

Səfa Mustafayev tanınmış neftçi alim olmaqla yanaşı, kafedrada tədris olunan fənləri yüksək səviyyədə bilən, metodiki hazırlığı ilə seçilən müəllimlərdən biri idi.

Səfa Dadaş oğlu Mustafayev 1936-cı ildə Ucar rayonunun Qarabörklü kəndində ziyalı ailəsində anadan olmuşdur. Onun atası Dadaş Mustafayev 1891-ci ildə Şuşa şəhərində anadan olmuşdur. O, əfsanəvi bir həyat yaşamışdır. 1918-1921-ci illərdə İranda şah rejimi və ingilis müstəmləkəçiliyi ilə, eləcə də ağ qvardiya ilə mübarizə aparanların sırasında olmuşdur.



УДОСТОВЕРЕНИЕ.

Дано сие от Революционного Комитета по освобождению Персии тов. ДАДАШ МУСТАФАЕВУ в том, что он с 19[illegible] г. по 1921 г. участвовал в партизанских боях против английского империализма, шахского правительства феодалов, контрреволюционеров и русских белогвардейцев. Порученные ему обязанности он исполнял честно и храбро. [illegible] время боя на меджидском фронте ранен [illegible] лей, что подписью и приложением печати удостоверяется.

Председатель персидск. Ревкома Освобожд. Ирана:/Подпись/.

Партизанская книжка М-161/661.

Настоящая копия правильная, поэтому нотариально удостоверяется.

[illegible] выдано-2 рубля [illegible] года.

Дачинский Нарсудья:/Подпись/. [illegible]

Мерская Государственная Нотариальная Контора свидетельствует верность этой копии с подлинником ее. Взыскано единой госпошлины [illegible] р. и технических-2 рубля. [illegible] "8" дня 1965 года, по реестру [illegible]

Нотар[illegible]

Dadaş Mustafayev

O, 1941-1945-ci il müharibəsində iştirak etmişdir. Orden və medallarla təltif olunmuşdur.

Səfa müəllimin anası Səltənət Qəmbər qızı (1909-cu il təvəllüdlü) dərzi idi. Dadaş müəllim 1960-cı ildə, Səltənət xanım isə 1995-ci ildə dünyalarını dəyişmişdirlər.

Səfa müəllim orta təhsilini doğma yurdunda başa vurduqdan sonra 1954-cü ildə Azərbaycan Neft və Kimya institutunun «Neft-mədən» fakültəsinə qəbul olmuş və bu ali məktəbi 1959-cu ildə dağ mühəndisi ixtisasına yiyələnərək fərqlənmə diplomu ilə bitirmişdir. İnstitutu bitirdikdən sonra «Artyomneft» NQÇİ-də neftçıxarma operatoru, mühəndis və elmi-tədqiqat istehsalat işləri sexinin «Quyuların və layların tədqiqi» elmi-tədqiqat laboratoriyasının rəisi vəzifələrində işləmişdir.

Səfa müəllim istehsalatdan ayrılmamaq şərtilə aspiranturaya daxil olmuş və 1969-cu ildə «Qeyri-nyüton neftlər verən quyuların tədqiqi» mövzusunda dissertasiya müdafiə edərək texnika elmlər namizədi alimlik dərəcəsi almışdır.

1970-1972-ci illərdə ADNA-nın «Neft və qaz yataqlarının işlənməsi və istismarı» kafedrasının dosenti vəzifəsində işləmişdir.

1972-ci ildə o Moskvada Moris Torez adına Xarici Dillər institutunda 10 aylıq xarici dil (fransız dili) kurslarını bitirmiş, sonradan Əlcəzair Xalq Demokratik Respublikasının Bumerdes şəhərində yerləşən «Milli karbohidrogenlər və kimya» institutuna ezam olunmuşdur. Səfa müəllim 1973-1975-ci illərdə burada «Qazıma və istismar» kafedrasında işləmiş və bu dövrdə fransız dilində «Neft və qaz yataqlarının işlənməsi», eləcə də «Neftçıxarma texnikası və texnologiyası» fənlərindən mühazirələr oxumuşdur.

Onun gərgin əməyi nəticəsində bu ali məktəbin tələbələri üçün «Neft və qaz yataqlarının işlənməsi» dərsliyi və iki metodik iş hazırlanıb nəşr edilmişdir.

Tədris və elmi işlərlə yanaşı Səfa müəllim institutun ictimai həyatında aktiv fəaliyyət göstərmişdir. Orada fəaliyyət göstərən «Azərbaycan ansamblı»na rəhbərlik etməklə, uğurla konsertlər təşkil etmişdir.

Ezamiyyətdən qayıtdıqdan sonra, 1976-1989-cu illərdə, ADNA-nın «Xarici vətəndaşların hazırlıq» fakültəsinin «Ümumtəhsil fənnlər»i kafedrasında dosent və kafedra müdiri vəzifələrində işləmiş, Rəsmxət fənnindən dərs aparmışdır. Səfa müəllim 1989-2009-cu illərdə (20 il) «Mühəndis qrafikası» kafedrasında dosent vəzifəsində çalışmışdır.

2009-cu ildən «Neftin və qazın istehsalı və emalı texnikası» kafedrasında dosent vəzifəsində çalışır. Ümumilikdə onun 50 il pedaqoji stajı vardır.

Səfa müəllim tələbələri ilə birlikdə

Səfa müəllim öz bilik və bacarığını respublikamızın digər ali məktəb tələbələri ilə də bölüşdürmüşdür. O müxtəlif illərdə Moskva avtomobil yolları institutu, Azərbaycan Xarici Dillər Universiteti, Azərbaycan Beynəlxalq Universiteti, Odlar Yurdu Universiteti, Bakı axşam neft texnikumu, Axşam orta məktəbi, Azneft şirkətinin tədris mərkəzi, ADNA-nın Şuşa filialı, ADNA-nın Əlibayramlı şəhər filialı və Beynəlxalq kollecində geniş profilli fənlər üzrə dərslər aparmışdır.

Gülüstan sarayında keçirilən beynəlxalq konfransda

Səfa müəllim 150-dən çox elmi məqalələrin, dərsliklərin, monoqrafiyaların və patentlərin müəllifidir. Onun elmi əsərləri Almaniyanın Freyberq Dağ Akademiyasının xəbərində, Ufa şəhərində Baş Elmi Tədqiqat institutunun xəbərlərində, Lomonosov adına Moskva universitetinin elmi əsərlərində, Əlcəzairdə, Ümumittifaq «Neft təsərrüfatı», «Neft və qaz», «Neft işi» jurnallarında, Azərbaycan Neft Təsərrüfatı jurnalında, ADNA-nın «Neft və qaz» jurnalında, Tatarıstanda, Türkmənistanda, Özbəkistanda və Qazaxıstanda nəşr olunmuşdur.

Səfa müəllim beynəlxalq səviyyəli konfranslarda samballı və maraqlı çıxışlar etmişdir.

Səfa müəllim gözəl ailə başçısıdır. O, 1976-cı ildə Səadət xanımla ailə həyatı qurmuşdur. Onların 2 oğlu və bir qızı var.

Səadət xanım Bakı şəhərindəki 177 saylı uşaq bağçasında tərbiyəçi müəllimə işləyir.

Səfa müəllim, anası Səltənət xanım və balaca Nəriman

Ailənin böyük oğlu Nəriman dünyaya göz açanda hamıdan çox sevinən Səltənət nənə olmuşdu. Nəriman hal-hazırda Azərbaycanda fəaliyyət göstərən xarici firmalardan birində çalışır. Ailənin yeganə qızı – Ləman musiqi müəlliməsidir. Səfa müəllimin kiçik oğlu Vüsal «Kaspien drilinq kompani»də çalışır.

Talehin qismətindən Səfa müəllimin övladlarının toylarında iştirak etmişik. Ümumiyyətlə, belə əziz günlərdə kafedranın kollektivi bütövlükdə dostlarının sevincinə şərik çıxmağı və sevinməyi çox xoşlayır.

Nəriman və İlahə

Mahmud və Ləman

Vüsal və Mehri

Səfa müəllim harada çalışmağından asılı olmayaraq həmişə kollektivin sevimlisi olmuşdur. Onda yüksək yumor hissi vardır. O kafedra əməkdaşları ilə zarafatlaşanda və lətifələr danışanda elə gülür ki, səsini bütün mərtəbədə eşitmək olur.

Bu gün Səfa müəllim 5 nəvənin – Nigar, Elmira, Tamerlan, Cavad və Elbəyin babasıdır. Onlarla birlikdə olmaq ona olmazın sevinc bəxş edir.

Səfa müəllim və Səadət xanım nəvələri ilə birlikdə

Səfa müəllim qohuları ilə

Böyük bir nəslin övladı olan Səfa müəllim qohum-qardaş ilə tez-tez görüşməyi xoşlayır.

Bu böyük ailəyə xoşbəxtlik və səadət arzulayırıq.

MÜBARİZ İNSAN, BÖYÜK ALİM, SEVİMLİ BABA

Ərəbov Rafiq Bayram oğlu

Rafiq müəllimlə tələbəçilik illərindən tanış olsam da belə yaxın münasibətlərimiz 1995-ci ildə başlanır. O, artıq «Mühəndis qrafikası» kafedrasında çalışırdı. Mən isə həmin il kafedraya müdir vəzifəsinə seçilmək üçün sənədlərimi təqdim etmişdim. Məni dəstəkləyənlərdən birisi də Ərəbov Rafiq müəllim idi. O zaman kafedra iclasında Rafiq müəllimin çıxış edərək dediyi sözlər mənim yadımdadır: «Son zamanlar kafedraya müdir təyin oluması məsələsi çətin bir problemə çevrilmişdir. Bu məsələyə müxtəlif vaxtlarda baxılmış, lakin məsələ həll edilmədən qalmışdır. Bu vəzifəni tutmuq üçün bu gün institutumuzun iki hörmətli professoru öz namizədliklərini irəli sürmüşdürlər. Mən namizədlərdən birini çox yaxından tanıyıram və inanıram ki, kafedranın yaşadığı problemləri ancaq o həll edə biləcəkdir. Bu İbrahim müəllimdir. Onu dəstəkləməliyik».

Ərəbov Rafiq Bayram oğlu 11 dekabr 1955-ci ildə Mingəçevir şəhərində anadan olmuşdur. 1972-ci ildə orada 1 saylı orta məktəbi bitirərək Azəbaycan Dövlət Neft və Kimya institutunun "Neft mexanika" fakültəsinə qəbul olunmuşdur.

Rafiq müəllimin tələbəlik illəri aktiv olmaqla, elmi cəmiyyətlərdə etdiyi çıxışlarla, idman uğurları ilə yadda qalmışdır. 1977-ci ildə «Maşınqayırma texnologiyası metal kəsən alətlər və dəzgahlar» ixtisası üzrə tam kursu bitirdikdən sonra təyinatla «Bakı aqreqatlar zavodu» istehsalat birliyinə işə göndərilmişdi.

Tələbə dostu Nazimlə birlikdə
1977-ci il, əsgərlik toplantısında



1974-cü il

Burada mühəndis, mühəndis konstruktor və bir sıra vəzifələrdə çalışaraq geniş təcrübə topladıqdan sonra 1980-cı ildə Mingəçevir şəhərində «Yol maşınları» zavodunda mühəndis-texnoloq vəzifəsinə təyin edilir. Zavodda işlədiyi müddətdə o istehsalat problemlərinin həllində həmişə müstəqil qərar qəbul etmək kimi xüsusiyyəti özünün gündəlik həyat tərzinə çevirə bilmişdir. Gərgin iş rejiminə baxmayaraq o öz elmi potensialının yüksəldilməsi istiqamətində daim işləmişdir.



1983-cü il

Elmə olan həvəsi onu 1981-ci ildə Moskva şəhərində Yol tikinti maşınları üzrə elmi-tədqiqat institutunun aspiranturasına gətirir. O, 1989-cu ildə dissertasiya işini müdafiə edərək texnika elmlər namizədi elmi adına layiq görülmüşdür. Aspiranturadan sonra Rafiq müəllim yenidən Mingəçevir şəhərinə qayıdıb zavodda müxtəlif vəzifələrdə çalışmışdır.

Birliyin baş konstruktoru işlədiyi zaman çoxsaylı səmərələşdirici təklifləri, onların həyata keçirilməsi və əldə olunan yüksək iqtisadi səmərəliliyi nəzərə alınaraq Rafiq müəllimi zavodun direktor müavini təyin edirlər.

1991-ci ildə Azərbaycan Nefi və Kimya institutunun «Mühəndis qrafikası» kafedrasına baş müəllim vəzifəsinə müsabiqə yolu ilə qəbul olunmuşdur. 1992-ci ildə Azərbaycan Respublikasının Prezidentin fərmanı ilə Mingəçevir şəhər icra hakimiyyəti aparatının başçısı vəzifəsinə təyin edilmişdir.

1994-cü ildə yenidən Azərbaycan Dövlət Neft Akademiyasına «Mühəndis qrafikası» kafedrasına qayıdır və burada baş müəllim vəzifəsinə təyin edilir. Hal-

hazırda «Maşınların dinamikası və möhkəmliyi» kafedrasında dosent vəzifəsində çalışır. Rafiq müəllim çoxlu sayda elmi işin, o cümlədən məqalələrin, tezislərin, dərslik və metodiki işlərin müəllifidir. Akademiyanın ictimai həyatında aktiv iştirak edir. Kollektiv arasında böyük nüfuz və hörmət sahibidir.

1977-ci ildən ailəlidir. Üç övladı və beş nəvəsi var.

Sümiyyə və Şəhla

Əziz

Cavidan

Nuray

Rafiq müəllimin ilk övladı Leyla xanım Acərbaycan Tibb Universitetini bitirmişdir. Həkim kosmetoloqdur, ailəlidir və iki oğlu vardır. Böyük oğlu Səməd Acərbaycan Xarici Dillər Universitetini bitirmişdir. Hal-hazırda "Azərsell" şirkətində çalışır. Evlidir, bir qızı vardır. Ailənin kiçik oğlu Seymur Azərbaycan Dövlət Neft Akademiyasının tələbəsi olmuşdur. Proqramistdir, iki qızı vardır.

Rafiq müəllimə, onun böyük ailəsinə xoşbəxtlik və əmin-amanlıq arzulayırıq.

НАСТОЯЩИЙ ПЕДАГОГ, ЛЮБЯЩАЯ МАТЬ, ПРЕКРАСНАЯ БАБУШКА

Нурмамедова Захра Ахмедовна

Я нашел координаты Зары ханум, когда эта книга почти была готова к печати. Она в настоящее время живет в городе Москва. Попросил ее оказать мне помощь и написать о себе, о кафедре, про годы учебы и работы в институте. Зная, как она хорошо владеет пером, лаконично и четко излагает свои мысли, сказал ей, что жду интересное эссе. Так и получилось. Через неделю на мой электронный адрес пришло письмо от Зары ханум с воспоминаниями о том, что было ей дорого. И чтобы ничего не искажать, я решил в эту книгу поместить все так, как было написано ею.

«Я родилась в городе Баку 15 ноября 1938 года. Дата рождения-сухие цифры. Однако, именно в этих цифрах заложена основная информация о человеке: о его характере, о его судьбе, о времени и обстановке, в которой он жил. Из этих цифр получается, что во время Великой Отечественной Войны я уже существовала и хоть что-то, но могу рассказать об этом периоде.

Но эти воспоминания напоминают скорее обрывки разных событий, собранных в один калейдоскоп. Чаще всего из всех этих обрывков я вспоминаю маленький кусочек черного хлеба, вкуса которого я не помню. Очевидно, что по хронологии событий это происходило в начале войны, когда жить было голодно, и хлеб выдавали по карточкам в очень малой дозе и очень черный и мокрый.

Мой отец, Нурмамедов Ахмед Джебраилович, врач-хирург, с самого начала войны был назначен начальником эвакуационного военного госпиталя, расположившегося в г. Сальяны. В Баку мы остались втроем:

мама, я (в начале войны мне было 2,5 года) и мой брат, который был на 3 года старше. Мама получала на всех нас кусок хлеба, который делила на 3 части и самую маленькую оставляла себе. Долю каждого она еще раз делила на 3 части, чтобы каждый мог 3 раза в день съесть по кусочку. Кусочки были маленькими, меньше моей детской ладошки, и если съесть в начале обеда, то в конце чувствовалось, что ты без хлеба, а голод не прошел.

Война сплотила народ одной бедой, объединила людей одной общей болью. Может именно это-виденное и пережитое во время войны-выработало в людях нашего поколения необходимость делать добро и помогать по возможности.

В тыловой госпиталь, начальником которого был отец, везли и везли раненых-и день и ночь. И папа оперировал- и день и ночь, спасая людей. Часто, по несколько дней не приходил домой. Усталый, засыпал в своем кабинете.

К несчастью, стране приходилось бороться не только с видимым врагом на фронтах, но и с невидимым врагом-террористами. В те годы я, конечно, ничего в этом не смыслила, но помню пожар, когда горел папин кабинет, а потом сказали, что это был "поджог", и что виновников поймали. А мне объяснили, что это были "шпионы" (ведь слово "террористы" я бы не поняла). Но, слава богу, обошлось без человеческих жертв. А ведь именно там, после очередных операций отдыхал мой папа и другие изнуренные врачи. Но люди не могут постоянно страдать и переживать. И чем сильнее боль, тем острее воспринимается красота, и тем ценнее ощущение даже незначительной радости.

Нашим мамам все равно хотелось выглядеть красиво. Но во время войны... где купить красивую одежду? Шили сами. Из того, что попадалось под руку: из простыни (лён), из парашюта (Шёлк)-кто что находил. Как говорится "Голь на выдумку хитра!".

Потом в Баку был создан новый госпиталь - "офицерский" И папу назначили начальником этого "офицерского госпиталя". Мы вернулись в свою квартиру в Баку.

После Войны папа демобилизовался из Армии и стал работать директором Республиканского Научно-Исследовательского института Туберкулеза (впоследствии Пульмонологии). Он защитил диссертацию, был профессором Института Усовершенствования врачей. Он был также членом

Правления Всемирной Организации Пульмонологов.

В 1968 году, в возрасте 56 лет мой отец скончался от инсульта.

В 1946 году я поступила в школу №23, она считалась "образцовой". Самыми любимыми предметами для меня были математика и физика.

Помню, когда я училась в 9-ом классе, нашу женскую школу объедини ли с мужской - №8. Так мы последние два года учились вместе.

Окончили школу. Мы все-однодклассники разбрелись по разным дорогам жизни. "Школьные годы чудесные" остались позади.

Чудесные школьные годы

Я поступила в Азербайджанский Политехнический институт на Механический факультет по специальности "Технология машиностроения, металлорежущие станки и инструменты". В институте я училась отлично. Моя фотография висела на "доске отличников". А рядом, на этой же доске висела фотография моего будущего мужа-Игоря, который тоже был отличником. Мы учились в одной группе и с 1-го курса были вместе. И так

до того трагического момента, когда он, в возрасте 49 лет, скончался от инфаркта. После института он работал начальником отдела Товаров Народного Потребления института ВНИИПТНефтеМаш.

Студенческая жизнь в те годы была очень интересной и веселой. Достаточно вспомнить известные "вечера", которые каждую субботу проходили во всех ВУЗах г. Баку. На разных этажах в коридорах играли эстрадные оркестры! Танцы, веселье! В актовых залах концерты! В больших аудиториях крутили кинофильмы! После такого, хорошо организованного, отдыха и учиться было приятно.

После института до октября 1964 года я проработала на заводе им. Л.Шмидта инженером СКБ (специальное конструкторское бюро). К тому времени у меня уже был сын Олег, который родился 12 октября 1963г. С октября 1964 по май 1968 г. я работала во ВНИИПТНефтемаше на должности младшего научного сотрудника, но и здесь я не чувствовала удовлетворения. Совершенно случайно мне посчастливилось познакомиться с академиком А.Х. Мирзаджанзаде. Он предложил мне работать на кафедре "Разработка и эксплуатация нефтяных и газовых месторождений", заведующим которой он был. А я сказала, что я инженер-механик, а не промысловик, на что он ответил: "А какая разница? У Вас механика металла, а у нас - механика жидкости. И то, и другое - механика". Итак, с 22 мая 1968 года я начала работать в Азербайджанском институте Нефти и Химии им. М.Азизбекова на кафедре у академика А.Х. Мирзаджанзаде.

Азат Халилович Мирзаджанзаде. С одной стороны - это человек с очень сложным характером, но с другой стороны - он очень честный и

справедливый. И любит и ценит - честность. С одной стороны он жесткий, но с другой стороны - если кто-то попадал в беду, он первым предлагал свою помощь. И помогал очень существенно и до конца. Он был очень щедрым. Он никогда никому не давал возможности заплатить за него даже копейку, но в командировках всегда за всех платил сам. Он всегда учил делать людям добро и никогда не оставлять в беде. Это его слова: "Можно не пойти на день рождения к другу, но на похороны его близких надо идти обязательно!". Вот так он воспитывал нас - своих учеников. Это был гениальный разум, генератор идей, источник знаний, ходячая энциклопедия - в общем: гений, работать с которым было невероятно интересно.

Мы работали с огромным энтузиазмом. Выполняли все, что поручал Азат Халилович. Наши мозги работали в постоянном напряжении. Мы жили и дышали наукой. А когда Азат Халилович сказал про меня: "Зара нашла себя!" - для меня это было самой высокой наградой. А однажды, во время очередного эксперимента, из ртутного манометра выбило под давлением ртуть. И этот ртутный дождь мельчайшими капельками всю меня облил с головы до ног. Обувь пришлось выкинуть тут же (домой пошла в тапочках), а голову мне помыли, поливая водой из чайника, и вычесывая расческой капельки ртути с головы. И опять пронесло, и опять ничего страшного.

Тема моей кандидатской диссертации: "Исследование сорбционной способности пород-коллекторов газовых и газоконденсатных месторождений". 20 мая 1977г. мне была присуждена ученая степень кандидата технических наук, а 11 января 1984 г. Решением Высшей Аттестационной Комиссии при Совете Министров СССР мне присвоено ученое звание Старшего Научного Сотрудника по специальности "Разработка и эксплуатация нефтяных, газовых и газоконденсатных месторождений".

У меня много научных статей, методических руководств и учебных пособий, их более 120. Мои научные разработки были внедрены на нефтяных промыслах Азербайджана, Западной Сибири и Средней Азии. Всего25 актов внедрения. Имею 2 изобретения.

Работая старшим научным сотрудником над проблемами нефти и газа, я с 1980 года параллельно начала преподавательскую деятельность по кафедре "Инженерная графика", в должности доцента.

Мой единственный сын Олег Игоревич, родившийся в 1963 году, не пошел по стопам своих родителей, не пошел в машиностроение, а решил стать врачом, как его дед. Он окончил Стоматологический факультет мед института в Баку. В 1990г. уехал в г. Москву, где работает Главным врачом Московской Стоматологической поликлиники.

У меня 2 внука. Оба решили стать, как их отец, стоматологами. Старший внук окончил Московский Медицинский институт, работает стоматологом и заканчивает аспирантуру. Младший внук заканчивает последний курс мед.института.

В 1990 г. я вышла замуж во второй раз. Мой муж - Бехбутов Талят работал директором 7-го Государственного Подшипникового завода. В 2009 году он скончался от инсульта в возрасте 74 лет.

Талят и Заря ханум

Мой брат, Нурмамедов Тофик Ахмедович, 1935 года рождения, окончил энергетический факультет Азербайджанского института Нефти и Химии им. М.Азизбекова. Он кандидат технических наук, Лауреат Государственной Премии, работал в АзЭНЕРГО начальником "службы изоляции". Сейчас-пенсионер.

Моя сестра, Нурмамедова Лилия Ахмедовна, 1953 года рождения, окончила Лечебный факультет Азербайджанского Медицинского Института. Работала пульмонологом в Городском Туберкулезном Диспансере. В настоящее время-пенсионер.

Наша мама, Нурмамедова Татьяна Ефремовна, родилась на Северном Кавказе в 1912 году. Жила в Кисловодске и работала в санатории. А папу, как лучшего студента Аз. Медицинского Института, наградили золотыми часами и путевкой в санаторий города Кисловодск. Там они и встретились, и полюбили друг друга. Наш папа азербайджанец, а мама кубанская казачка. Прожили они в любви и согласии до последних дней.

В возрасте 72 лет 1 января 2011 я уволилась, и сейчас большей частью живу в г. Москва, так как там живут мои дети и внуки.

Последние годы часто путешествую. Это доставляет мне особое удовольствие. Но, не менее 3-х месяцев в году я провожу на Родине, в Баку, в моем любимом городе, который хорошеет с каждым днем.

В этом городе - ярких огней,
В этом городе - верных друзей,
Я училась жить, и дружить.
Как же мне Баку не любить!!!

İBRAHİM HƏBİBOV

MÜHƏNDİS QRAFİKASI
kafedrası:
80
illik şərəfli yolun tarixi

Korrektorlar:

R.S.Nəcəfquliyeva
A.R.Qafarova

Çapa imzalanmışdır: 10.01.2013.
Kağız formatı 70x100 1/16
Çap vərəqi 9,25. Sifariş 7.
Qiyməti müqavilə ilə.

ADNA-nın mətbəəsi
Bakı, Azadlıq pr, 20